# Quranla Tanışlıq

## I VƏ II KİTAB

Mürtəza Mütəhhəri

Bütün Gürcüstan Müsəlmanları İdarəsi
İİR-in Gürcüstandakı Mədəniyyət Mərkəzi

Tiflis – 2016

Buraxılışa məsul: Nurman TARİQ

Tərcümə edən: Ağabala MEHDİYEV

Redaktor: Rəşad HƏSƏNOV

Ədəbi redaktor: Eldar ŞAHMƏRDANLI

Korrektor: Turac ELDARQIZI

Bədii və texniki tərtibat: Qabil ŞAHMƏRDANLI

Üz qabığı: Azər ƏSGƏRZADƏ
İsmayıl SÜLEYMANLI

Mürtəza Mütəhhəri. Quranla tanışlıq (I və II kitab).
"Parlaq İmzalar" Nəşriyyatı – 2016, 120 səh.

Müsəlmanların Qurani-kərimə yetərincə diqqət etməməyi ömrünü müsəlman cəmiyyətində olan boşluqları doldurmağa, mövcud problemləri həll etməyə həsr etmiş böyük İslam alimi Mürtəza Mütəhhərinin gözündən yayına bilməzdi. O dahi mütəfəkkir müsəlmanların Quranla tanışlığını artırmaq üçün illərini sərf edərək, müasir dövrə uyğun olan Quranla bağlı çoxsaylı çıxışlar etmiş, bu baxımdan bir çox surələrin təfsirini vermişdir.

Sizə təqdim olunan kitabın birinci hissəsində Qurani-şərif müxtəlif baxımdan araşdırılır, bir sıra önəmli məsələlərə diqqət çəkilir. Kitabın ikinci hissəsində isə, "Fatihə" və "Bəqərə" surəsinin (bir hissəsinin) təfsiri verilmişdir.

Hər mövzuda olduğu kimi, burada da görkəmli alimin mövzulara fərqli yanaşması diqqəti cəlb edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-8150-4-7

© Parlaq İmzalar / 2016

Kitabın bütün hüquqları qorunur.
İcazəsiz olaraq hər hansı şəkildə
nəşri qadağandır.

# Mündəricat

Ön söz ........................................................................ 5
Müəllif haqqında .......................................................... 7

## *Quranla Tanışlıq*

I KİTAB

**Quranla tanışlıq ........................................................... 15**
Quranla tanışlığın növləri ........................................... 17
Birinci tanışlıq:
Sənəd və ya istinad baxımından tanışlıq ..................... 17
İkinci tanışlıq: Təhlili (analitik) tanışlıq ...................... 21
Üçüncü tanışlıq: Əsaslı tanışlıq ................................... 22
Quranın üç özəlliyi ...................................................... 24
Quranla tanışlığın şərtləri ........................................... 25
Quranla tanış olmaq mümkündürmü? ........................... 30

### *Birinci Fəsil*

**Quranla təhlili (analitik) tanışlıq ............................. 37**
Quran özünü necə təqdim edir? ................................. 38
Quranın dili ilə tanışlıq ................................................ 40
Quranın müraciət ünvanları ........................................ 47

## İkinci Fəsil

**Quran baxımından ağıl .......... 51**

Ağlın istinad mənbəyi olmasının dəlilləri .......... 52
1. Quranın ağlı işlətməyə və düşünməyə dəvət etməsi. 52
2. Səbəb-nəticə qanunlarından istifadə .......... 54
3. Şəriət hökmlərinin fəlsəfəsi .......... 55
4. Ağlın xətaları ilə mübarizə .......... 56
Quran baxımından səhvin kökü .......... 59

## Üçüncü Fəsil

**Quranın qəlb barəsindəki nəzəri .......... 63**

Qəlbin tərifi .......... 64
Qəlbin xüsusiyyətləri .......... 66
Əndəlus faciəsi .......... 68

# Quranla Tanışlıq

II KİTAB

**Həmd surəsinin təfsiri .......... 77**

İşlərə Allahın adı ilə başlamaq .......... 79
Həmd Allaha məxsusdur .......... 89
Nəzəri və əməli tövhid .......... 100
İbadət sözünün kökü .......... 105
Şirklər və tövhidlər .......... 106
İbadətin inhisarı .......... 109
Cəm şəkilçisi .......... 110

# Ön söz

On dörd əsr əvvəl; insanlığın süqut dövründə, zahiri və batini çirkablar hər yanı bürüdüyü bir zamanda, bəşəriyyətə ləkə olan hərəkətlərlə fəxr edildiyi bir dönəmdə sonsuz elm, mərhəmət, qüdrət Sahibi tərəfindən doğru yolu göstərən, sonsuz hikməti özündə cəmləmiş, ondan əvvəl və ondan sonra bənzəri olmayan, ən üstün kitab – Qurani-kərim nazil oldu... "Danışan Quran", həm də Quranı danışan, parlaq bir sima – insanlıq günəşi həzrət Məhəmməd (s) ilahi göstərişləri, ayələri hər cür əziyyətə qatlaşaraq, batmaqda olan insanlığın əlindən tutaraq həyata keçirdi…

O gündən sonra dəyərlər dəyişdi, insanlıq önündə işıqlı üfüq açıldı…

İlahi feyz daşıyıcısı, xoşbəxtlik yolunun yeganə yolgöstərəni olan Qurani-kərim kimi bir kitaba sahib olmaq hər bir müsəlman üçün bir şərəf, bir fəxrdir… Bu səmavi kitabı tanımaq, onun ali göstərişlərinə diqqət yetirmək və əməl etmək hər bir müsəlmanın vəzifəsidir.

Amma, təəssüflər olsun ki, tarix boyu müsəlmanlar Qurani-kərimə layiqincə qiymət verməyib, bu İlahi kitabdan uzaq düşmüşlər. Bir çox hallarda qeyri-müsəlmanlar müsəlmanlara nisbətən Qurani-kərimdən daha çox bəhrələnmişlər…

Ömrünü müsəlman cəmiyyətində olan boşluqları doldurmağa, mövcud problemləri həll etməyə həsr etmiş böyük İslam

alimi Mürtəza Mütəhhərinin gözündən bu problem də yayına bilməzdi. Belə ki, o dahi mütəfəkkir müsəlmanların Quranla tanışlığını artırmaq üçün illərini sərf edərək, müasir dövrə uyğun olan Quranla bağlı çoxsaylı çıxışlar etmiş, bu baxımdan bir çox surələrin təfsirini vermişdir. Təəssüflər olsun ki, alimin şəhid olması ilə bu iş yarımçıq qaldı. Ustad Mütəhhərinin vəfatından sonra müxtəlif zamanlarda müxtəlif yerlərdə Quranla bağlı etdiyi çıxışlar, təfsirlər «Quranla tanışlıq» *(Aşinayi ba Quran)* adı altında toplanmış və nəhayət yaxın keçmişdə 14 kitabdan ibarət külliyyat şəklində tamamlanmışdır. Bu 14 kitabdan ibarət külliyyatda təxminən Quranda olan surələrin yarısının təfsiri yer almışdır. Hər mövzuda olduğu kimi, bu təfsirlərdə də görkəmli alimin mövzulara fərqli yanaşması diqqəti cəlb edir.

Sizə təqdim olunan bu kitab həmin o külliyyatın birinci və ikinci hissəsidir *(kitabın orijinalında ikinci hissədə "Həmd" surəsindən başqa "Bəqərə" surəsinin də az bir hissəsinin (27 ayə) təfsiri yer alır, amma biz bu nəşrdə yalnız "Fatihə" surəsi ilə kifayətlənməyi məqsədəuyğun hesab etdik).*

Ümidvarıq ki, ölməz alimin bu kitabı xalqımızın Quranla tanışlığını artırmaq istiqamətində faydalı olacaq və bizləri daha çox Quranla ünsiyyətdə olmağa sövq edəcək.

# Müəllif haqqında

Əsrlər boyu dünya mütəfəkkirləri arasında özünəməxsus fikir və düşüncəsi olan şəxslər yaşayıb-yaratmış, öz zəkası ilə bəşəriyyətə misilsiz xidmətlər etmişlər. İnsanlıq bu şəxslərə çox şey borcludur. Məhz bu elm fədailərinin sayəsində insani dəyərlər inkişaf etmiş, düşüncələr işıqlanmış, qaranlıqlar aydınlığa qovuşmuşdur.

Böyük filosof, görkəmli İslam alimi Mürtəza Mütəhhəri də bu mütəfəkkirlər sırasında öz xüsusi yeri olan şəxsiyyətlərdəndir. O, ömrünü cəmiyyətin islahına, müasir dövrdə meydana çıxan və dəyərləri təhdid edən şübhələrə cavab tapmağa həsr etmişdir. Buna görə də Mütəhhəri dövrünün gəncləri, ziyalıları, ümumiyyətlə, bir islahatçı alim olaraq kütlə tərəfindən sevilmiş, sağlığında böyük İslam alimi kimi şöhrət qazanmışdır.

* * *

Mürtəza Mütəhhəri 1919-cu il fevralın 2-də Xorasan mahalının Fəriman şəhərində alim və inanclı bir ailədə dünyaya gəlib.

Mütəhhəri uşaqlıq dövrünü məktəbdə ibtidai təhsil almaqla və Quran öyrənməklə keçirib.

O, 1931-ci ildə Məşhəd şəhərinin mədrəsələrində şəriət dərslərini öyrənməyə başlayır.

1937-ci ildə dərslərini davam etdirmək üçün Qum şəhərinə gedir. Orda 15 il qalır və dövrünün ən məşhur filosoflarından olan azərbaycanlı alim Məhəmmədhüseyn Təbatəbai Təbrizi kimi görkəmli şəxsiyyətlərdən dərs alaraq, İslam elmləri və digər sahələrdə yüksək dərəcələrə çatır. O cümlədən İslam fəlsəfəsi, fiqh və üsul, sosiologiya, psixologiya, tarix, təfsir, İslam sxolastikası və başqa sahələr üzrə böyük nailiyyətlər əldə edir.

1952-ci ildə Tehrana köçən alim elə o zamandan elmi tədqiqat işlərinə başlayır. Həmin dövrdə müəllimi Məhəmmədhüseyn Təbatəbainin qələmə aldığı *"Fəlsəfə prinsipləri və realizm metodu"* kitabına giriş yazır və 5 cilddə şərh edir. O, bu işi 1953-cü ildə sona çatdırır.

1955-ci ildən başlayaraq "Tələbə İslam Cəmiyyəti"ndə yeni və fərqli yanaşmalarla Quran təfsiri dərsləri deyir və eyni ildə Tehran universitetinin "İlahiyyat Elmləri və İslam Maarifi İnstitutu"nda müəllimlik fəaliyyətinə başlayır və burada təlim-tədris işini iyirmi il (1976-cı ilə kimi) davam etdirir.

Tehran ziyalıları və gəncləri ilə mütəmadi ünsiyyətdə olan Mütəhhəri Tehranda olduğu müddətdə müxtəlif konfranslarda, tədbirlərdə çıxış edərək İslam dininə qarşı yönəlmiş iradlara, şübhələrə cavab verir, məsələlərə yeni baxış gətirir. Beləliklə, get-gedə Mütəhhəri ziyalı kütlənin sevimlisinə çevrilir, müxtəlif konfranslara dəvətlər alır, artıq çıxışları Tehranla məhdudlaşmır; digər şəhərlərdə də müxtəlif tədbirlərdə iştirak edir.

1959-cu ildə Mütəhhəri "Həkimlərin İslam Cəmiyyəti"nə spiker kimi dəvət olunur və orda o günə kimi müzakirə olunmayan "İslam və zamanın ehtiyacları", "Teizm" mövzusu kimi bir çox elmi əhəmiyyətli çıxışlar edir.

1967-ci ildə o dövrün elmi müzakirə ocağı sayılan İrşad İslam Mədəniyyət Mərkəzini təsis edilərkən Mütəhhəri oranın əsas üzvlərindən biri olur. İrşadda Mütəhhəri ilə yanaşı, Dr. Əli Şəriəti kimi dövrün digər ziyalıları da çıxış etməyə başlayır.

Bir neçə il sonra İrşad İslam Mədəniyyət Mərkəzindən ayrılsa da, fəaliyyətini, çıxışlarını müxtəlif yerlərdə davam etdirir.

Elmi-ictimai fəaliyyəti ilə yanaşı, dövrün aktual problemlərini ələ alan əsərlər üzərində də işləyir.

Daim cəmiyyətdəki nöqsanların islahı fikrində olan yorulmaz alim 1979-cu ilin may ayının ikisində sui-qəsd nəticəsində başından aldığı güllə yarası ilə şəhid edildi. Bənzərsiz fikirlərin mənbəyi olan o beyinlə barışa bilməyənlər çirkin hədəflərinə nail olub onu dayandırdılar. Özünü elmə, həqiqət yoluna fəda etmiş, alim sözü onun üçün kiçik görünən o bənzərsiz şəxsiyyətin yanar ürəyi artıq döyünmürdü... Dahinin ölümü şübhələr burulğanından onun əvəzolunmaz çıxışları, kitabları vasitəsilə xilas olmuş gəncliyi və ümumiyyətlə, həqiqət axtarışında olan kütləni dərin hüznə qərq etdi. Mütəhhərinin elm nuru yayan tribunası artıq boş qaldı, o gündən bu günə dahi mütəfəkkirin yeri hər zaman görünməkdədir.

* * *

Mürtəza Mütəhhəri öz dövrünün problemlərini lazımınca başa düşüb araşdırmağı bacaran və eyni zamanda bütün varlığı ilə İslam dininə bağlı olan bir mütəfəkkir alim olmuşdur. Onun varlığında cəmləşən bu iki xüsusiyyət ona yaşadığı dünyanı dərk etmək, onda baş verən elmi-ictimai dəyişiklikləri vaxtında müşahidə edərək mövcud problemlərlə, ehtiyaclarla tanış olmaq və onların həlli yolunda var qüvvəsi ilə çalışmaq imkanı verirdi.

Mütəhhəri öz zəmanəsini dərindən tədqiq edərək onu lazımınca tanımağa çalışırdı. O, bu barədə özünün "Gənc nəslin yönləndirilməsi" adlı məqaləsində yazır:

*"Biz hazırda çox mühüm bir sual qarşısında dayanmışıq. Yaşadığımız dövrdən, onda baş verən mühüm dəyişikliklərdən xəbərsizik. Bəzən haqqında əvvəlcədən lazımi qədər tədqiqatlar aparmadığımız mövzularla rastlaşırıq..."*

Mütəhhəri bu məsələyə həddindən artıq diqqət yetirmiş, dövrünün problemlərini vaxtında və hətta bəzən vaxtından da qabaq analiz etməyi bacarmış və İslam dini baxımından bu məsələnin nə qədər əhəmiyyətli olduğunu dərk etmişdir. O, yüksək

istedadı sayəsində İslam dininin sosioloji məsələlərinin öyrənilməsinin həddən artıq əhəmiyyətli olmasını başa düşmüşdür.

O bilirdi ki, müasir dövrün şübhələrinə keçmiş dövrlərin klassik izahları ilə cavab vermək mümkün deyil. Mütəhhəri "Dini mədrəsələrin müasir vəzifələri" adlı məqaləsində yazır:

*"Əgər biz müasir dövrü səksən il bundan qabaqkı dövrlə müqayisə etsək, o dövrdə yaşayan cəmiyyətin bir növ qapalı cəmiyyət olduğunun şahidi olarıq. Həmin cəmiyyətdə ideoloji məsələlərin və ictimai anlayışların hamısı kənar yerlərdən deyil, dini mədrəsələr və ruhanilər tərəfindən verilirdi. O dövrdə, demək olar ki, yad fikirlərin xalq arasında yayılması mümkün deyildi...*

*Artıq müasir dövrdə həmin tarazlıq pozulmuşdur və biz müntəzəm olaraq ibtidai-orta məktəblərdə, ali təhsil ocaqlarında, kütləvi informasiya vasitələrində, iclas və konfranslarda minlərlə yeni fikirlərin yayılmasının şahidi oluruq".*

Məhz bu yeni fikirlər yeni ictimai təbəqənin formalaşmasına səbəb olurdu. Mütəhhəri bu ictimai təbəqəni "gənc nəsil" və ya "gənclərin təfəkkürü" adlandırırdı:

*"Gənc nəsil dedikdə məqsəd ancaq cavanlar deyil, təhsil almaq və yeni mədəniyyətlərlə tanışlıq nəticəsində özünəməxsus təfəkkür tərzinə sahib olan müxtəlif yaşlı şəxslərdir. Başqa sözlə desək, burada hər hansı bir təfəkkür tərzi nəticəsində müəyyən şəkildə formalaşmış bir ictimai təbəqə nəzərdə tutulur".*

Yeni ictimai təbəqənin ən böyük xüsusiyyətlərindən biri, onların öz dini etiqadlarına şübhə ilə yanaşmaları olmuşdur. O, gənc nəslin bu halına acıyaraq belə yazır:

*"Yaşadığımız dövr, dini və etiqadi baxımdan hamı üçün, xüsusilə gənc nəsil üçün iztirab, böhran və çaşqınlıq əsridir. Dövr-şərait bir sıra problemlər yaratmış, unudulmuş köhnə sualları bir daha ortaya atmışdır".*

Alim müasir dövrdə üzə çıxan şübhələrin anlayışla qarşılanmalı olduğunu, "şübhə"lərin "yəqin" üçün giriş funksiyası daşıdığını bildirmişdir:

*"Görəsən, biz bu şəkk və tərəddüdlər burulğanından, şübhə və suallar hücumundan narahat olaraq təəssüflənməliyikmi? Mənim fikrimcə, bu barədə nigaran olmağa heç bir əsas yoxdur. Şübhə yəqinin, sual vüsalın, iztirab isə rahatlıq və asayişin müqəddiməsidir".*

Mütəhhəri digər yerdə bu kimi şübhələri özünəməxsus bir terminlə *"müqəddəs şübhə"* adlandırmışdır.

Alim, eyni zamanda sualları, şübhələri eşitmək istəməyən, dövrün tələbləri haqqında düşünməyən mühafizəkar təbəqəni də tənqid edərək yazır:

*"Bu barədə təəssüf doğuran məsələ, şəkkin insanı araşdırma və tədqiqat aparmağa sövq etməməsi və ya ictimai şəkk-şübhələrin bəzi insanları cavab axtarıb tapmağa vadar edə bilməməsidir".*

Mütəhhərinin qarşısında müxtəlif fikirlərin təsiri nəticəsində formalaşmaqda olan, beyini suallarla, şübhələrlə dolu gənc bir nəsil dayanırdı. O alim üzərinə düşən vəzifəni, bu nəsli şübhələrdən uzaqlaşdırıb yəqinə çatdırmaqda görmüş və bu işi həyata keçirmək üçün məhz qələmini işə salmışdır. Özü bu barədə yazır:

*"Əlimə qələm alaraq kitab və ya məqalə yazmağa başladığım son iyirmi ildə, bütün yazılarımda düşündüyüm yeganə şey yaşadığımız əsrdə islami məsələlər barəsində yaranmış sual və şübhələri həll etmək olub. Yazılarımın bəzisi fəlsəfi, bəzisi ictimai, bəzisi əxlaqi, bəzisi isə fiqhi və ya tarixidir. Həmin yazıların mövzuları bir-birindən tamamilə fərqli olsalar da, onların hamısının ümumi hədəfi yalnız və yalnız bir şey olub".*

Mütəhhəri azsaylı alimlərdən idi ki, dövrünün tələbini, aktual olan məsələləri bilirdi və ömrünü bu yolda xərcləyirdi. Mütəhhəri bilirdi ki, səmavi dində cavabsız suallar yoxdur. Cavabsız qalan sualların, İslamın yanlış tanınmasının səbəbi məhz bu dinin himayəçisi olduqlarını iddia edən məsuliyyətsiz şəxslərdir:

*"On dörd əsrdən artıq vaxt keçməsinə baxmayaraq, müqəddəs İslam dini hələ də tanınmaz qalmış bir dindir. Bu dinin həqiqətləri uzun*

*müddət xalq arasında təhrif olunmuş formalarda əks olunub. Bəzi şəxslərin dindən qaçmasının əsas səbəbi də bu ad altında aparılmış səhv təlimlərdir. Bu müqəddəs dinə hazırda da ən çox zərbə vuranlar zahirdə onu himayə etmək istəyən iddiaçılardır. Bir tərəfdən imperialist qüvvələrin gizli və aşkar vasitələrlə hücumu, digər tərəfdən də əsrin İslamı himayə etmək istəyən iddiaçılarının məsuliyyətsizlikləri bu dinin müxtəlif sahələrdə ideoloji hücumlara məruz qalmasına səbəb olub. Buna görə də mən öz bacarığım çərçivəsində bu sahədə əlimdən gələni etmək fikrindəyəm".*

*"...Öz istedad və qabiliyyətim çərçivəsində islami məsələlər barəsindəki problemləri həll etməyə, həqiqətləri olduğu kimi açıqlamağa və əgər əməli azğınlıqların qarşısını ala bilmirəmsə də, heç olmasa fikri və ideoloji azğınlıqlarla mübarizə aparmağa, xüsusilə İslam düşmənlərinin əllərində bəhanə olan məsələlərin aydınlaşdırılmasına çalışmışam".*

Tarix şahiddir ki, o, doğrudan da, bu yolda əlindən gələni əsirgəmədi, gecəsini gündüzünə qataraq çalışdı və ömrünü bu yolda fəda etdi.

Bu səmimi fədakarlıq, əzəmətli əmək nəticəsiz qala bilməzdi. Bəli, Mütəhhərinin çıxışları, yazıları çox şübhələri aydınlaşdırdı, çox beyinləri işıqlandırdı, çoxlarına həqiqəti göstərdi, yanlışlıqları islah etdi. Bununla da, Mütəhhəri böyük bir mütəfəkkir kimi tarixə öz parlaq imzasını qoydu.

*parlaq imzalar*

# Quranla Tanışlıq

I KİTAB

# Quranla tanışlıq

Alim olaraq hər bir alimə, mömin olaraq hər bir möminə Quranla tanış olmaq vacib və zəruridir. İnsanşünas və sosioloq üçün Quranla tanış olmaq ona görə vacibdir ki, bu kitab İslam cəmiyyətlərinin, hətta bəşəriyyətin taleyinin formalaşmasında təsirli olmuşdur. Tarixə nəzər saldıqda bəşər cəmiyyətinə və insanların həyatına Quran qədər heç bir kitabın təsiri olmadığını görürük.[1] Bu səbəbdən də Quran öz-özlüyündə sosiologiya sahəsinə də daxil olur və bu elmin araşdırma mövzularından birinə çevrilir. Bu sözün mənası budur ki, ümumilikdə dünya tarixinin son on dörd əsrinin, xüsusilə müsəlman cəmiyyətlərinin öyrənilməsi Quranla tanış olmadan mümkün deyil.

Hər bir inanclı müsəlmanın Quranla tanış olması ona görə vacib və zəruridir ki, bu kitab hər bir müsəlmanın dininin, inancının və düşüncəsinin əsas mənbəyidir. Quran hər bir inanclı müsəlmanın həyatına hərarət, məna, dəyər və ruh verir.

Quran yalnız Allah və yaradılış barəsində bir sıra müəmmalı məsələlər təqdim edən və uzaqbaşı, onlara bir sıra

---

[1] Bu təsirin hansı istiqamətdə olması – tarixin hərəkətini bəşəriyyətin xoşbəxtlik və rifahı, yaxud bədbəxtlik və süqutu istiqamətində dəyişməsi, bu kitabın təsiri nəticəsində tarixdə sıçrayış və hərəkətin yaranmasına və bəşər cəmiyyətinin damarında yeni qanın axmasına səbəb olması və ya bunun əksi olması – digər bir söhbətin mövzusudur ki, onu araşdırmaq hazırkı mövzumuzun imkanları xaricindədir.

sadə əxlaqi nəsihətlər də əlavə edən, buna görə də iman gətirənlərin göstəriş və düşüncələri digər mənbələrdən götürmək məcburiyyətində qaldığı bəzi dini kitablar kimi deyil. Quran "inanclı" və əqidə sahibi olan bir varlıq olaraq insan üçün lazım və zəruri olan əqidə əsaslarını, təfəkkür və düşüncələri, həmçinin tərbiyə, əxlaq, ictimai quruluşlar və ailə prinsiplərini bəyan etmiş, yalnız onların təfsir və şərh edərək açıqlanmasını, bəzi hallarda ictihad edərək[1] həmin əsasların xarici aləmdə tətbiqini sünnənin və ya ictihadın öhdəsinə qoymuşdur. Buna görə də hər hansı bir digər mənbədən istifadə etmək üçün əvvəlcə Quranla tanış olmaq lazımdır. Quran bütün digər mənbələr üçün meyardır. Biz hədisi və sünnəni Quran meyarı ilə ölçməli və Quranla uyğun gəlirsə, qəbul etməli, gəlmirsə, qəbul etməməliyik.

Bizim Qurandan sonra ən mötəbər və müqəddəs mənbəyimiz hədis sahəsində dörd hədis kitabı, yəni "Kafi", "Mən la yəhzuruhul-fəqih", "Təhzib" və "İstibsar" kitabları, xütbələrdə "Nəhcül-bəlağə", dualarda isə "Səhifeyi-Səccadiyyə"dir. Lakin bunların hamısı Qurandan sonradır və qətilik baxımından Quran qədər etibara malik deyillər. Yəni "Kafi" kitabında olan hər hansı bir hədis Quranla müvafiq olduğu və onun təlimlərinə uyğun gəldiyi, ona zidd olmadığı təqdirdə mötəbər hesab edilir. Həzrət Peyğəmbər (s) və məsum imamlar (ə) buyurmuşlar ki, bizim hədislərimizi Quranla uyğunlaşdırın. Əgər Quranla uyğun gəlməsələr, bilin ki, saxta və uydurmadırlar, onları yalandan bizə istinad edirlər. Biz Qurana zidd söz söyləmərik.

[1] *İctihad* – Müctəhidin dinin mənbələrinə (Quran, sünnə, icma və ağıla) müraciət edərək məna və hökm çıxarması – Red.

## Quranla tanışlığın növləri

Quranla tanışlığın zəruriliyini bildikdən sonra bu kitabla tanışlığın yollarını araşdırmalıyıq. Ümumilikdə hər hansı bir kitab araşdırılarkən onunla üç növ tanışlığın olması zəruridir.

### Birinci tanışlıq: Sənəd və ya istinad baxımından tanışlıq

Bu mərhələdə hər hansı bir kitabın onun müəllifinə istinad edilməsinin qətiliyinin hansı səviyyədə olmasını öyrənmək istəyirik. Məsələn, tutaq ki, Hafizin və ya Xəyyamın divanı ilə tanış olmaq istəyirik. Görəcəyimiz ilk iş bunu öyrənmək olmalıdır ki, görəsən, "Hafizin divanı" kimi məşhurlaşmış kitabın hamısı Hafizə aiddir, yoxsa onun yalnız bəzi hissələri Hafizindir, qalanları isə sonradan ona əlavə edilmişdir? Xəyyam və başqalarının kitabları ilə tanışlıq da, eynilə, belə olmalıdır. Bu məqamda sözügedən kitabın əlyazma və nüsxələrinin araşdırılması məsələsi qarşıya çıxır, özü də ən qədim və ən mötəbər nüsxələr. Bu qəbildən olan kitabların hamısında belə bir tanışlığa ehtiyac var. Hafizin divanının mərhum Qəzvininin ən mötəbər nüsxələri meyar götürərək çap etdirdiyi nüsxəsinin İran və Bombeydə çap edilən və evlərdə olan adi nüsxələrlə çox fərqi var. Hafizin divanının 30-40 il bundan əvvəl çap edilən nüsxələri bu gün nüsxə mütəxəssislərinin mötəbər hesab etdiklərindən iki dəfə böyük olmuşdur. Halbuki nüsxə mütəxəssislərinin saxta və uydurma hesab etdikləri şeirlər arasında bəzən Hafizin ən dəyərli şeirləri səviyyəsində olan şeirlərə də rast gəlmək mümkündür. Yaxud Xəyyama istinad edilən rübailərə nəzər saldıqda hamısı eyni səviyyəli təqribən 200-ə yaxın rübainin şahidi olarsınız. Mövcud ziddiyyət bütün şairlərin şeirlərində mövcuddur. Əgər siz tari-

xi baxımdan geri dönüb Xəyyamın dövrünə yaxınlaşsanız, görərsiniz ki, həmin rübailərin, həqiqətən, Xəyyama mənsub olanlarının sayı, bəlkə də, iyirmidən azdır. Qalanlarının ona mənsub olması barədə isə ya tərəddüd var, ya da onların başqalarına mənsub olması qətidir.

Odur ki, hər hansı bir kitabla tanışlığın ilkin mərhələsi əlimizdə olan kitabın müəllifinə istinad baxımından mötəbərliyinin dərəcəsini – hamısının doğru, yaxud bir hissəsinin doğru, bir hissəsinin yanlış olduğunu, istinad baxımından doğruların neçə faiz təşkil etməsini, bundan əlavə, bəzilərini qəti şəkildə qəbul, bəzilərini isə qəti şəkildə inkar etməyin, eləcə də bəzilərinin şübhəli adlandırılmasının hansı dəlillərə əsaslandığını – öyrənməkdir.

Quranın bu növ tanışlığa əsla ehtiyacı yoxdur və bu baxımdan, o, qədim dünyanın yeganə kitabı hesab edilir. Qədim kitablar arasında, üstündən əsrlər keçməsinə baxmayaraq, Quran qədər şübhə doğurmayan kitab yoxdur. Hansısa surənin şübhəli olması, hansısa ayənin bir nüsxədə olub digər nüsxədə olmaması və bu qəbildən olan digər şübhələr Quran barəsində əsla mövcud deyil. Quran nüsxə və nüsxəşünaslığı arxada qoymuşdur. Mövcud ayələrin hamısının həzrət Məhəmməd ibn Abdullah (s) tərəfindən möcüzə və ilahi kəlam olaraq gətirilməsi barədə zərrəcə şübhə yoxdur və heç kəs iddia edə, yaxud ehtimal verə bilməz ki, Quranın hansısa başqa bir nüsxəsi mövcud olmuş və ya mövcuddur. Dünyada Quranla tanışlığa bu mərhələdən başlayan şərqşünas da olmamışdır və heç bir şərqşünas: "Gərək, Quranın ən qədim nüsxələrinə baxaq görək onlarda nələr var, nələr yoxdur", – deməmişdir. "Tövrat", "İncil", "Avesta", Firdovsinin "Şahnamə"si, Sədinin "Gülüstan"ı və hər hansı bir digər kitab barədə bu ehtiyacın olmasına baxmayaraq, Quran barədə belə bir ehtiyac yoxdur.

Bunun sirri qeyd etdiyimiz kimi, Quranın nüsxə və nüsxəşünaslığı arxada qoymasıdır. Quran müqəddəs səmavi kitab olmasından və müsəlmanların ona bu gözlə baxmalarından əlavə, həzrət Peyğəmbərin (s) peyğəmbərlik iddiasında doğruçu olmasının ən əsas dəlili və onun ən böyük möcüzəsi hesab edilirdi. Bundan əlavə, Quran Tövrat kimi birdəfəlik nazil olmamışdı ki, onun hansı olması sualı ortaya çıxsın. Quran ayələri tədricən iyirmi üç il ərzində nazil olmuş və nazil olduğu ilk gündən müsəlmanlar şirin su tapmış təşnə insan kimi onun ayələrini öyrənir, əzbərləyir və yazırdılar. Xüsusilə nəzərə almaq lazımdır ki, həmin dövrün müsəlman cəmiyyəti sadə bir cəmiyyət idi və Qurandan başqa bir kitab mövcud deyildi ki, müsəlmanlar əlacsız qalıb həm onu əzbərləmək, həm də yazmaq məcburiyyətində qalaydılar. Zehinlər boş, hafizə güclü idi. Yazıb-oxumaq savadının olmaması müsəlmanların məlumatı ancaq gördükləri və eşitdikləri şeylərdən əldə etmələrinə səbəb olurdu. Buna görə də Quranın onların ruhu, fitrəti ilə uyğun gələn təlimləri daş üzərinə həkk edilən yazı kimi qəlblərində iz buraxırdı. Onu insan sözü deyil, Allahın kəlamı hesab etdiklərindən Quran onlar üçün müqəddəs idi və bu səbəbdən özlərinə onun hətta bir söz və ya hərfini başqası ilə əvəz etmək və ya dəyişdirməyə icazə vermirdilər. Onların bütün səy və təlaşları bu ayələri oxumaqla Allaha yaxınlaşmaq idi. Bütün bu deyilənlərdən əlavə, qeyd etmək lazımdır ki, həzrət Peyğəmbər (s) hələ ilk günlərdən ancaq Quranı yazmaq üçün "vəhy katibləri" adı ilə məşhur olan xüsusi şəxslər təyin etmişdi. Bu, Quran üçün bir imtiyaz hesab edilir və qədim kitablardan heç biri belə bir imtiyaza malik olmamışdır. Allahın kəlamının başlanğıcdan yazılması onun qorunmasının və təhrifdən uzaq qalmasının əsas amillərindən biridir.

* * *

Quranın insanlar tərəfindən gözəl qəbul edilməsinin digər bir cəhəti onun çox güclü ədəbi və bədii quruluşa malik olmasıdır ki, bunun barəsində "fəsahət və bəlağət" ifadələri işlədilir. Quranın güclü ədəbi cazibəsi insanların ona üz tutmalarına və onu çox tez öyrənmələrinə səbəb olurdu. Digər ədəbi kitabların, məsələn, "Hafizin divanı"nın, yaxud Mövlananın şeirlərinin və sairə kitabların tərəfdarları bəzən ona ürəkləri istəyən kimi müdaxilə edir və öz gümanları ilə həmin kitabları daha da təkmilləşdirirlər. Bunun əksinə olaraq, heç kəs özünə Qurana toxunmaq və müdaxilə etmək icazəsi verməmişdir. Çünki dərhal onun yadına Allaha yalan istinad etməyin necə böyük günah olması barəsində aşağıdakı və buna bənzər digər ayələr düşür və həmin şəxs dərhal həmin fikrindən daşınırdı.

*"Əgər o özündən bəzi sözlər uydurub Bizə istinad etsəydi, Biz ondan mütləq şiddətli intiqam alardıq! Sonra onun şah damarını qopardardıq!"* [1]

Beləcə, bu səmavi kitab heç bir təhrifə məruz qalmadan onun ayələri mütəvatir oldu[2] və elə bir mərhələyə çatdı ki, onun bir hərfini inkar etmək və ya artırıb-azaltmaq belə qeyri-mümkün oldu. Buna görə də Quran barəsində bu cəhətdən danışmağa ehtiyac yoxdur. Dünyada heç bir quranşünas özündə belə bir araşdırma aparmağa ehtiyac duymamışdır. Burada qeyd edilməsi lazım olan bir məsələ də var. O da budur ki, İslamın əhatə dairəsinin sürətlə genişlənməsi və dünya xalqlarının Qurana nəzərə çarpacaq dərəcədə çox üz tutmaları, həmçinin ümumilikdə müsəlmanların səhabə və Quran hafizlərinin mərkəzi olan Mədinədən uzaq olmaları nəticəsində tədricən ən azı çox uzaq bölgələrdə bilərəkdən və ya bilməyərəkdən Quran nüsxə-

---

[1] əl-Haqqə, 44-46

[2] Yəni bu ayələrin həzrət Peyğəmbərin (s) tərəfindən buyurulmasında heç bir şəkk-şübhə olmadı. – Red.

lərində bəzi artırma və ya nöqsanların baş verməsi təhlükəsi mövcud olmuş, lakin müsəlmanların sayıqlığı və zirəkliyi nəticəsində bu işin gerçəkləşməsinin qarşısı alınmışdır. Müsəlmanlar İslamın ilk yarım əsrində bu təhlükəni dərk etmişlər, buna görə də səhabə və Quran hafizlərinin köməyi ilə həmin uzaq bölgələrdə səhvən və ya bilərəkdən baş verə biləcək artırma və ya azaltmaların qarşısını almaq üçün Mədinədən digər bölgələrə Quranın təsdiq edilmiş nüsxələrini göndərmişlər. Beləliklə də, müsəlmanlar baş verə biləcək yanlışlığın, xüsusilə... yəhudilərin ehtimal olunan təhriflərinin qarşısını həmişəlik ala bilmişlər.

## İkinci tanışlıq:
## Təhlili (analitik) tanışlıq

Bu mərhələdə kitabın təhlili araşdırılması, yəni müxtəlif suallara aydınlıq gətirilməsi nəzərdə tutulur: Bu kitabın məzmunu nədən ibarətdir? Hədəfi nədir? Dünya barədə nəzəri nədir? İnsan barədə nəzəri nədir? Cəmiyyət barədə hansı baxışları var? Mətləbi təqdimetmə üslubu necədir və məsələlərə necə – filosofcasına, yaxud bugünkü dillə desək, alimcəsinə münasibət bəsləyir? Hadisələrə arif gözü ilə baxır, yoxsa özünün xüsusi baxışı var? Bu kitabın bəşəriyyət üçün hansısa dəyərli bir sözü, yol göstərən tövsiyəsi var, yoxsa yoxdur? Əgər varsa, həmin söz və tövsiyə nədən ibarətdir? Əslində, bu sualların birinci qrupu həmin kitabın dünya, insan, həyat, ölüm və sairəyə baxışı barədədir. Başqa sözlə desək, bunlar kitabın dünyagörüşünə, filosoflarmızın dili ilə desək, nəzəri fəlsəfəyə aiddir. İkinci qrup suallar isə kitabın insan üçün hansısa planının olması haqdadır. Yəni, onun insanı və insan cəmiyyətini hansı meyarlar əsasında formalaşdırmaq, qurmaq istəməsi barədədir ki, biz onu kitabın "ismarıc"ı adlandırırıq.

Hər halda bu növ tanışlıq məzmun barədədir və hər hansı bir kitab barədə bu cəhətdən danışmaq mümkündür, istər İbn Sinanın “Şəfa” kitabı olsun, istərsə də Sədinin “Gülüstan”ı. Ola bilər, hansısa bir kitab “baxış” və “ismarıc” cəhətdən boş olsun, yaxud təkcə “baxış”ı olsun, amma “ismarıc”ı olmasın, yaxud da hər ikisinə malik olsun.

Quranla təhlili tanışlıq mövzusunda onun ümumilikdə hansı məsələlərdən ibarət olmasına və həmin məsələləri necə təqdim etməsinə baxmaq lazımdır. Görəsən, Quranın müxtəlif məsələlər barədəki əsas və dəlilləri necədir? Quran iman gözətçisi olduğu üçün onun sözü ancaq iman barədədir? Ağla rəqib gözü ilə baxır və ağlın hücumunun qarşısını almağa, onun əl-qolunu bağlamağa çalışır, yoxsa ağla həmişə hami, müdafiəçi gözü ilə baxır və ondan yardım alır? Təhlili tanışlıq zamanı qarşıya bu və buna bənzər yüzlərlə sual çıxır və bizi Quranın mahiyyəti ilə tanış edir.

## Üçüncü tanışlıq: Əsaslı tanışlıq

Hər hansı bir kitabın müəllifə istinadı qətiləşdikdən və məzmunu tam təhlil edilərək araşdırıldıqdan sonra, bu mərhələdə kitabda olan mətləblərin müəllifin özünün şəxsi fikri, yaxud başqasından götürülmüş fikirlər olması məsələsi araşdırılır. Məsələn, “Hafizin divanı” barədə sənəd tanışlığı və təhlili tanışlıq mərhələləri qət edildikdən sonra Hafizin şeir və cümlə şəklində təqdim etdiyi və özünəməxsus dildə bəyan etdiyi həmin fikir və düşüncələri özündən deməsi, yoxsa sözlərin, şairanə gözəlliklərin Hafizdən, fikirlərin isə başqasından və ya başqalarından olması araşdırılır. Başqa sözlə desək, Hafizin şairlik istedadı qətiləşdikdən sonra onun təfəkkür istedadı, bacarığı da qətiləşməlidir.[1]

---

[1] Ola bilər, Hafiz ancaq bir şair olsun, amma mütəfəkkir və arif olmasın. Ola da bilər, şair olmaqla yanaşı, həm də mütəfəkkir və arif olsun. Hafiz barədə qəti məlum olan budur ki, o, şair olmamışdan qabaq alim sayılırmış və digər şair, →

Hafiz və ya hər hansı digər bir müəllif haqda bu növ tanışlıq müəllifin fikir və düşüncələrinin əsası baxımından olan tanışlıqdır. Bu növ tanışlıq təhlili tanışlıqdan asılıdır. Yəni əvvəlcə müəllifin fikirlərinin məzmunu dəqiqliklə öyrənilməli, sonra əsaslı tanışlığa başlanılmalıdır. Əks təqdirdə, işin nəticəsi bəzi elm tarixi tədqiqatçılarının əsərləri kimi olacaq ki, elmdən xəbərləri olmamasına baxmayaraq, onun tarixini yazırlar. Yaxud buna misal olaraq, bəzi fəlsəfə kitablarının müəlliflərini göstərmək olar ki, guya, İbn Sina ilə Aristotel haqqında, onların oxşar və fərqli cəhətləri barədə yazmaq istəyirlər, amma, təəssüf ki, nə İbn Sinanı tanıyırlar, nə də Aristoteli. Onlar yüngül müqayisə ilə bəzi söz oxşarlıqları tapan kimi dərhal nəticə çıxarırlar, halbuki müqayisədə fikirlərin dərinlikləri öyrənilməlidir. İbn Sina və Aristotel kimi mütəfəkkirlərin fikirlərinin dərinliklərinin dərk edilməsi üçün isə bir ömür vaxt lazımdır. Əks təqdirdə, deyilənlərin hamısı təxmini, yamsılama və kor-koranə olacaqdır.

Quranın araşdırılması və tanınması barədə təhlili araşdırma aparıldıqdan sonra müqayisə və tarixi tanışlığa növbə çatır. Belə ki, Quranı bütün məzmunu ilə birlikdə hə-

ədib, təfsirçi və fəqihlərin, xüsusilə ariflərin kitab və düşüncələri ilə tanış olmuşdur. Hətta onların əsərlərinin hamısı, yaxud bəzisi haqqında ustaddan dərs almışdır. İndiki zamanda Hafiz daha çox şeirləri baxımdan diqqət mərkəzindədir və heç kəs onu alim hesab etmir, halbuki o öz zamanında alim olmuş və bəzən şeir də yazmışdır. Hafizin yaşadığı dövrə yaxın yazılmış kitablarda adı çəkilərkən onun barəsində şairliyindən daha çox alimliyi barədə ifadələr işlədilmişdir. İndi öz zəmanəsinin mədəniyyəti ilə tanış olan, ariflər və mənəvi məqamların qət edilməsi barədə çoxlu məlumatı olan və ürfani mənzillərin qət edilməsini fars dilli digər şairlərdən daha yaxşı şeir dilində bəyan edən bu alim barəsində belə bir sual yaranır ki, o bu fikirlərin təqdim edilməsində başqa mənbədən bəhrələnib, yoxsa onların hamısı öz fikridir. Məsələn, görəsən, İslam ürfanının atası sayılan Muhyiddin Əndəlusinin Hafizə təsiri olmuşdurmu? Yaxud, görəsən, Hafizdən qabaq yaşamış və ərəb ürfan ədəbiyyatında Hafizin fars ədəbiyyatındakı məqamına malik İbn Fariz Misrinin Hafizin fikirlərinin formalaşmasında rolu varmı? Əsaslı tanışlığın vəzifəsi bu məsələlərin araşdırılması və bu suallara cavab tapmaqdır.

min dövrdə mövcud olan digər kitablarla, xüsusilə dövrün dini kitabları ilə müqayisə etməliyik. Bu müqayisədə bütün şərait və imkanlar, məsələn, Ərəbistan yarımadasının digər bölgələrlə əlaqəsinin miqyası, həmin dövrdə Məkkədə yaşayan savadlı insanların sayı və sairə nəzərə alınmalıdır. Bundan sonra nəticə çıxarmaq olar ki, Quranda olanlar başqa kitablarda da var, ya yox? Əgər varsa, hansı səviyyədədir? Digər kitablarda olan məsələlərə oxşayan mətləblər iqtibas (başqa əsərdən götürülmə) şəklindədir, yoxsa müstəqildir və hətta həmin kitablarda olan yanlışlıqları düzəltmək və onlarda baş vermiş təhrifləri üzə çıxarmaq rolunu oynayırmı?

## Quranın üç özəlliyi

Quran barədə araşdırma apararkən bu kitabın "üç özəlliyi" ilə tanış oluruq. Quranın birinci özəlliyi istinad özəlliyi dir. Yəni heç bir şəkk-şübhəsiz, qədim nüsxələri araşdırmağa ehtiyac olmadan bu gün Qurani-kərim adı ilə oxunulanın onu gətirən həzrət Məhəmməd ibn Abdullahın (s) dünyaya təqdim etdiyi kitabın özü olduğu tam aydındır. İkinci özəllik onun mətləblərinin özəlliyidir. Belə ki, Quranda olan maarif iqtibas (götürülmə) deyil, yenilikdir. Bu barədə araşdırma aparmaq təhlili tanışlığın vəzifəsidir. Üçüncü özəllik Quranın ilahi özəlliyidir. Yəni bu maarif həzrət Peyğəmbərin (s) zehin və fikrinin xaricindən ona vəhy edilmiş və o, həmin vəhy və tapşırığın daşıyıcısı olmuşdur. Quranla əsaslı tanışlıqdan sonra, deyilən bu nəticəyə gəlmək mümkündür.

Əsaslı tanışlıq, başqa sözlə desək, Quran maarifinin özəlliyinin müəyyənləşdirilməsi ikinci növ tanışlıqdan asılıdır. Buna görə də biz söhbətimizə təhlili tanışlıqdan başlayacağıq. Yəni Quranın məzmununun nədən ibarət olmasının araşdırılmasından, Quranda hansı məsələlərin irəli

sürülməsindən, hansı məsələlərə daha çox əhəmiyyət verilməsindən və onda müxtəlif mövzuların təqdimedilmə formalarından danışacağıq. Əgər təhlili tanışlığı yaxşı həyata keçirə və onun öhdəsindən yaxşı gələ bilsək, Quran maarifi ilə lazımınca tanış ola bilsək, qeyd etdiyimiz kimi, Quranın ən mühüm özəlliklərindən birinə yetişəcəyik və o, "ilahi özəllik", yəni Quranın möcüzə olmasıdır.

## Quranla tanışlığın şərtləri

Quranla tanış olmaq üçün bir sıra şərtlər vardır ki, biz onları qısaca olaraq sadalayacağıq. Quranla tanış olmağın zəruri şərtlərindən biri ərəb dilini bilməkdir. Fars dilini bilmədən Hafiz və Sədinin əsərləri ilə tanış olmaq mümkün olmadığı kimi, ərəb dilini də bilmədən Quranla tanış olmaq mümkün deyil. Digər bir şərt İslam tarixi ilə tanışlıqdır. Çünki Quran peyğəmbər vasitəsi ilə birdəfəlik təqdim edilmiş "Tövrat" və ya "İncil" kimi deyil. Bu kitab iyirmi üç il müddətində – həzrət Peyğəmbərin (s) besətindən (peyğəmbərliyə seçilməsindən) vəfatına kimi olan müddət ərzində – İslam tarixinin həyəcanlı anlarında nazil olmuşdur və buna görə də Quran ayələrinin nazilolma səbəbləri vardır. Nazilolma səbəbi ayənin mənasını məhdudlaşdırmır. Sadəcə ayənin nazilolma səbəbini bilmək onun mənasının aydınlaşmasında çox təsirlidir.

Üçüncü şərt həzrət Peyğəmbərin (s) kəlamları ilə tanışlıqdır. Quranın öz buyuruğuna əsasən, o bu kitabın ilk müfəssiridir. Müfəssir "izah edən, açıqlayan" deməkdir. Qurani-kərimdə belə buyurulur:

– *"Sənə də zikri (Quranı) nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən".*[1]

---

[1] ən-Nəhl, 44

Digər bir ayədə buyurulur:

– *"(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) onlara (Allahın) ayələrini oxuyar, onları (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara Kitabı (Quranı) və hikməti öyrədər..."* [1]

Qurani-kərimin ayələrinə əsasən, həzrət Peyğəmbər (s) bu kitabın müfəssiri, şərhçisidir və həzrət Peyğəmbərdən (s) nəql edilənlər bizə Quranın təfsirində kömək edir. Biz şiə olduğumuz, imamlara (ə) etiqad bəslədiyimiz və həzrət Peyğəmbərin (s) Allah tərəfindən əldə etdiklərini öz möhtərəm canişinlərinə ötürməsinə inandığımız üçün imamlardan (ə) nəql edilmiş mötəbər hədislər də bizim üçün həzrət Peyğəmbərdən (s) nəql edilmiş mötəbər hədislər qədər əhəmiyyətə malikdir. Buna görə də imamlardan (ə) nəql edilmiş mötəbər hədislər də Quranla tanışlıq yolunda bizə böyük kömək ola bilər.

Quran barəsində araşdırma apararkən diqqət edilməsi mühüm olan məqamlardan biri də budur ki, Quran ilk növbədə Quranın özünün köməyi ilə tanınmalıdır. Belə ki, Quran ayələri ümumilikdə bir-birinə bağlı böyük bir toplu təşkil edirlər. Yəni əgər Quran ayələrindən birini ayırsaq və təkcə həmin bir ayəni başa düşmək istəsək, yanlış yol seçmiş olacağıq. Əlbəttə, bizim həmin ayəni düzgün başa düşə bilməyimiz də mümkündür. Amma bu, ehtiyatdan kənar bir işdir. Quran ayələrinin biri-digərini təfsir edir. Böyük təfsirçilərin dediyi kimi, məsum imamlar (ə) bu təfsir üslubunu təsdiqləmişlər. Quranın məsələləri bəyan etməkdə özünəməxsus üslubu var. Əgər Qurandan təkcə bir ayə götürülsə və ona bənzər ayələrə müraciət etmədən başa düşülməyə səy göstərilsə, müəyyən bir məna ifadə edə-

[1] əl-Cumuə, 2

cək, lakin həmin ayə onunla eyni məzmun ifadə edən ayələrlə qarşılaşdırıldıqda əvvəlkindən tam fərqli məna olacaq.

Quranın özünəməxsus bəyan tərzinə nümunə olaraq, möhkəm və mütəşabih ayələri göstərmək olar. Möhkəm və mütəşabih ayələr barəsində avamcasına bir təsəvvür mövcuddur. Bəziləri möhkəm ayələrdə məsələlərin sadə və aşkar ifadə edilmiş olduğunu, bunun əksinə, mütəşabih ayələrdə məsələlərin üstüörtülü, müəmmalı və rəmzi şəkildə ifadə edildiyini düşünürlər. Bu tərifə əsasən, insanların yalnız möhkəm və mənası aşkar olan ayələr haqda düşünmək haqqı var, mütəşabih ayələr isə, ümumiyyətlə, dərk ediləsi deyildirlər və onların barəsində fikirləşmək qeyri-mümkündür. Belə olan halda qarşıya, təbii olaraq, belə bir sual çıxır ki, ümumiyyətlə, mütəşabih ayələrin fəlsəfəsi nədir? Nə üçün Quran dərk edilməsi mümkün olmayan ayələr təqdim edir? Bu sualın qısa cavabı budur ki, nə möhkəmin mənası sadə və aşkar, nə də mütəşabihin mənası üstüörtülü və müəmmalıdır. Müəmmalı və rəmzi sözlər qaranlıq və izaha ehtiyacı olan ifadələr mənasındadır və onlar birbaşa məna ifadə edən sözlərlə ifadə edilmirlər. Məsələn, Sultan Mahmud Firdovsinin çox məşəqqətli zəhmətləri müqabilində ona az miqdarda ənam vermək istədikdə, Fordovsi həmin ənamı qəbul etmir və öz şeirində Sultan Mahmudu həcv edərək onu xəsislikdə günahlandırır. Həmin həcvlərin bəzisi aşkar, bəzisi isə üstüörtülüdür. Firdovsi onların birində belə deyir (məzmunu): *"Əgər anan şah xanımı olsaydı, məni dizə kimi qızıl-gümüşə tutardın".*

Başqa bir yerdə deyir (məzmunu): *"Ölkələri fəth edən şah Mahmudun ovucu doqquz vur doqquz və üç vur dörd kimidir".*

Nə demək istəyir Firdovsi? Firdovsi burada müəmmalı bir ifadə tərzindən istifadə etmişdir. Onun məqsədini başa düşmək üçün müəmmanı həll etmək lazımdır. Məqsəd

budur ki, 9×9=81 edir, 3×4=12. Bunların ikisinin cəmi 93 olur. Firdovsi Sultan Mahmudun ovucunun 93 (٩٣) rəqəminə oxşadığını demək istəyir. Yəni onun ovucu elə möhkəm bağlanıb ki, ancaq baş barmağı açıqdır. Baş barmaq şəhadət barmağı ilə birlikdə 9 (٩) rəqəminə oxşayır, digər üç barmaqla birlikdə isə 93 (٩٣) formasını alır.[1] Firdovsi bu bəyanı ilə Sultan Mahmudun xəsisliyinin çoxluğunu göstərmək istəyir.

İndi sual budur ki, Quranda da üstüörtülü ayələr varmı? Quranda belə ayənin olmasını demək onun aydın, hamının başa düşə biləcəyi bir kitab və ayələrinin hamısının nur və hidayət olduğunu deyən ayəsi ilə ziddiyyət təşkil edir. Məsələnin sirri Quranda irəli sürülən bəzi məsələlərin, xüsusilə qeyb aləmi haqdakı söhbətlərin, ümumiyyətlə, sözlərlə ifadə edilmək qabiliyyətində olmamasıdır. Şeyx Şəbüstəri demişkən (məzmunu): *"Sonsuz dəniz qaba sığmadığı, kimi mənalar da heç vaxt bir hərfə sığmaz".*

Lakin Quranın məsələləri bəyan etdiyi dil insanların dili olduğu üçün həmin lətif və mənəvi məsələlər insanların maddi məsələlər üçün istifadə etdiyi ifadələrdə bəyan edilmişdir. Amma anlaşılmazlığın qarşısını almaq üçün bəzi ayələrdə məsələlər elə irəli sürülmüşdür ki, mütləq digər ayələrin köməyi ilə təfsir edilməlidirlər və bundan başqa yolu da yoxdur. Məsələn, Quran Allahın qəlb gözü ilə görünməsi adlandırılan həqiqətə, yəni insanın Allahı öz qəlbi ilə görə bilməsinə işarə etmək istəmişdir. Bu məna belə bir ifadə ilə bəyan edilmişdir:

– *"O gün neçə-neçə üzlər sevinib güləcək! Öz Rəbbinə baxacaqdır!"*[2]

---

[1] Fars əlifbasında 9 rəqəmi "٩" şəklində, 3 isə "٣" şəklində yazıldığı üçün qeyd edilən bənzətmə həmin rəqəmi nəzərə aldıqda daha yaxşı başa düşülür. – Tərc.
[2] əl-Qiyamə, 22-23

Quran burada "baxmaq" sözündən istifadə edib. Öz məqsədini ifadə etmək üçün ixtiyarında bundan münasib söz olmamışdır. Lakin baş verə biləcək anlaşılmazlığın qarşısını almaq üçün digər bir yerdə belə bir izah verir:

– *"Gözlər Onu dərk etməz. O, gözləri dərk edər".*[1]

Belə olan halda, oxucu, təbii olaraq, sözlərin bənzər olmalarına baxmayaraq, bu işlərin bir-biri ilə uyğunluğu olmadığını və onların bir-birindən tamamilə ayrı olduğunu anlayır. Quran həmin yüksək və ali mənaların maddi mənalarla qarışıq düşməsinin qarşısını almaq üçün mütəşabihlərin möhkəmlərlə tutuşdurulmasını əmr buyurmuşdur:

– *"Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun bir hissəsi kitabın əsasını təşkil edən möhkəm ayələrdir".*[2]

Yəni onlar elə möhkəmliyə malikdirlər ki, onları öz mənalarından çıxarmaq və başqa nəticə almaq mümkün deyil. Onlar (orijinalda) "ümmül-kitab", yəni ana ayələrdir. Bu, eyni ilə uşağın dönüş yeri ana olduğu və o, uşaq üçün mənbə hesab edildiyi kimidir. Yaxud bu məsələ böyük şəhərlərin (ümmül-qura) kiçik şəhərlərin anası, mənbəyi sayılmasına bənzəyir. Möhkəm ayələr də mütəşabih ayələrin dönüş yeri, mənbəyi hesab edilirlər. Mütəşabih ayələr dərk etmək və barəsində düşünmək üçündür, amma onları dərk etmək, barələrində düşünmək üçün möhkəm ayələrinköməyindən istifadə etmək lazımdır. Ana ayələrin köməyi olmadan mütəşabih ayələrdən əldə edilənlər düzgün və mötəbər olmayacaqdır.

---

[1] əl-Ənam, 103
[2] Ali-İmran, 7

## Quranla tanış olmaq mümkündürmü?

Quran təhlil edilərkən və onun məzmunu ilə tanış olarkən qarşıya çıxan ilk sual budur ki, ümumiyyətlə, görəsən, Quranla tanış olmaq, onu araşdırmaq mümkündürmü? Quranda olan məsələlər barədə fikirləşmək və dərindən düşünmək olar, yoxsa bu kitab tanınmaq üçün göndərilməmiş, ancaq oxumaq, yaxud savab əldə etmək və təbərrük kimi istifadə etmək üçündür? Kimsə bu sualın yersiz olduğunu düşünə bilər. Çünki Quranın tanınmalı bir kitab olmasında heç kəsin şübhəsi yoxdur. Amma nəzərə almaq lazımdır ki, İslam dünyasında Quranla tanışlıq məsələsində müxtəlif səbəblərdən xoşagəlməz cərəyanlar yaranmış və bunun müsəlmanların tənəzzülündə çox böyük təsiri olmuşdur. Təəssüflə qeyd etmək lazımdır ki, həmin cahil və təhlükəli təfəkkürün qalıqları cəmiyyətimizdə bu gün də mövcuddur. Odur ki, bir qədər bu barədə izah verməyi lazım bilirik.

Üç-dörd əsr qabaq şiə alimləri arasında Quranın dini dəlil olmamasına etiqad bəsləyən bəzi alimlər olmuşdur. Onlar müsəlman alimlərin İslami məsələlərin müəyyənləşməsi üçün meyar olaraq təyin etdikləri fiqhin dörd mənbəyindən, yəni Quran, sünnə, icma və ağıldan üçünü qəbul etməmişlər. Onlar icma barədə: o, sünnilərin üsulu olduğundan ona tabe olmaq olmaz, – demiş, ağıl barəsində: ağıl bu qədər yanlışlığa yol verdiyi üçün ona etimad etmək doğru deyil, – demiş, Quran barəsində isə çox ehtiramla bildirmişlər ki, Quran bizim kimi kiçik insanların onu mütaliə edə və barəsində düşünə bilməsindən çox yüksəkdədir. Quran ayələri barədə düşünmək yalnız həzrət Peyğəmbərin (s) və imamların (ə) haqqıdır, bizim haqqımız ancaq onu oxumağa çatır. Bu qrup əxbarilər olmuşdur.

Əxbarilər yalnız hədislərə müraciət etməyi doğru hesab etmişlər. Bəlkə də, eşitdikdə təəccüblənəcəksiniz ki, onlar yazdıqları bəzi təfsirlərdə ayəyə aid hədis olduqda həmin hədisi nəql etmişlər, ayə barəsində hədis olmadıqda isə ayənin üzərindən, sanki, o, Quran ayəsi deyilmiş kimi ötüb keçmişlər.

Bu iş, Qurana edilən bir növ zülm və haqsızlıqdır. Təbii ki, özünün səmavi kitabını, özü də Quran kimi kitabı qeyd edilən şəkildə kənara qoyub yaddan çıxaran cəmiyyət heç vaxt Quran yolunda hərəkət edə bilməz. Əxbarilərdən başqa Quranı ümumi insanlar üçün əlçatmaz hesab edən digər dəstələr də olmuşlar. Bunlara misal olaraq, əşəriləri göstərmək olar. Onların etiqadına görə, Quranla tanışlığın mənası Quran ayələri barədə düşünmək deyil, sadəcə ayələrin hərfi mənasını bilməkdir. Yəni ayələrin zahirindən nə başa düşürüksə, onu qəbul etməliyik və onun batini ilə işimiz olmamalıdır. Bildiyimiz kimi, Qurana qarşı belə bir münasibət çox tez bir zamanda azğınlığa səbəb olacaqdır. Çünki onlar Quran ayələrini izah etmək məcburiyyətində idilər, amma ağlı kənara qoyduqları üçün əlacsız qalıb Qurandan avamcasına çıxarışlar edirdilər. Bu təfəkkür tərzinə görə onlar da çox tez bir zamanda düzgün dərketmə yolundan sapmış və yanlış inanclara etiqad bəsləmişlər. Məsələn, “təcəssüm”ə (yəni Allahın cisim olmasına), Allahın gözlə görünməsinin mümkünlüyünə, adi dillə Allahla danışmaq və bu kimi yüzlərlə inanclara sahib olmuşlar.

Quranı kənara qoyan dəstənin müqabilində onu öz hədəf və məqsədlərinə çatmaq vasitəsi edən digər bir dəstə də peyda olmuşdur. Onlar mənafelərinin təmin edilməsinin tələb etdiyi hər bir yerdə Quran ayələrini yozmağa başlamışlar və Qurana Quranın ruhuna tam yad şeylər istinad etmişlər. Bütün irad və etirazların müqabilində bu dəstənin yeganə cavabı bu olmuşdur: “Ayələrin batinini təkcə

biz bilirik və dediyimiz bu mənalar ayələrin batini ilə tanışlıqdan əldə edilmişdir".

İslam tarixində bu cərəyanın nümayəndələri iki dəstə olmuşdur. Onlardan biri "batiniyyə" adı ilə də tanınan ismaililər, digəri isə sufilər olmuşdur. İsmaililər əsasən, Hindistanda, az miqdarı isə İranda olmuşdur. Onlar bir zamanlar dövlət də qurmuş və bu, Misirdə Fatimilər dövləti olmuşdur. İsmaililər altı imamçı "şiə"lərdir. Amma bütün on iki imamçı şiə alimlərinin yekdil nəzərinə əsasən, bu altı imamçı "şiə"lər şiəliyə bütün qeyri-şiələrdən daha uzaq olmuşlar. Yəni hətta Əhli-beyt (ə) imamlarının birini də şiənin etiqad bəslədiyi mənada qəbul etməyən əhli-sünnə, şiəliyə bu altı imamçı "şiə"lərdən daha yaxındır.[1] İsmaililər bu batinçilik iddiaları ilə İslam tarixində çoxlu xəyanətlər etmiş və İslami məsələlərdən sapmalarda böyük rol oynamışlar.

İsmaililərdən sonra sufilərin də ayələrin təhrif edilməsi və şəxsi əqidəyə əsasən yozulmasında böyük məharətləri olmuşdur. Mən burada onların təhrif üsullarının aydınlaşması və oxucuların məsələni bir misaldan tam başa düşməsi üçün sufilərin təfsirlərindən bir nümunəyə diqqəti cəlb edəcəyəm.

Quranda həzrət İbrahim (ə) və oğlu İsmayılın (ə) əhvalatı nəql edilən yerdə buyurulur ki, həzrət İbrahimə (ə) yuxuda bir neçə dəfə oğlunu Allah yolunda qurban kəsmək göstərişi verilir. Həzrət İbrahim (ə) əvvəlcə bu göstərişdən təəccüblənir, amma yuxu bir neçə dəfə təkrarlandıqdan sonra onda yəqinlik yaranır və Allahın əmrinə tabe olur.

---

[1] Təqribən 35 il bundan əvvəl bir sıra anlaşılmazlıqların aradan qaldırılması üçün keçirilən "İslam məzhəbləri arasında yaxınlaşma" konfransında müxtəlif islami məzhəblərdən, o cümlədən ismaililərdən nümayəndələr iştirak edirdi. Amma elə həmin konfransda şiə və sünni alimləri yekdilliklə: "Biz, ümumiyyətlə, sizi İslam məzhəblərindən hesab etmirik və sizin bu toplantıda iştirak etmək haqqınız yoxdur", – demişdilər.

Sonra məsələni oğluna deyir və o da xalis niyyətlə qəbul edərək ilahi hökmə təslim olur.[1] Məqsəd Allahın hökmünə təslim və razı olmağın üzə çıxması olmuşdur. Buna görə də ata-oğul hər ikisi tam səmimiyyət və xalis niyyətlə Allahın əmrini yerinə yetirməyə hazır olduqdan sonra Allahın izni ilə hökmün icrası dayandırılmışdır.

Sufilər bu hadisənin təfsirində deyirlər ki, İbrahim deməkdə məqsəd ağıl ibrahimi, İsmayıl deməkdə məqsəd isə nəfs ismayılıdır. Burada ağıl nəfsin başını kəsmək istəyirdi.

Məlum olduğu kimi, belə bir çıxarış etmək Quranla oynamaq və bir növ yanlış, azdırıcı məlumat təqdim etməkdir. Həzrət Peyğəmbər (s) bu kimi azdırıcı və şəxsi, sinfi istəklərə əsaslanan təfsirlər barəsində belə buyurmuşdur: *"Quranı öz şəxsi rəyi ilə təfsir edən, özünün Cəhənnəmdəki yerini hazırlayır".* Ayələrlə bu cür oynamaq Qurana xəyanət, özü də çox böyük bir xəyanət hesab edilir.[2]

Quran əxbarilərin və onların bənzərlərinin düşüncəsizliklərinin və quru fikirlərinin, həmçinin batinilərin və digərlərinin sapqınlıqları və yanlış çıxarışlarının müqabilində orta yol təklif edir. Həmin orta yol qərəzsiz və insaflı diqqət və düşüncədən ibarətdir. Quran təkcə möminləri deyil, hətta müxaliflərini də öz ayələri barədə təfəkkür və düşüncəyə dəvət edir, onun müqabilində səngər qurmaq əvəzinə, ayələrində fikrə dalmağı təklif edir. Quran müxaliflərə xitab edərək nə üçün Quran barədə düşünməmələrinin

---

[1] *"...(İbrahim) dedi: "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör (bu barədə) nə fikirləşirsən!" O dedi: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah, mənim səbirlilərdən olduğumu görəcəksən!" (əs-Saffat, 102)*

[2] Təəssüf ki, yaşadığımız dövrdə də yanlış çıxarışlar, yanlış təfsirlər və İslam cildinə girmiş İslama zidd düşüncələr bazarı fəaldır. Mürtəza Mütəhhəri bu cür hərəkatlarla geniş mübarizəyə başlamışdı və bu yolda təkcə düşüncəsi və qüdrətli qələmi ilə deyil, bütün varlığı ilə mübarizə apardı və sonda bu yolda sədaqətlə canını da fəda etdi.

səbəbini soruşur və buyurur ki, bu qəlblər necə qəlblərdir, sanki, onlar qıfıllanıb.[1] Digər bir ayədə buyurur: *"Sənə nazil etdiyimiz mübarək bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər!"* [2] Quranın nazil edilməsinin səbəbi nədir? Onun ayələri haqqında düşünmək! Biz onu öpüb taxçanın üzərinə qoymaları üçün nazil etməmişik, ayələri haqqında düşünmələri və ağıl sahiblərinin ibrət götürməsi üçün nazil etmişik.

Bu ayələr, həmçinin Quran barədə düşünməyə təkid edən onlarla digər ayənin hamısı Quranın təfsir edilməsinin icazəli olduğunu təsdiqləyir. Amma şəxsi meyil və nəfsi istəklər əsasında deyil, insaf, doğruluq və qərəzsizliyə əsaslanan təfsir əsasında. Biz Quran barəsində insafla və qərəzsiz düşünərkən onda olan bütün məsələlərin həll edilməsi zərurəti də olmur. Quran bu baxımdan təbiətə bənzəyir. Təbiətdə həll edilməmiş, hətta hazırkı yüksək elmi-tərəqqi şəraitində belə həll etmək qüdrətində olmadığımız bir çox həll edilməmiş sirlər var. Amma həmin məsələlər gələcəkdə həll ediləcək. Bundan əlavə, insan təbiətlə tanış olarkən öz düşüncəsini təbiətin gerçəklikləri ilə uyğunlaşdırmalıdır, təbiəti özünün istədiyi kimi təfsir və izah etməməlidir. Quran da təbiət kimi bütün zamanlar üçün nazil olmuş bir kitabdır. Əgər belə olmasaydı, onun sirləri keçmiş zamanlarda açılar və bu səmavi kitab özünün bütün cazibə, yenilik və təsir qüvvəsini itirərdi. Halbuki Quran barədə düşünmək, yeni kəşflər etmək imkanı həmişə mövcuddur və həzrət Peyğəmbər (s), eləcə də imamlar (ə) bu məqamı izah etmişlər. Həzrət Peyğəmbərin (s) hədislərdən birində belə buyurduğu nəql edilmişdir: "Quran

---

[1] *"Onlar Quran barəsində düşünməzlərmi? Yoxsa ürəklərinə kilid vurulmuşdur?" (Muhəmməd, 24)*
[2] Sad, 29

günəş və ay kimidir və bu ikisi kimi həmişə hərəkətdədir". Yəni yerində dayanmamış, sabit və sönük deyil. Həmçinin buyurmuşdur: "Quranın zahiri gözəl, batini dərindir".

"Uyunu əxbar ər-Rza" kitabında İmam Rzadan (ə) nəql edilir ki, İmam Sadiqdən (ə): "Quran üzərindən nə qədər vaxt keçirsə, nə qədər çox oxunursa, təravət və yeniliyi artır, bunun sirri nədir?" – deyə soruşuldu. İmam Sadiq (ə) buyurdu: "Çünki Quran bütün zamanlara görə deyil, təkcə bir zamana görə, həmçinin bütün cəmiyyətlərə görə deyil, yalnız bir cəmiyyətə görə nazil olmayıb". Quran bütün zamanlar və bütün insanlar üçün nazil olmuşdur. Quranı nazil edən onu elə qurmuşdur ki, müxtəlif zamanlarda təfəkkür tərzi, məlumatlar, düşüncələrin əhatə dairəsinin genişliyi arasında bir çox ixtilafların olmasına baxmayaraq, Quran yenə də zaman və təfəkkürləri qabaqlayır və bütün dövrlərdə öz oxucuları üçün bir sıra gizli yönləri, sirləri var. Bununla yanaşı, o qədər dərk edilməli və əsaslı məna və məfhum təqdim edir ki, zamanın ehtiyaclarını ödəyir.

# Birinci Fəsil

# Quranla Təhlili (Analitik) Tanışlıq

Bu fəsildə Quranın məzmununu araşdırmaq istəyirik. Əlbəttə, əgər Quranın bütün mövzularına bir-bir toxunmaq istəsək, cild-cild kitablar yaranar. Buna görə də əvvəlcə ümumi məsələləri qeyd edəcək, sonra bəzi incəliklərə toxunacağıq.

Quran ümumilikdə çox məsələlərdən söz açmışdır. Lakin bəzi məsələlər üzərində çox, bəzi məsələlər üzərində az təkid etmişdir. Quranın söz açdığı məsələlərdən biri dünya və dünyanın Yaradanıdır. Gərək, baxıb görək, Quran Allahı necə tanıtdırır? Onun təqdim etdiyi bu tanışlıq filosofcasınadır, yoxsa arifcəsinə? Quranın bu tanışlığı digər dini kitabların, məsələn, "Tövrat" və "İncil"in üslubundadır, yoxsa Hind məktəblərinin? Yaxud, ümumiyyətlə, Quran Allahı tanıtdırmaqda müstəqil bir üsluba malikdir?

Quranda barəsində söz açılan digər bir məsələ dünya məsələsidir. Gərək, araşdıraq, görək, Quranın dünya barəsindəki nəzəri necədir? Quran yaradılış və dünyanı bihudə, oyuncaq hesab edir, yoxsa onun haqq olduğunu deyir? Dünyanın gedişinin bir sıra qayda-qanuna əsaslandığına inanır, yoxsa onu qayda-qanunsuz – heç bir şeyin digər şeydən asılılığının olmaması formasında qəbul edir?

Quranda irəli sürülmüş ümumi məsələlərdən biri də insandır. Quranın insan barədəki nəzəri də təhlil edilməlidir. Quran insan barəsində nikbinliklə danışır, yoxsa ona mənfi baxışlarla və bədbincəsinə baxır? İnsanı həqir hesab edir, yoxsa onun möhtərəm və izzət sahibi olmasına inanır?

Digər bir məsələ cəmiyyət məsələsidir. Görəsən, Quran cəmiyyəti əsas hesab edir, yoxsa insanın əsas olması inancındadır? Quran baxımından cəmiyyətin həyatı, ölümü, tərəqqi və tənəzzülü var, yoxsa bu xüsusiyyətlərin hamısı yalnız ayrı-ayrı insanlara aiddir? Burada tarix məsələsi də ortaya çıxır və belə bir sual yaranır: Quranın tarix barəsindəki nəzəri nədir? Quran baxımından, tarixi hərəkətə gətirən qüvvələr hansılardır və fərdin tarixə təsiri nə qədərdir?

Quranda bir çox digər məsələlərdən də söz açılmışdır ki, burada onların bir neçəsinin adını qeyd edəcəyik. Həmin məsələlərdən biri Quranın özü barəsindəki nəzəridir. Digər bir məsələ Quranın peyğəmbər barəsindəki nəzəri, onun peyğəmbəri necə təqdim etməsi və onunla necə danışmasıdır. Başqa bir məsələ Quranda mömininin tərifi, möminlərin xüsusiyyətləri və sairədir. Bu ümumi mövzuların hər birinin şaxələri də var. Belə ki, məsələn, insan barədə danışarkən, təbii olaraq, əxlaq barəsində də danışmaq lazımdır. Yaxud cəmiyyət barədə danışdıqda mütləq fərdlərin qarşılıqlı münasibətlərindən, yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmə ("əmr bil-məruf" və "nəhy ənil-münkər"dən), eləcə də ictimai sinifləşmədən də danışmalıyıq.

## Quran özünü necə təqdim edir?

Quranın məzmununu təhlil edərkən, işə Quranın özü barəsindəki nəzərini araşdırmaqdan başlamağımız daha yaxşı olar. Quran özünü necə təqdim edir? Quranın özü barədə qeyd etdiyi ilk məqam Qurandakı sözlərin və ifadə-

lərin Allahın kəlamı olması məsələsidir. Quran həzrət Peyğəmbərin (s) Quranın müəllifi olmadığına təkid edir və həzrət Peyğəmbərin (s) Allahın izni ilə Ruhül-qüdüs, yaxud həzrət Cəbrayıl (ə) vasitəsilə ona vəhy edilənləri çatdırdığını bildirir.

Quranın özü barədə verdiyi digər bir açıqlama öz vəzifəsinin nə olduğunu bəyan etməsidir. Quranın vəzifəsi bəşər övladını doğru yola hidayət etmək və onları zülmətlərdən nura doğru istiqamətləndirməkdir:

– *"(Bu Quran) elə bir Kitabdır ki, onu sənə insanları zülmətlərdən nura çıxartmaq üçün nazil etmişik".*[1]

Şübhəsiz, bu zülmətlərin nümunələrindən biri nadanlıq və cəhalətdir ki, Quran insanları həmin qaranlıq zülmətlərdən elm nuruna tərəf aparır. Amma əgər zülmətlər təkcə nadanlıqla bitsəydi, bu işi filosoflar da görə bilərdi. Lakin digər zülmətlər də mövcuddur ki, bunlar nadanlıq zülmətindən qat-qat təhlükəlidirlər və bunlarla mübarizə aparmaq elmin imkanlarından xaricdir. Həmin zülmətlərdən bir qismi mənfəətpərəstlik, eqoistlik, nəfsi istəklərə pərəstiş və sairədir ki, bunlar fərdi və əxlaqi zülmətlər sayılırlar. Həmçinin zülm, ayrı-seçkilik və sairə kimi bir sıra ictimai zülmətlər də mövcuddur. Elə bizim dildə işlənən ərəb mənşəli zülm sözünün də kökü "zülmət" sözüdür və bu, bir növ ictimai və mənəvi qaranlığın mövcudluğunun nişanəsidir. Bu zülmətlərlə mübarizə Quranın və digər səmavi kitabların işidir. Quran Musa ibn İmrana (ə) belə xitab edildiyini buyurur:

– *"...Qövmünü zülmətlərdən nura çıxart".*[2]

Bu cümlədəki zülmət sözündə məqsəd, Fironun və onun ətrafındakıların zülmü, nur sözündə məqsəd isə azadlıq və ədalət nurudur.

---

[1] İbrahim, 1
[2] İbrahim, 5

Təfsir alimlərinin diqqət yetirdikləri məqamlardan biri Quranın zülmət sözünü həmişə cəm şəkildə, onun bütün zülmətlərə şamil olmasını göstərən ümumilik bildirən "əlif-lam" (ال) artiklı ilə, nur sözünü isə tək formada işlətməsidir. Bunun da mənası doğru yolun bir, azğınlıq və yanlış yolların isə çox olmasıdır. Məsələn, "Ayətül-kürsi"də belə oxuyuruq:

– *"Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən çıxarıb nura tərəf yönəldər. Kafirlərin dostu isə azğın və itaətsizlərdir. Onları nurdan ayırıb zülmətlərə salarlar".*[1]

Beləliklə, Quran öz hədəfini müəyyənləşdirmişdir: nadanlıq, azğınlıq, zülm, əxlaqi və ictimai pozğunluq zəncirlərini qırmaq, bir sözlə, zülmətləri yarmaq, ədalət, xeyir, aydınlıq və nura tərəf yol göstərmək.

## Quranın dili ilə tanışlıq

Digər bir məsələ Quranın dili ilə tanışlıq və onun oxunmasıdır. Bəziləri Quran oxumaqda məqsədin onun mənasını dərk etmədən yalnız savab əldə etmək üçün oxumaq olduğunu düşünürlər. Onlar daim Quran oxuyub xətm edirlər, amma onlardan bircə dəfə: "Oxuduğunuzun mənasını bilirsinizmi?" – deyə soruşulsa, cavab verə bilməzlər. Quranı ancaq savab əldə etmək üçün deyil, onun mənasının dərk edilməsinə görə oxumaq lazım və yaxşıdır.

Quranın mənasının dərk edilməsinin özünün də bir sıra xüsusiyyətləri var ki, onlara diqqət yetirmək lazımdır. Oxucu əksər kitabları oxuyarkən əvvəl zehnində olmayan bir sıra yeni fikirlər əldə edir. Həmin vaxt oxucunun təkcə ağıl və təfəkkür qüvvəsi fəaliyyətdə olur. Şübhəsiz, Quranı öyrənmək və dərk etmək üçün oxumaq lazımdır. Quranın özü bu barədə belə buyurur:

[1] əl-Bəqərə, 257

– *"Sənə nazil etdiyimiz mübarək (xeyir-bərəkətli) bir Kitabdır ki, (insanlar) onun ayələrini düşünüb dərk etsinlər və ağıl sahibləri də (ondan) ibrət alsınlar!"* [1]

Quranın vəzifələrindən biri öyrətməkdir. Bu cəhətdə Quranın xitabı insanın ağlına ünvanlanmışdır. Quran onunla məntiq və deduksiya dili ilə danışır. Amma Quranın bundan başqa digər dili də var və həmin dilin xitabı ağıl deyil, qəlbə ünvanlanmışdır. Bu ikinci dilin adı "hiss"dir. Quranla tanış olmaq və onunla ünsiyyətdə olmaq istəyən şəxs bu dillərin hər ikisi ilə tanış olmalı və bir-birilə yanaşı onların hər ikisindən istifadə etməlidir. Onları bir-birindən ayırmaq yanlışlığa yol verməyə səbəb olacaq və zərər-ziyanla nəticələnəcəkdir.

Bizim "qəlb" adlandırdığımız şey insanın daxilində olan çox böyük və dərin hissdən ibarətdir ki, onu bəzən "varlığın hiss edilməsi", yəni insanın mütləq varlıqla əlaqəsindən yaranan hiss də adlandırırlar.

Qəlbin dilini bilən və insana onunla xitab edən şəxs insanı varlığının dərinliklərindən hərəkətə gətirir. Belə olan halda daha insanın təkcə fikir və beyni deyil, bütün varlığı təsir altına düşür. Hiss dilinə nümunə olaraq, musiqini misal çəkmək olar. Musiqilər növlərinin müxtəlif olmasına baxmayaraq, bir cəhətdə müştərəkdirlər. Bu cəhət musiqinin insan hisslərinə güclü təsirə malik olmasıdır. Musiqi insanın ruhunu oyadır, təhrik edir və onu xüsusi hisslər dünyasında qərq edir. Əlbəttə, yaranan oyanış və hisslər musiqinin növündən asılı olaraq, dəyişkəndir. Ola bilər, hansısa musiqi qəhrəmanlıq və igidlik hissinə təsir göstərsin və insanla həmin dildə danışsın. Yəqin ki, hamınız döyüş meydanlarında marş və hərbi musiqilərin çalındığını görmüsünüz. Bəzən bu marş və musiqilərin təsiri o qədər güclü olur ki, düşmənin qorxusundan səngərdən çölə çıxmayan

[1] Sad, 29

əsgəri, düşmənin hücumuna baxmayaraq, qorxmadan, şücaətlə irəliləməyə və döyüşməyə sövq edir. Həmçinin ola bilər, başqa bir növ musiqi nəfsi istəklərə qapılmaq hissinə təsir göstərsin və insanı süstlüyə, rəzilliklərə təslim olmağa çəksin. Musiqinin bu istiqamətdəki təsirinin böyük olması təcrübədən keçirilmişdir. Bəlkə də, iffət və əxlaqın pozulmasına musiqi qədər heç nə təsir edə bilməz. Digər hisslər barədə də onların dili ilə danışılsa, bu istər musiqi vasitəsi ilə olsun, istərsə də başqa vasitə ilə, onları nəzarət altına almaq mümkündür.

İnsanın ən ali hisslərindən biri onun dini hissləri və Allahı axtaran fitrətidir. Quranın işi bu yüksək və ali hisslə əlaqəlidir.[1]

---

[1] Bu dini hiss barədə həm şərqdə, həm də qərbdə çoxsaylı sözlər deyilmişdir. Burada dünya alimlərindən bir-ikisinin sözlərini qısa şəkildə qeyd edəcəyik. Həmin sözlərin biri Eynşteynə məxsusdur. Eynşteyn öz məqalələrinin birində din məsələsinə toxunur və orada deyir ki, mənim fikrimcə, dünyada üç növ din var:

1. Qorxu dini: Yəni təbiət və mühitdə mövcud olan bir sıra təhlükələrin dinə üz tutmalarına səbəb olan dəstənin dini.

2. Əxlaq dini: Yəni əxlaqi tövsiyələr üzərində qurulmuş din.

Eynşteyn sonra digər bir dinə işarə edərək onu "varlıq dini" adlandırır. Onun bu ifadəsi bizim, barəsində "qəlb" sözü işlətdiyimiz ifadədir. Eynşteynin fikrincə, bu din demək istəyir ki, insan üçün bəzi vaxtlarda mənəvi bir hal yaranır və insan həmin vaxt amal və arzular vasitəsilə əhatə olunmuş və başqalarından ayrılmış məhdud "öz"dən, eləcə də onun üçün hasara çevrilmiş təbii varlıq aləmindən xaric olur və bu zindandan qurtulur. Bundan sonra insan bütün varlığı küll halında müşahidə edir və varlığı vahid həqiqət kimi görür, hadisələrin arxasında olan əzəmətləri, cah-cəlalı gözü ilə müşahidə edir və özünün həqirliyini, bir şey olmadığını dərk edir. Sonra o, varlığın küllünə qovuşmaq istəyir.

Eynşteynin bu ifadəsi həzrət Əmirəl-mömininədən (ə) möminlərin xüsusiyyətlərini soruşan Həmmamın hekayətini xatırladır. Həzrət Əli (ə) ona qısa, eyni zamanda hərtərəfli cavab verməklə kifayətlənərək buyurur: *"Ey Həmmam, Allahdan qorx və yaxşı işlər gör. Allah təqva və yaxşı əməl sahibləri ilədir".*

Lakin Həmmam bu cavabla razılaşmır və həzrət İmamın (ə) daha çox izah verməsini istəyir. Möminlərin həyat tərzi, ibadət formaları, günlərini və gecələrini necə keçirmələri, davranışları və sairə barədə suallar verir. Bundan sonra həzrət Əli (ə) möminlərin xüsusiyyətlərini sadalamağa başlayır və təqva sahiblərinin xüsusiyyətlərindən təqribən 130 xüsusiyyəti təsvir edir. O cümlədən buyurur:

– *"Əgər Allahın onlar üçün müəyyənləşdirdiyi əcəl olmasaydı, ruhları bir göz qırpımı belə bədənlərində qalmazdı". (Nəhcül-bəlağə, 191-ci xütbə)* →

Quran onu xoş və gözəl səslə oxumağı tövsiyə edir. Quran bu səmavi səslə insanın ilahi fitrəti ilə danışır və onu ram edir.[1] Quran özünü vəsf edərkən özünəməxsus iki gözəl keyfiyyətdən bəhs edir: Bəzən özünü məntiq, təfəkkür və dəlil-sübuta əsaslanan kitab kimi, bəzən isə hiss və eşq kitabı kimi təqdim edir. Başqa sözlə desək, Quran təkcə ağıl və düşüncənin qidası deyil, həm də ruhun qidasıdır.

Quran özünün musiqili oxunuşunu çox təkid edir. Bu elə bir musiqidir ki, onun insanların ali və dərin hisslərinin oyadılmasındakı təsiri bütün digər musiqilərdən daha güclüdür. Quran möminlərə gecənin bir hissəsini Quran oxumaqla məşğul olmağı və namazlarda Allaha üz tutduqları

---

Bu, Eynşteynin işarə etdiyi həmin haldır. O deyir ki, dinə inancı olan şəxs özünü bir növ zindanda görür, buna görə də bədən qəfəsindən uçmaq və bütün varlığa birdəfəlik vahid şəkildə qovuşmaq istəyir. Əmirəl-möminin Əlinin (ə) kəlamlarında bu həqiqət daha dolğun, güclü və hərtərəfli bəyan edilmişdir. Həzrət Əliyə (ə) görə, mömin, sanki, bütün varlığı öz maddi bədənində toplamışdır və buna görə də birdən çərçivəni buraxır və ruhunu azad edir. Həmmamın hekayəti barədə bunu da yazırlar ki, həzrət Əlinin (ə) sözləri sona çatan kimi Həmmam fəryad qoparmış, ruhu bədənindən çıxmışdır.

İnsanların mənəvi hissi barədə İqbal Lahurinin də maraqlı sözü var. O deyir: *"Mənəvi işraq (qəlbin nurlanması və işıqlanması) vasitəsi və normal həyati bir iş olan dua, münacat səbəb olur ki, bizim kiçik varlığımız birdən-birə özünün (həyat adlı) böyük bir "küll"də olduğunu kəşf etsin".*

Bu barədə Uilyam Ceymisin də bir sözü var: *"İnsan, son dərəcə ictimai varlıqdır və bu xarakter onun ruhunun dərinliklərinə işləmişdir. Ancaq bununla belə o, ən yaxın həmdəmini öz daxilində tapır. Yəni özündən kənarla əlaqəyə nə qədər meyilli olsa da, ən yaxın dostunun özündən kənarda deyil, öz daxilində olduğunu görür. İnsanı münacata yönəldən səbəb də budur.*

*Yer üzünün ən qədir-qiymətsiz və kiçik adamı belə, bu ali diqqətlə özünü dəyərli hiss edir. İnsanların təsirlənmək baxımından fərqli ola bilmələri ehtimal edilir. Bu diqqət insanların bəzisində digərləri ilə müqayisədə daha çox özünüdərkin əsas hissəsini təşkil edir. Bu xüsusiyyətə daha çox malik olan insanlar, çox ehtimal ki, daha dindar insanlardır. Amma mən tam əminəm ki, hətta ondan, ümumiyyətlə, uzaq olduğunu iddia edənlər belə, özlərini aldadırlar və əslində, onların da müəyyən qədər dini var".*

[1] İmamlarımız (ə) Quranı elə səslə oxuyardılar ki, yoldan keçənlər onların səsini eşitdikdə ixtiyarsız dayanıb qulaq asar, ondan təsirlənər və ağlayardılar.

halda onu oxumağı tövsiyə edir. Həzrət Peyğəmbərə (s) xitab edərək buyurur:

– *"Ey (libasına) örtünüb bürünən! Gecə – az bir hissəsi istisna olmaqla (namaz və ibadət üçün) ayağa qalx! (Gecənin) yarısına qədər, yaxud bir qədər ondan az və ya bir qədər ondan çox! Həm də Quranı tərtil ilə oxu!"* [1]

"Tərtil" sözünün mənası Quranın aram-aram – nə sözlər başa düşülməyəcək qədər sürətlə, nə də sözlərin bir-birinə bağlılıqları itəcək qədər asta – oxunmasıdır. Buyurur ki, Quranı aram-aram və ayələrin mənasına diqqət edərək oxu. Həmin surənin sonrakı ayələrində buyurur ki, gün ərzində ticarət və Allah yolunda cihad edə bilmək üçün sizin daha çox yuxuya ehtiyacınız var, amma hər halda, ibadət üçün xəlvətə çəkilməyi unutmayın.

Müsəlmanların fərəhinə, mənəvi güc tapmalarına, batini saflıq və xalis niyyət əldə etmələrinə səbəb olan yeganə şey Quranın musiqisi olmuşdur. Quranın səmavi nidası çox az bir müddət ərzində Ərəbistan yarımadasının vəhşi insanlarından elə səbatlı möminlər yaratmışdır ki, onlar dövrün ən böyük hökumətləri qarşısında dayana və onları diz çökdürə bilmişlər. Müsəlmanlar Qurana təkcə bir dərs və təlim kitabı kimi deyil, ruhun qidası, güc mənbəyi və imanın artırılması amili kimi baxırdılar. Gecələr xalis niyyətlə Quran oxuyar[2] və Allahla raz-niyaz edər, gündüzlər şir kimi nərə çəkib düşmənə hücum edərdilər. Quranın özü də ona iman gətirənlərdən belə bir şey gözləyirdi. Ayələrin birində həzrət Peyğəmbərə (s) xitab edərək belə buyurulur:

[1] əl-Muzzəmmil, 1-4

[2] İmam Zeynəlabidin (ə) Quranın xətmi üçün öyrətdiyi duada bu məqamı qeyd edərək buyurmuşdur: "İlahi, Quranı gecənin qaranlıqlarında bizim ünsiyyət vasitəmiz et!" Yəni Bizə elə dərk və sevgi bəxş et ki, gecənin qaranlıqlarında bu kitabla ünsiyyətdə olaq.

*"Kafirlərə itaət etmə və onlara qarşı (Quranla) böyük bir cihad et!"* [1] Yəni kafirlərin sözünə qulaq asma və təkliflərinə təslim olma. Onların müqabilində müqavimət göstər və Quran silahı ilə onlarla cihada qalx və əmin ol ki, zəfər səninlədir. Həzrət Peyğəmbərin (s) həyatı bu kəlamın doğruluğunun göstəricisidir. O, tək və heç bir köməkçisi olmadan, əlində yalnız Quran olduğu halda qiyam etdi. Amma Quran onun üçün hər şey edirdi. Onun üçün əsgər hazırlayır, silah əldə edir, qüvvə toplayır və düşməni öz qarşısında təslim edirdi. Quran düşmənin adamlarını həzrət Peyğəmbərə (s) tərəf çəkir, onları o həzrətin (s) qarşısında təslim olmağa sövq edir, beləliklə də, Allahın haqq vədini gerçəkləşdirirdi.

Quranın öz dilini qəlb dili adlandırmasında məqsədi onun öz ayələri ilə cilalamaq, saflaşdırmaq və hərəkətə gətirmək istədiyi qəlbdir. Bu bəzən insanın şəhvət hisslərini də qidalandıran musiqi dilindən ayrı bir dildir. Həmçinin ordularda çalınan və döyüş hissini gücləndirən hərbi marşlar və döyüş musiqilərindən fərqli bir şeydir. Bu, həmin o dildir ki, bədəvi ərəblərdən barələrində: *"Bəsirətlərini qılıncları üzərində daşıyırlar"* [2], – söylənilən mücahidlər yaratdı. Onlar məsələlərə baxışlarını, dünyagörüşlərini, aydın fikirlərini, ilahi və mənəvi qazanclarını qılınclarının üzərinə qoymuşdular və qılınclarını bu ideya və təfəkkür yolunda işə salırdılar. Onları fərdi məsələlər və şəxsi mənafe düşündürmürdü. Onlar, məsum olmamalarına və bəzən səhvə yol vermələrinə baxmayaraq, "gecələri ibadət edən, gündüzləri oruc tutan" ifadəsinin bariz nümunələri hesab edilirdilər. Onlar bütün anlarda varlıq aləminin özəyi ilə

[1] əl-Furqan, 52
[2] Nəhcül-bəlağə, xütbə 148

əlaqədə idilər. Gecələri ibadətlə, gündüzləri isə cihad ilə keçirdi.

Həzrət Əmirəl-möminin (ə) "Nəhcül-bəlağə"də "Müttəqin" (Müttəqilər) adı ilə məşhur olan xütbəsində (191-ci xütbə) təqva sahiblərinin xüsusiyyətlərini sayır. Onların sözdə necə, əməldə necə olduqlarını izah etdikdən sonra, gecələr keçirdikləri hallarını da şərh edir, Sədinin dili ilə desək, "qaranlıq gecədə Allah dostları"nı vəsf edərək buyurur:

– *"Gecələr ayaqlarını ibadət üçün cütləyirlər. Quranın müxtəlif yerlərini oxuyurlar. Onlar onu gözəl tərtillə oxuyurlar".* Onların Quran oxumaları bizdən bəzilərinin çox sürətlə, özü də mənasını başa düşmədən Quran oxuması kimi deyil. Onlar Quranı diqqətlə və düşünərək oxuyarlar. *"Onun vasitəsi ilə özlərini hüznə qərq edirlər".* Sözləri və ayələri qəlblərindən qaynaqlanan avazla və xüsusi mənəvi hüznlə oxuyurlar. Allahın mərhəmətindən xəbər verən ayəyə çatdıqda ona şövqlə baxır, ilahi qəzəbdən xəbər verən ayəyə çatdıqda isə elə düşüncəyə dalırlar ki, sanki, Cəhənnəm əhlinin səsini eşidirlər.

Quran özünün qəlbin və ruhun kitabı olması, ruhları oyatması, gözlərdən həyəcan yaşı axıtması və qəlbləri titrətməsi xüsusiyyətini çox təkidlə nəzərə çatdırır. Bu xüsusiyyətin hətta özündən əvvəlki kitab əhli arasında da özünü doğrultduğunu buyurur:

– *"(Qurandan) əvvəl kitab vermiş olduğumuz kəslər (mömin yəhudi və xaçpərəstlər) ona inanırlar. Onlara (Quran) oxunduğu zaman: "Biz ona inandıq. Doğrudan da, Rəbbimizdən (nazil olmuş) haqdır...", – deyirlər".*[1]

Ayədə Quran oxunan zaman onun qarşısında təvazökarlıqla təslim olan və *"Biz ona inandıq. Doğrudan da,*

[1] əl-Qəsəs, 52 və 53

*Rəbbimizdən (nazil olmuş) haqdır",* – deyən bir dəstə vəsf edilmişdir. Onlar bunu deyirlər və batini təslimçilikləri daim artır.

Digər bir ayədə kitab əhlindən xaçpərəstlərin müsəlmanlara yəhudi və müşriklərdən daha yaxın olmalarına təkid edilir.[1] Sonra Quranı eşitməklə iman gətirən xaçpərəstləri belə vəsf edir:

– *"Peyğəmbərə nazil olanı dinlədikləri zaman haqqı bildikləri üçün onların gözlərinin yaşla dolduğunu görürsən. Onlar (belə) deyirlər: "Ey Rəbbimiz! Biz iman gətirdik, bizi (haqqa) şahid olanlarla bir yerə yaz!"* [2]

Digər bir ayədə, ümumiyyətlə, möminlərdən danışarkən onları belə təqdim edir:

– *"Allah sözün ən gözəlini (ayələri) bir-birinə bənzər, təkrarlanan bir kitab şəklində nazil etdi. Rəbblərindən qorxan kəslərin (bədənlərinin) dəriləri ondan (onu eşidəndə) titrəyər. Sonra onların dəriləri və ürəkləri yumşalar və onlar rahatlıq və Allaha inam taparlar".*[3]

Quranın bu və buna bənzər digər ayələrinin[4] hamısı onun ancaq elm və təhlil kitabı olmadığını və məntiqi dəlillərdən istifadə etməklə yanaşı, həm də hisslərlə, zövq və insan ruhunun incəlikləri ilə danışdığını, insanın ruhunu, canını təsir altına aldığını göstərir.

## Quranın müraciət ünvanları

Quranla təhlili tanışlıqda ondan öyrənilməli məqamlardan biri Quranın kimlərə müraciət etdiyinin müəyyənləşdi-

---

[1] *"Yəhudiləri və müşrikləri iman gətirənlərin ən pis düşməni, "Biz xaçpərəstik", – deyənləri isə onların ən yaxın dostu görəcəksən". (əl-Maidə, 82)*
[2] əl-Maidə, 83
[3] əz-Zumər, 23
[4] Məsələn, Məryəm surəsinin 58-ci ayəsi, eləcə də əs-Saff surəsinin ilk ayələri

rilməsidir. Quranda *"təqvalılara doğru yol göstərən"* [1], *"möminlər üçün hidayət və müjdəçi"* [2], *"diriləri qorxutmaq üçün"* [3] kimi ifadələr çox işlədilmişdir. Burada belə bir sual yaranır ki, təqvalıların hidayətə nə ehtiyacı var? Onlar onsuz da təqvalıdırlar! Digər tərəfdən Quran özünü belə təqdim edir:

– *"Bu (Quran) aləmlərə ancaq bir öyüd-nəsihətdir! Siz onun verdiyi xəbəri bir müddətdən sonra mütləq biləcəksiniz!"* [4]

Sual budur ki, bu kitab aləmdəkilərin hamısı üçündür, yoxsa möminlər üçün? Allah-taala digər bir ayədə həzrət Peyğəmbərə (s) xitab edərək buyurur:

– *"Səni də aləmlərə ancaq bir rəhmət olaraq göndərdik".* [5]

Biz bu məsələ barədə "Quranda tarix" mövzusundan danışarkən geniş izah verəcəyik. Burada qısa olaraq qeyd etmək lazımdır ki, Quran aləmdəki bütün insanlara xitab etdiyi ayələrdə Quranın yalnız hansısa xüsusi bir dəstə və ya tayfaya məxsus olmadığını demək istəyir. Kim Qurana tərəf gəlsə, nicat tapacaq. Quran möminlər və təqva sahibləri üçün doğru yol göstərən olduğundan danışarkən sonda kimlərin Qurana üz tutacaqlarını və kimlərin ona arxa çevirəcəklərini bəyan etmək istəyir. Quran hansısa xüsusi tayfa və ya qəbilənin ona daha çox məhəbbətinin olduğunu, bağlı olduğunu qeyd etmir, Quranın bu və ya di-

---

[1] əl-Bəqərə, 2
[2] əl-Bəqərə, 97
[3] Yasin, 70
[4] Sad surəsi, ayə 87-88 – Bu ayə Quranın çox heyrətləndirici ayələrindəndir. Bu ayə nazil olarkən, həzrət Peyğəmbər (s) Məkkədə idi və bir kəndin əhalisi ilə söhbət edirdi. Bir nəfər adamın bu qədər əminliklə: *"Onun verdiyi xəbəri bir müddətdən sonra mütləq biləcəksiniz!"* (tezliklə bu kitabın qısa müddət ərzində aləmdəkilərlə nələr etdiyini eşidəcəksiniz), – deməsi insanlara gülünc gəlirdi.
[5] əl-Ənbiya, 107

gər qəbilənin mülkiyyətində olduğunu demir. Quran, digər məktəblərdən fərqli olaraq, hansısa xüsusi sinfin mənfəətlərini təmin etmək məqsədi daşımır. Məsələn, "ancaq filan sinfin mənafelərini təmin etmək üçün göndərilib", — demir. Yaxud "hədəfi ancaq və ancaq fəhlə sinfini himayə etməkdir" və ya "əkinçilərə arxa durmaqdır" da — demir. Quran özü barədə bu məqama təkid edir ki, o, ədalətin bərqərar edilməsi üçün olan bir kitabdır. Peyğəmbərlər (ə) barəsində belə buyurur:

— *"Biz onlarla birlikdə kitab və ədalət tərəzisi nazil etdik ki, insanlar ədalətlə rəftar etsinlər".*[1]

Quran ədaləti təkcə bir sinif və ya digər qəbilə, tayfa üçün deyil, insan cəmiyyətinin hamısı üçün istəyir. Həmçinin Quran insanları özünə cəlb etmək üçün nasizm kimi, bəzi məktəblər sayağı, insanların hisslərini qızışdırmır. Eləcə də marksizm kimi insanların mənfəətpərəstliklərinə əsaslanmır və onları mənfəətləri baxımından qıcıqlandırmır.[2] Quran insanın əqli vicdanı ilə bağlı özəlliyə inandığı kimi, onun özü üçün də vicdani və fitri bir özəlliyin olduğuna inanır və həmin həqiqətpərəstlik və ədalətsevərlik fitrəti əsasında insanları hərəkətə sövq edir. Bu səbəbdən də Quranın sözü təkcə fəhləyə, əkinçiyə, yaxud məhrum və imkansız təbəqəyə və sinfə aid deyil. Quran həm zalımı, həm də məzlumu haqqa dəvət edir. Həzrət Musa (ə) Allahın kəlamını həm İsrail övladlarına, həm də Firona çatdırır və onların hər ikisindən Allaha iman gətirmələrini və Onun yolunda hərəkət etmələrini istəyir. Həzrət Məhəmməd (s) öz peyğəmbərliyini və ilahi dəvəti həm Qüreyş qəbiləsinin başçılarına, həm də Əbuzərə və Əmmara təqdim edir.

[1] əl-Hədid, 25

[2] Çünki belə olan halda daha onun arxasınca gedənlər üçün ədalət və haqq məqsəd olmayacaq, mənfəət əldə etmək və istəklərin təmin edilməsi məqsədə çevriləcək.

Quran insanın özünə qarşı üsyan edərək azğınlıqdan qayıtması (tövbə etməsi) üçün çoxlu nümunələr qeyd etmişdir. Əlbəttə, Quran bu mətləbdən də xəbərdardır ki, rifah və naz-nemət içində olanların Allah yoluna qayıtmaları məhrumiyyət içində yaşayanlardan və zülmə məruz qalanlardan olduqca çətindir.

Qeyd edilən dəstələrdən ikincisi təbiətinin tələbi ilə ədalət yolunda hərəkət edir. Birinci dəstə isə ilk növbədə öz şəxsi və sinfi mənafelərindən vaz keçməli, şəxsi istək və meyillərini ayaq altına qoymalıdır.

Quran ona ruhları pak və saf olanların iman gətirdiyini deyir. Onlar mənafelərinə, maddi istəklərinə və dünyəvi maraqlarına görə deyil, yalnız hər bir insanda fitri olan həqiqət axtarmaq və ədalətsevərlik hissinə əsaslanaraq Qurana üz tuturlar.

# İkinci Fəsil

# Quran Baxımından Ağıl

Keçən fəsildə qısaca da olsa, Quranın dilləri barədə danışdıq və Quranın öz sözünü çatdırmaq üçün iki dildən – məntiqi deduksiya və hiss dilindən istifadə etdiyini qeyd etdik. Bu iki dilin hər birinin öz müraciət ünvanları var. Məntiqi deduksiyanın müraciət ünvanı ağıl, hissin müraciət ünvanı isə qəlbdir. Biz bu bölümdə Quranın ağıl barədəki nəzərini araşdıracağıq.

Gərək, araşdırıb görək, Quran baxımından, ağıl istinad mənbəyi, fiqh və üsul[1] alimlərinin dili ilə desək, höccətdir, ya yox? Bu o deməkdir ki, görəsən, hər hansı bir fikir və qənaət, doğrudan da, sağlam ağlın gəlmiş olduğu qənaət olsa, insan ona ehtiramla yanaşmalı və ona əsaslanaraq davranmalıdır, yoxsa yox? Əgər ona əməl etsə və hansısa məqamda səhvə yol versə, görəsən, Allah-taala onu üzürlü hesab edəcək, yoxsa cəzalandıracaq? Əgər əməl etməsə, Allah-taala onu "ağlının da həmin qərara gəldiyi halda, niyə sən əməl etmədin?" – deyə cəzalandıracaqmı?

---

[1] Fiqh İslam dininin praktiki göstərişlərini və hüquqi məsələlərini əhatə edən elmdir. Üsul elmi isə İslam fiqhinin mənbələrini (Quran, sünnə, icma və ağıl) və bu mənbələrə müraciət metodlarını öyrənir. – Red.

## Ağlın istinad mənbəyi olmasının dəlilləri

İslam baxımından, ağlın istinad mənbəyi və dəlil olması öz yerində sübuta yetirilmişdir. Çox az bir dəstəni çıxmaq şərti ilə, ümumilikdə İslam alimlərindən İslamın ilk əsrlərindən indiyə kimi heç kəs ağlın istinad mənbəyi olduğu haqqında fikirdə tərəddüd etməmiş və alimlərin hamısı onu fiqhin dörd mənbəyindən biri hesab etmişdir.

### 1. Quranın ağlı işlətməyə və düşünməyə dəvət etməsi

Biz Quran barəsində söhbət etdiyimiz üçün, gərək, ağlın dəlil olmasının sübutlarını Qurandan gətirək. Quran müxtəlif yollar və üsullarla ağlın istinad mənbəyi olduğunu təsdiqləmişdir. Bu məsələyə işarə edilmiş altmış-yetmiş Quran ayəsini misal gətirmək olar ki, onların barəsində "düşünəsiniz deyə bunu müzakirə mövzusu etdik" mənası ifadə edilmişdir. Quranın çox heyrətamiz ifadələrindən birini sizə nümunə gətirəcəyəm. Allah-taala buyurur:

– *"Allah yanında (yer üzündə) gəzən canlıların ən pisi (haqqı) dərk etməyən karlar və lallardır".*[1]

Əlbəttə, bildiyimiz kimi, Quranın kar və lal deməkdə məqsədi fiziki baxımdan kar və lal olan şəxslər deyil. Məqsəd həqiqəti eşitmək istəməyən və ya eşidib etiraf etmək istəməyən şəxslərdir. Quran baxımından, həqiqəti eşitməyən və ancaq mənasız və puç şeyləri eşitməyə hazır olan qulaq kardır. Həmçinin Quran baxımından yalnız puç və mənasız sözlərlə məşğul olan dil laldır.

---

[1] əl-Ənfal, 22 – Ayənin ərəbcəsində işlədilmiş "dabbə" sözünün mənası "tərpənən, hərəkət edən canlı"dır və dördayaqlılardan əlavə, həşəratlara da şamil olur. Lakin ərəb dilində bu sözün istifadə obyekti məhdudlaşaraq ancaq at, uzunqulaq, inək, qatır kimi dördayaqlılara aid edilir.

*"Dərk etməyən"* ifadəsində məqsəd öz düşüncəsindən bəhrələnməyən şəxslərdir. Quran insan adına layiq olmayan belələrinə "heyvanlar kimi" və "dördayaqlı" ifadələri ilə xitab edir.[1]

Digər bir ayədə Allahın feli və faili tövhidi barəsində bir məsələ irəli sürərək buyurur:

– *"Heç kəs Allahın izni olmadan iman gətirə bilməz".*

Bütün zehinlərin dərk etmək qabiliyyətinə malik olmadığı və insanı, doğrudan da, yerindən oynadan bu dərin məsələ irəli sürüldükdən sonra ayəni belə davam etdirir:

– *"Allah anlamayanları əzaba (kəsafətə) düçar edər".*[2]

Quran, nümunə olaraq göstərdiyimiz bu iki ayədə insanı, məntiq alimlərinin dili ilə desək, "mütabiqlik dəlalət"i ilə düşünməyə dəvət etmişdir. Həmçinin çoxsaylı ayələr mövcuddur ki, Quran onlarda "iltizami dəlalət" yolu ilə ağlın istinad mənbəyi olmasını təsdiqləmişdir.[3] Başqa sözlə desək, elə ifadələr işlədir ki, onları ağlın istinad mənbəyi və dəlil olmasını qəbul etmədən, qəbul etmək qeyri-mümkündür. Məsələn, tərəf müqabilindən əqli dəlil gətirməsini istəyərək buyurur:

– *"De: "Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!"*[4]

---

[1] Sədi bu gözəl beytdə həmin mənanı belə bəyan etmişdir (məzmunu): *"İnsan danışdığına görə heyvandan yaxşıdır; əgər doğru danışmasan, heyvan səndən yaxşıdır".*

[2] Yunus, 100

[3] Bir şeyin mövcudluğunun bizi başqa bir şeyə istiqamətləndirməsinə dəlalət deyilir. Dəlalətin müxtəlif növləri var. Onlardan biri də "ləfzi dəlalət"dir (sözün dəlalət etməsidir). Ləfzi dəlalət üç növdür:

1. Mütabiqlik dəlaləti: Yəni söz özünün bütün mənasına dəlalət edir. Məsələn, biz "avtomobil" dedikdə avtomobilin bütün hissələrini nəzərdə tuturuq.

2. Nisbi dəlalət: Bu növ dəlalətdə söz öz mənasının bir hissəsinə dəlalət edir. Məsələn, "avtomobil buradadır", – deyirik və bundan avtomobilin salonu və ya motorunun da burda olması başa düşülür.

3. İltizami dəlalət: Bu dəlalətdə söz öz mənasından xaric bir işə dəlalət edir. Məsələn, Hatəmin adı çəkilir və bizim onu eşitməyimizlə zehnimizdə səxavətlilik canlanır.

[4] əl-Bəqərə, 111

Quran, beləcə, iltizami dəlalətlə ağlın istinad mənbəyi və höccət olmasını bəyan edir. Yaxud vacibəl-vücudun (mütləq varlığın) vəhdətini isbat etmək üçün məntiqi silloqizm qurur:

– *"Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən çıxıb) fəsada uğrayardı".*[1]

Quran burada şərti bir cümlə quraraq birinci cümləni istisna etmiş, ikincini isə kənara qoymuşdur. Quran ağıl üzərində bu qədər təkid etməklə "iman ağla ziddir, mömin olmaq, Allahın nurunun düşməsi üçün ağlı, təfəkkürü kənara qoymaq və ancaq qəlbi işə salmaq lazımdır", – deyən bəzi dinlərin sözlərini puça çıxarır.

**2. Səbəb-nəticə qanunlarından istifadə**

Quranın ağlın özəlliyinə inanmasının dəlillərindən biri də onun məsələləri səbəb-nəticə qanunu çərçivəsində nəzərə çatdırmasıdır. Səbəb-nəticə qanunu və səbəbilik prinsipi əqli təfəkkürün təməlidir. Quran özü bu qanunu həm qəbul etmiş, həm də ondan istifadə etmişdir. Quranın Allahın kəlamı olması, Allah-taalanın səbəb-nəticə qanununun yaradanı olması və kəlamın səbəb-nəticə qanunundan kənar bir aləmdən gəlməsinə baxmayaraq, bütün bunlarla yanaşı, Quran dünyada olan səbəb-nəticə qanunundan söz açmağı və hadisələri bu qaydaya tabe hesab etməyi yaddan çıxarmamışdır. Məsələn, bu ayəyə nəzər yetirin:

– *"Hər hansı bir tayfa öz tövrünü (vəziyyətini) dəyişmədikcə, Allah da onun tövrünü (vəziyyətini) dəyişməz".*[2]

Ayə demək istəyir ki, bütün talelərin Allahın istəyindən asılı olmasına baxmayaraq, Allah-taala insanlara onların

---

[1] əl-Ənbiya, 22
[2] ər-Rəd, 11

ixtiyar, qərar və əməlindən xaric heç nə yükləmir və bihudə iş görmür. Talelərin də öz qaydası var. Allah-taala heç bir cəmiyyətin taleyini öz-özünə və əsassız dəyişmir. Onlar özlərinə aid olanı, məsələn, əxlaqi və ictimai sistemləri, yaxud şəxsi işlərinə aid olanları dəyişdikdə, Allah da onların talelərini dəyişir.

Digər tərəfdən Quran müsəlmanlara keçmiş ümmətlərin vəziyyətini, tarixçəsini araşdırmağı və ondan ibrət götürməyi tövsiyə edir. Əgər keçmiş ümmət və millətlərin, quruluşların başına gələnlər səbəbsiz və təsadüfi olsaydı, talelər yuxarıdan aşağı məcburi şəkildə zorla tətbiq edilsəydi, onda, təbii ki, sözügedən araşdırma və ibrətə təşviq və tövsiyə mənasız olardı. Quran həmin məsələyə diqqət yetirməyi təkid etməklə millətlərin taleyinin vahid sistemə əsaslandığını xatırlatmaq istəyir. Beləliklə də, əgər hər hansı bir cəmiyyətin vəziyyəti digər bir cəmiyyət kimi olsa, o da həmin cəmiyyətin taleyini yaşayacaqdır. Digər bir ayədə buyurur:

– *“Neçə-neçə məmləkəti (əhalisini) zülm edərkən məhv etdik; onlar alt-üst olmuşdu. Neçə-neçə quyular, neçə-neçə möhtəşəm qəsrlər bomboş qalmışdı. Məgər onlar yer üzündə gəzib dolaşmırlarmı ki, düşünən qəlbləri, eşidən qulaqları olsun?”*[1]

Bu mətləblərin hamısında “iltizami dəlalət” vasitəsilə vahid sistemin mövcudluğunun qəbul edilməsi ilə səbəb-nəticə qanunu təsdiqlənir və səbəb-nəticə əlaqələrinin mövcudluğunun qəbul edilməsi ağlın istinad mənbəyi olması deməkdir.

### 3. Şəriət hökmlərinin fəlsəfəsi

Quran baxımından, ağlın dəlil və istinad mənbəyi olmasının dəlillərindən biri onun hökmlərin fəlsəfəsini qeyd et-

[1] əl-Həcc, 45-46

məsidir. Bunun mənası çıxarılmış hökmün filan məsləhətin nəticəsi olmasıdır. Üsul alimlərinin belə bir sözü var ki, hökmlərin səbəblərindən biri də onlarda olan xeyir və ziyanlardır. Məsələn, Quran bir yerdə bizə namaz qılmağı əmr edir. Digər bir yerdə həmin hökmü verməklə yanaşı, onun fəlsəfəsini bəyan edir:

– *"Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər".*[1]

Göründüyü kimi, ayədə namazın mənəvi təsiri açıqlanır və insanı yüksəltməsi və bu yüksəliş nəticəsində insanın günahlardan, xoşagəlməz işlərdən uzaqlaşması bəyan edilir. Yaxud orucdan söz salır və onun yerinə yetirilməsi göstərişinin davamında buyurur:

– *"Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"*[2]

Zəkat, cihad və digər hökmlər barəsində də məsələ belədir. Onların hamısı barədə, fərdi və ictimai xeyirləri baxımından izahlar verilmişdir. Beləliklə də, Quran səmavi göstərişlərə, bu dünyadan xaric olmasına baxmayaraq, dünyəvi rəng də verir və insandan məsələlərin həqiqətinin ona aydın olması üçün onların barəsində düşünməsini və onların ancaq insan idrakının fövqündə duran bir sıra sirli məsələlər olduğunu güman etməməsini istəyir.

### 4. Ağlın xətaları ilə mübarizə

Quran baxımından, ağlın özəlliyinə dəlalət edən və bundan əvvəlki dəlildən daha tutarlı məsələ Quranın ağla mane olan şeylərlə mübarizə aparmasıdır. Bu məsələni izah etmək üçün giriş olaraq digər bir məsələni qeyd etmək məcburiyyətindəyik.

---

[1] əl-Ənkəbut, 45
[2] əl-Bəqərə, 183

İnsanın zehni bir çox hallarda səhvə yol verir. Bu bizim hamımıza aid olan geniş yayılmış bir məsələdir. Əlbəttə, təkcə ağıl deyil, hisslər də yanılır. Məsələn, alimlər gözün səhvləri barəsində onlarca fikir söyləmişlər. Ağıl barədə də belə hallar çox olur. Bir də görürsən insan bir sıra dəlillərə əsaslanaraq nəticədə qərar qəbul edir, amma sonra başa düşür ki, həmin dəlillərə əsaslanmaq kökündən yanlış imiş. İndi burada qarşıya belə bir sual çıxır: Zehnin bir sıra məqamlarda səhv etdiyini əsas götürərək, düşüncəni kökündən kənara qoymaq lazımdır, yoxsa başqa vasitələrdən istifadə edərək zehnin səhvlərini tapmaq və onların qarşısını almaq lazımdır? Sofistlər bu sualın cavabında ağla etimad etməyin doğru olmadığını və ümumiyyətlə, dəlilə əsaslanmanın mənasız və əbəs iş olduğunu deyirdilər. Filosoflar bu sualın cavabında sofistlərə çox tutarlı cavablar vermişlər. Onlardan biri budur ki, ağıl kimi, digər hiss üzvləri də səhvə yol verir, amma heç kəs onlardan istifadə etməməyi və onları kənara qoymağın lazım olduğunu demir. Ağlı kənara qoymaq qeyri-mümkün olduğu üçün mütəfəkkirlər səhv edilən yerləri düzəltmək, onların qarşısını almaq qərarına gəlmişlər. Məsələni araşdırarkən hər bir deduksiyanın iki hissədən maddə (substansiya) və formadan ibarət olduğunu görmüşlər. Bu, eynilə tikilişində qum, sement, daş və dəmir kimi materiallardan (maddədən) və xüsusi quruluşdan (formadan) istifadə edilmiş bina kimidir. Binanın inşasının bütün cəhətlərdən yaxşı və kamil olması üçün həm yaxşı material tədarük edilməli, həm də layihəsi düzgün və nöqsansız hazırlanmalıdır. Deduksiyanın da düzgünlüyü üçün onun həm maddəsi doğru olmalıdır, həm də forması. Deduksiyanın formasını araşdırıb onun barəsində hökm çıxarmaq üçün Aristotel məntiqi və ya formal məntiq yarandı. Formal məntiqin vəzifəsi de-

duksiyanın formasının düzgün olub-olmamasını müəyyənləşdirmək və zehnə səhvə yol verməmək üçün kömək etmək idi.[1]

Amma mühüm məsələ budur ki, deduksiyanın düzgünlüyünün təmin edilməsi üçün təkcə formal məntiq kifayət deyil. Bu məntiq təkcə bir cəhəti təmin edir. Deduksiyanın maddəsinin düzgünlüyünə əmin olmaq üçün maddi məntiqə də ehtiyac var. Yəni düşüncənin maddəsinin keyfiyyətini ölçmək üçün bir sıra meyarlara möhtacıq.

Aristotel forma üçün məntiqi əsaslandırma yaratdığı kimi, Bekon və Dekart kimi alimlər də maddə üçün ona bənzər məntiq yaratmaq istiqamətində səylər göstərmişlər. Onlar bu istiqamətdə müəyyən meyarlar təyin etməyə də müvəffəq oldular. Doğrudur, o, ümumilik baxımından Aristotel məntiqi kimi deyildi, amma insana bir qədər kömək edə və onu əsaslandırmada səhvə yol verməkdən qoruya bilirdi. Lakin, bəlkə də, eşidəndə təəccüb edəcəksiniz ki, Quran əsaslandırmada səhvə yol verməmənin qarşısını almaq üçün bir sıra üsullar təqdim etmiş və Dekart kimilərin həm tədqiqatlarını qabaqlamış, həm də həmin tədqiqatlardan daha üstündür.

---

[1] Əsrlərdir elm aləmində baş verən və bir çox anlaşılmazlıqlara səbəb olan səhvlərdən biri bəzilərinin Aristotel məntiqinin bir vəzifəsinin də deduksiyanın maddəsinin doğru və ya səhv olmasını müəyyənləşdirmək olduğunu güman etmələridir. Aristotel məntiqi bu işi görə bilmədiyi üçün, onlar onun faydasız olması qənaətinə gəlirdilər. Təəssüflər olsun ki, bu səhv bizim zamanımızda da təkrarlanır. Əlbəttə, bu, həmin sözü deyənlərin Aristotel məntiqini düzgün başa düşməmələrini göstərir. Əgər yenə həmin bina məsəlindən istifadə edəsi olsaq, deməliyik ki, deduksiyanın düzgünlüyünün müəyyənləşdirilməsində Aristotel məntiqinin vəzifəsi eyni ilə divarın düzlüyünü yoxlayan şaqul kimidir. Şaqul vasitəsi ilə divarın inşasında istifadə edilən sement, palçıq, kərpic və sairənin keyfiyyətli və ya keyfiyyətsiz növdən olmasını başa düşmək mümkün deyil. Şaqulun göstərdiyi yeganə şey divarın əyri olub-olmamasıdır. Sonradan digər mütəfəkkirlər tərəfindən daha da təkmilləşdirilən və zənginləşdirilən Aristotel məntiqi yalnız deduksiyanın forması barədə hökm çıxarır, maddə barəsində isə sakitdir, nə müsbət, nə də mənfi bir söz deyə bilir.

## Quran baxımından səhvin kökü

Quranın səhvin köklərindən hesab etdiyi məsələlərdən biri də insanın yəqin yerinə gümanı qəbul etməsidir.[1] Əgər insan hər bir məsələdə yalnız yəqinə tabe olmaqda israrlı olsa və yəqinin yerinə gümanı qəbul etməsə, səhv etməz.[2] Quran bu məsələnin üzərində çox dayanır və hətta ayələrdən birində insanın ən böyük zehni səhvinin gümana tabe olmaq olduğunu vurğulamışdır. Yaxud başqa bir yerdə həzrət Peyğəmbərə (s) xitab edərək buyurur:

– *"Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar!"*[3]

Yer üzündəki insanların əksəriyyəti gümanın arxasınca gedir. Sən də onların arxasınca getsən, onlar səni də azdırarlar. Çünki onlar yəqinə yox, gümana tabedirlər və buna görə də səhv edirlər.

Həmçinin digər bir ayədə buyurur:

– *"Bilmədiyin bir şeyin ardınca getmə!"*[4]

Bu, bəşəriyyətin təfəkkür tarixində ilk dəfə Quranın insana etdiyi tövsiyədir. Quran həmin tövsiyə ilə insanı bu kimi səhvlərdən çəkindirmişdir.

Deduksiyanın maddəsində, xüsusilə ictimai məsələlərdə səhvin ikinci kökü təqlid məsələsidir. İnsanların çoxu cəmiyyətin inandığı şeyə inanır. Yəni cəmiyyətin qəbul et-

---

[1] Dekartın birinci qaydası da elə budur. O deyir: "Bundan sonra əvvəlcə yaxşı araşdırma aparmayınca heç nəyi qəbul etməyəcəyəm. Əgər görsəm ki, bir faiz əks ehtimal var, ondan istifadə etməyəcəyəm və həmin şeyi kənara qoyacağam". Yəqinin düzgün mənası da elə budur.

[2] Əlbəttə, bunu da nəzərə almaq lazımdır ki, ehtimali məsələlərdə və yəqin əldə etməyin mümkün olmadığı yerlərdə güman və ehtimal nəzərə alınmalıdır. Amma gümanı elə güman yerinə, ehtimalı da ehtimal yerinə qəbul etmək lazımdır, ehtimalı yəqin yerinə yox. Səhvin yaranmasına bu ikinci əməl səbəb olur.

[3] əl-Ənam, 116

[4] əl-İsra, 36

diyi və ya keçmiş nəsillərin qəbul etmiş olduqları şeyi keçmiş nəsillərin qəbul etməsi səbəbindən qəbul edirlər. Onların yeganə dəlili də həmin şeyin keçmiş nəsillər tərəfindən qəbul edilməsidir.[1] Quran isə buyurur ki, hər bir məsələni ağıl meyarı ilə ölçün və ata-babalarınızın nə bütün əməlini istinad mənbəyi hesab edin, nə də onları tamamilə rədd edin. Çox məsələlər var ki, keçmişdə irəli sürülmüş və elə həmin vaxt da səhv olmuşdur, amma insanlar onu qəbul etmişlər. Həmçinin bir çox doğru məsələlər var ki, lap qədim zamanlardan irəli sürülmüş, amma insanlar nadanlıq üzündən onları qəbul etməkdən boyun qaçırmışlar. Odur ki, məsələlərin qəbul edilməsində kor-koranə təqlid etmək deyil, ağıl və düşüncəninköməyinə arxalanmaq lazımdır. Quran bir çox ayələrdə ata-babanı təqlid etməyi ağıl və düşüncənin əks tərəfi kimi təqdim etmişdir. Buyurur:

– *"Onlara: "Allahın göndərdiyinə tabe olun!" – deyildiyi zaman, onlar: "Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik!" – deyirlər. Bəs ataları bir şey anlamayıb doğru yolda deyildilərsə necə? (Yenədəmi onlara tabe olacaqlar?)"*[2]

Quran təkidlə buyurur ki, hər hansı bir fikrin qədim olması onun səhv, yaxud düzgün olmasına dəlalət etmir. Köhnəlik maddi şeylərə aiddir. Varlıq aləminin həqiqətləri, üzərindən nə qədər zaman keçməsinə baxmayaraq, köhnəlmir. Məsələn, *"Hər hansı bir tayfa öz tövrünü (vəziyyətini) dəyişmədikcə, Allah da onun tövrünü (vəziyyətini) dəyişməz".*[3] ayəsi bir həqiqətdir və dünya durduqca, o da sabit, möhkəm və doğrudur. Quran məsələlərə ağıl silahı ilə yanaşmağın gərəkliyini söyləyir. İnsan öz düzgün əqidə-

---

[1] Bu məsələ Bekonun sözlərindən birində də var. Onun nəzərində olan bütlərdən biri də ictimai və ya ənənəvi bütlərdir. Onun büt dedikdə məqsədi kor-koranə təqlidlərdir.

[2] əl-Bəqərə, 170

[3] ər-Rəd, 11

sini başqaları adama söz qoşarlar deyə kənara qoymamalı, həmçinin hansısa bir əqidəni bu və ya digər məşhur şəxsiyyətə aid olduğu üçün qəbul etməməlidir. Bütün hallarda məsələləri insan özü araşdırmalıdır.[1]

Səhvin yaranmasına səbəb olan digər bir amil kimi Quran nəfsi istəklərə, nəfsin arzularına tabe olmağı qeyd edir. Mövlana demişkən (məzmunu): *"Qərəz gəldikdə istedadın üzəri örtülər və qəlbdən gözə yüz pərdə çəkilər".*

İnsan istənilən məsələdə istəklər barədə bitərəf mövqe tutmayınca, düzgün fikirləşə bilməz. Ağıl o yerdə düzgün işləyə bilər ki, ortada nəfsi istək olmasın. Əllamə Hillidən[2] maraqlı bir hekayət nəql edilmişdir ki, bu məsələyə gözəl nümunə ola bilər.

Əllamə Hilli üçün bir dəfə belə bir sual yaranır ki, əgər quyuya bir heyvan düşüb ölsə və heyvanın murdar leşi quyuda qalmalı olsa, həmin quyunun suyunu nə etmək olar? Təsadüfən həmin vaxt Əllamə Hillinin həyətindəki quyusuna bir heyvan düşüb ölür. Əllamə Hilli özü barədə də həmin məsələnin hökmünü çıxarmaq məcburiyyətində qalır. İndi burada iki cür hökm çıxarmaq mümkün idi. Biri budur ki, quyunu tamamilə doldursunlar və başqa quyudan istifadə etsinlər. Digər bir yol isə bu idi ki, quyunun suyunun müəyyən hissəsini çəkib atdıqdan sonra yerdə qalan

[1] Quranın kəskinliklə qadağan etdiyi ata-babanı təqlid, dövrün dəbi ilə ayaqlaşmaq, yaxud "palaza bürünüb el ilə sürünmək" kimi məsələlər ən savadlı və ədalətli müctəhidə təqlid etməklə qarışdırılmamalı, səhv salınmamalıdır. Müctəhidə təqlid mütəxəssisə müraciətdən və onun ixtisas savadından bəhrələnməkdən ibarət vacib bir əməldir.

[2] Əllamə Hilli kimi tanınan Həsən ibn Yusif ibn Əli ibn Mütəhhər Hilli 1250-ci ildə anadan olmuş və 1325-ci ildə vəfat etmişdir. Fiqh, üsul, kəlam, məntiq, fəlsəfə, rical və s. elmlər sahəsində kitablar yazmışdır. Fiqh elmində öz dayısı Mühəqqiq Hillinin, fəlsəfə və məntiqdə isə Xacə Nəsirəddin Tusinin şagirdi olmuşdur. Əsərlərindən əlyazma və çap edilmiş formalarda yüzə yaxın kitab məlumdur ki, onlardan bəzisi — məsələn, "Təzkirətül-füqəha" — təklikdə onun dahiliyini göstərmək üçün kifayət edir. (Bax: İslam elmləri ilə tanışlıq, Mürtəza Mütəhhəri) – Red.

sudan arxayın istifadə etsinlər. Əllamə görür ki, bu məsələ barədə qərəzsiz hökm çıxara bilməyəcək. Çünki bu məsələdə onun öz şəxsi mənafeyi də var. Buna görə də göstəriş verir ki, əvvəl içinə heyvan düşmüş onun öz şəxsi quyusunu doldursunlar. Daha sonra o, rahat düşüncə ilə əyləşərək nəfsin təzyiq və vəsvəsəsi olmadan hökm çıxarır və fitva verir. Quran nəfsi istəklərə tabeçilik barədə çox danışmışdır. Biz onlardan birinə toxunmaqla kifayətlənəcəyik. Allah-taala buyurur:

– *"Onlar (müşriklər) yalnız zənnə və nəfslərindən gələn istəklərə uyarlar".*[1]

[1] ən-Nəcm, 23

# Üçüncü Fəsil

# Quranın Qəlb Barəsindəki Nəzəri

İrfani və ədəbi terminologiyada qəlb dedikdə bədənin sol tərəfində yerləşən və motor kimi qanı damarlara vuran bədən üzvünün nəzərdə tutulmadığını izah etməyə, bəlkə də, ehtiyac yoxdur. Məsələn, Quran buyurur: *"Şübhəsiz ki, bunda qəlb sahibi, yaxud hazır olub qulaq asan kimsə üçün öyüd-nəsihət vardır!"*[1] Yaxud Hafizin çox ürfani olan bu lətif ifadəsinə nəzər salın (məzmunu): *"Qəlbim hürkdü və mən qafil dərviş bilmirəm ki, bu sərgərdan ovun başına nə gəldi?"*

Məlumdur ki, qəlb və ürək dedikdə məqsəd bədən üzvü olan ürəkdən tamamilə fərqli və çox üstün olan bir həqiqətdir. Quranın qəlblərin xəstə olması məsələsinə toxunduğu yerlərdə də məsələ belədir. Buyurur: *"Onların ürəyində mərəz var. Allah onların mərəzini daha da artırar"*.[2] Bu xəstəliyin müalicəsi ürək həkiminin imkanlarından xaricdir. Bu növ xəstəlikləri mənəvi xəstəliklərin mütəxəssisi olan həkim müalicə edə bilər.

---

[1] Qaf, 37
[2] əl-Bəqərə, 10

## Qəlbin tərifi

Bəs onda bu qəlb ifadəsini işlətməkdə məqsəd nədir? Bu sualın cavabını insan varlığının həqiqətində axtarmaq lazımdır. İnsan bir mövcud olsa da, varlığının yüzlərlə, minlərlə cəhəti vardır. İnsanın "mən" dediyi şey çoxsaylı düşüncələr, arzular, qorxular, ümidlər, eşqlər və sairənin cəmindən ibarətdir. Bunların hamısı bir mərkəzdə, bir nöqtədə bir-birinə qovuşan çaylar, arxlar kimidirlər. Həmin mərkəzin özü çox dərin bir dənizdir ki, indiyə kimi heç kəs onun dərinliklərini öyrənə bildiyini iddia etməmişdir. Filosof, arif və psixoloqların hər biri özünə görə bu dənizə baş vurmuş və hər biri onun sirlərini müəyyən qədər kəşf edə bilmişdir. Bəlkə də, bu sahədə ariflər digərlərindən daha çox müvəffəqiyyət qazana bilmişlər. Quranın qəlb adlandırdığı şey həmin dənizin həqiqətindən ibarətdir ki, bizim zahiri ruh adlandırdığımız şeylərin hamısı bu dənizə qovuşan çayları və qollardır. Hətta ağlın özü də bu dənizə birləşən çaylardan biridir.

Quran vəhydən danışarkən ağlın adını belə, çəkmir və onun işi yalnız həzrət Peyğəmbərin (s) qəlbi ilə bağlıdır. Bu o deməkdir ki, Peyğəmbər (s) Quranı ağıl qüvvəsi və əqli dəlillərlə əldə etməmişdir, əksinə, həzrət Peyğəmbərin (s) qəlbi bizim üçün təsəvvüredilməz bir vəziyyətə çatmış və həmin vəziyyətdə o, çox yüksək həqiqətləri dərk və müşahidə etmək istedadı əldə etmişdir. Ən-Nəcm və ət-Təkvir surələrinin ayələri bu əlaqənin necəliyini müəyyən qədər bəyan etmişdir.

Ən-Nəcm surəsində oxuyuruq:

*– "O, kefi istəyəni (havadan) danışmır. Bu, ancaq nazil olan bir vəhydir. Onu çox qüvvətli olan (Cəbrail) öyrətdi. O, qüvvət sahibi (şəklində) göründü. O (Cəbrail) ən uca üfüqdə idi. Sonra yaxınlaşdı və aşağı endi. (Onların arasın-*

*dakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. Sonra (Cəbrail Allahın Öz) bəndəsinə vəhy buyurduğunu vəhy etdi. Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı (gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbdən inandı)".*[1]

Quran bunların hamısını bu məsələlərin ağlın gücündən yüksəkdə olmasını göstərmək üçün buyurur. Burada söhbət görməkdən və ucalmaqdan gedir.

Yaxud ət-Təkvir surəsinin ayələrində belə oxuyuruq:

– *"Bu, çox möhtərəm olan bir elçinin (Cəbrailin) gətirdiyi kəlamdır".* Yəni bu kəlamları Allah-taala mələk vasitəsi ilə həzrət Peyğəmbərə (s) vəhy etmişdir. *"(Elə bir elçi ki) çox qüvvətlidir; ərşin sahibi (Allah) yanında çox hörmətlidir (izzətlidir). (Elə bir elçi ki, mələklər arasında) itaət ediləndir, həm də (Allah yanında vəhyə) etibarlı müvəkkildir. Həqiqətən, sizin dostunuz (müşriklərin dediyi kimi) divanə deyildir!"* Amma siz onun sözlərini öz ağlınızla uyğun hesab etmədiyiniz üçün onu dəli hesab edirsiniz. Əslində o, dəli deyil və siz yanılırsınız. *"And olsun ki, (Peyğəmbər) onu (Cəbraili) açıq (ən uca) üfüqdə gördü. O, qeyb (vəhyi olduğu kimi təbliğ etmək və sizə öyrətmək) barəsində xəsis deyildir".* İqbal Lahurinin bu barədə çox gözəl bir sözü var. İqbal deyir: "Peyğəmbər o kəsdir ki, onun varlığı həqiqətlərlə dolub daşır, o, zəmanəni sahmana salmaq və tarixin istiqamətini dəyişmək üçün ona gəlib çatanı bəyan edir".

Quran vəhydən danışdığı, qəlbdən söz açdığı yerlərdə onun dedikləri ağıl və düşüncədən yüksəyə qalxır, amma bununla belə, onun həmin sözləri ağıl və düşüncəyə zidd də deyil. Quran burada ağıl və hissdən yüksək elə bir baxış açıqlayır ki, ümumiyyətlə, ağlın ona çatmaq yolu yoxdur və ağıl onu dərk etməkdə acizdir.

---

[1] ən-Nəcm, 3-11

## Qəlbin xüsusiyyətləri

Quran baxımından qəlb həm də tanıma vasitəsi hesab edilir. Ümumiyyətlə, Quranın böyük bir hissəsinin müraciət ünvanı insanın qəlbidir. Bir çox sözləri yalnız qəlb qulağı eşidə bilər və onu ondan başqa heç kəs eşidə bilməz. Buna görə də Quran bu vasitənin qorunub saxlanılmasına və təkamülünə çox təkid edir. Quranın müxtəlif yerlərində nəfsin paklanması, qəlbin işıqlandırılması və saflaşdırılması kimi məsələlərə rast gəlmək mümkündür. Buyurulur:

– *"Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!"* [1]

– *"Xeyr (belə deyildir). Əslində onların qəlblərini qazandıqları (günahlar) paslandırmışdır".* [2]

Qəlbin nurlu olması barədə buyurulur:

– *"Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən (bir nur) verər".* [3]

Yaxud başqa bir ayədə buyurur:

– *"Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq".* [4]

Bunun müqabilində Quranda dəfələrlə nalayiq işlərin insanın ruhunu, mənəviyyatını qaranlıqlaşdırması və korlaması, onun pak meyillərini əlindən alması barədə də söz açılmışdır. Quran möminlərin dili ilə belə buyurur:

– *"Ey Rəbbimiz! Bizi doğru yola yönəltdikdən sonra ürəklərimizə şəkk-şübhə (azğınlıq, əyrilik) salma!"* [5]

Yaxud pis əməl sahibləri barədə buyurur:

---

[1] əş-Şəms, 9
[2] əl-Mutəffifin, 14
[3] əl-Ənfal, 29
[4] əl-Ənkəbut, 69
[5] Ali-İmran, 8

– *"Xeyr (belə deyildir). Əslində onların qəlblərini qazandıqları (günahlar) paslandırmışdır".*[1]

– *"Onlar (haqdan) üz döndərdikdə, Allah da onların dönük qəlblilərini dönüklükdə buraxdı".*[2]

Həmçinin Quran qəlblərin möhürlənməsi, kilidlənməsi və daşlaşmasından söz açmışdır:

– *"Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır".*[3]

– *"Lakin onu (Quranı) başa düşməsinlər deyə, onların ürəklərinə pərdə çəkdik".*[4]

– *"Allah kafirlərin ürəklərini belə möhürləyər".*[5]

– *"Onların qəlbləri sərtləşmişdir. Onların çoxu (Allaha asi olan) fasiqlərdir!"*[6]

Bütün bu təkidlər göstərir ki, Quran insan üçün ali mənəvi bir mühitin olmasını qəbul edir və hər bir kəsin bu mühiti pak və sağlam qoruyub saxlamasını zəruri hesab edir. Bundan əlavə, sağlam olmayan ictimai mühitdə fərdin pak qalmaq istiqamətindəki səyləri əksər hallarda nəticəsiz və səmərəsiz olduğu üçün, Quran insanların bütün səylərini ictimai mühitin saflaşdırılmasına və təmizlənməsinə yönəltmələrini təkid edir. Quran aşkar şəkildə vurğulayır ki, bütün eşq, iman, baxış və yüksək meyillər, eləcə də Qurandan təsirlənmələrin, ondan ibrət götürmələrin və sairənin hamısı insan və cəmiyyətin rəzalətlərdən, alçaqlıqlardan, nəfsi istəklərə əsirlikdən və şəhvətpərəstlikdən uzaq olmasından asılıdır.

---

[1] əl-Mutəffifin, 14
[2] əs-Saff, 5
[3] əl-Bəqərə, 7
[4] əl-Ənam, 25
[5] əl-Əraf, 101
[6] əl-Hədid, 16

## Əndəlus faciəsi

Bəşəriyyətin tarixindən belə məlum olur ki, cəmiyyətləri öz hakimiyyətləri altında saxlamaq və onları istismar etmək istəyən qüdrət sahibləri cəmiyyətin ruhunu, mənəviyyatını korlamağa çalışırlar və bu məqsədlə insanların şəhvətpərəstliklə asan məşğul ola bilmələrinə daha çox şərait yaradır, onları şəhvətpərəstliyə sövq edirlər. Bu çirkin əməlin ən ibrətamiz nümunəsi renessansın mənbələrindən hesab edilən və avropanın ən mütərəqqi sivilizasiyalarından sayılan müsəlman İspaniyasında müsəlmanların başına gələnlərdir. Xaçpərəstlər İspaniyanı müsəlmanların əlindən çıxarmaq üçün müsəlman gənclərin mənəviyyatını və əxlaqını korlamaq, pozmaq istiqamətində fəaliyyətə başladılar. Bacardıqları qədər eyş-işrət, şəhvətpərəstlik vasitələrini çox asanlıqla müsəlmanların ixtiyarında qoydular. Onlar bu işdə o qədər irəlilədilər ki, hətta yüksək vəzifəliləri və dövlət rəsmilərini də aldatdılar, çirkaba bulaşdırdılar. Beləliklə də, onların əzm və iradəsini, qüdrət və şücaətini, iman və pak mənəviyyatlarını məhv edə və onları həqir, alçaq, zəif, şəhvətpərəst, içki içən və qadın düşkünü insanlara çevirə bildilər. Belə insanlara qalib gəlməyin elə də çətin olmadığı aydın bir məsələdir. Xaçpərəstlər müsəlmanların İspaniyaya 300-400 illik hakimiyyətinin intiqamını onlardan elə acı şəkildə aldılar ki, həmin cinayətləri açıqlamağa tarix belə xəcalət çəkir. Həzrət İsanın (ə) "təlim"lərinə əsasən, sağ üzlərinə sillə vurduqda sol üzlərini qabağa verməli olan bu xaçpərəstlər Əndəlusda müsəlmanları qətlə yetirərək qan dəryası yaratdılar və bu ağır cinayətləri ilə Çingizxanın üzünü ağartdılar. Əlbəttə, müsəlmanların məğlubiyyəti onların süstlüyünün və mənəviyyatlarının pozulmasının nəticəsi, Quran və onun göstərişlərinə əməl etməmələrinin cəzası idi.

Yaşadığımız dövrdə də istismarçı qüvvələr hara ayaq basırlarsa, Quranın xəbərdarlıq etdiyi bu məsələ üzərində dayanır, yəni qəlbləri korlamağa çalışırlar. Qəlblər korlandıqdan sonra ağıl nəinki bir iş görə bilmir, hətta özü insanın əl-ayağında böyük bir zəncirə çevrilir. Buna görə də, görürük ki, insan istismarçıları məktəb və universitet açmaqdan çəkinməməklə yanaşı, hətta özləri də məktəb və universitetlərin təsisində irəli düşürlər. Bundan sonra var qüvvələri ilə şagird və tələbənin qəlbini, ruhunu, mənəviyyatını korlamağa çalışırlar. Onlar çox gözəl bilirlər ki, xəstə qəlb və ruh heç bir iş görə bilməyib, hər bir alçaqlığa, istismara, talana razı olacaq.

Quran cəmiyyətin ruh və mənəviyyatının tərəqqi və paklığına çox əhəmiyyət verir. Ayələrdən birində buyurur:

– *"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə birbirinizə kömək göstərməyin".*[1]

Yəni əvvəla xeyir və yaxşı işlərin arxasınca gedin, şər və çirkin işlərə yaxın durmayın, ikincisi, yaxşı işi kollektiv şəkildə yerinə yetirin, tək etməyin.

Qəlb barəsində mövzunu gözəl tamamlamağımız üçün bir neçə söz də həzrət Peyğəmbərin (s) və imamların (ə) dilindən nəql edəcəyik. Tarix kitablarında yazırlar ki, bir gün bir kişi həzrət Peyğəmbərin (s) yanına gəlib dedi: "Bir neçə sualım var, onları soruşmaq istəyirəm". Həzrət Peyğəmbər (s) buyurdu: "Sualının cavabını eşitmək istəyirsən?" Həmin şəxs: "Siz cavabı buyurun", – dedi. Həzrət Peyğəmbər (s) buyurdu: "Sən yaxşılıq və pisliyin mənasını soruşmağa gəlmisən". Kişi dedi: "Bəli, sualım bu idi". Həzrət Peyğəmbər (s) üç barmağını birləşdirib, yavaşca həmin kişinin sinəsinə toxunduraraq buyurdu: "Bunu öz

[1] əl-Maidə, 2

qəlbindən soruş". Sonra buyurdu: "İnsanın qəlbi elə yaradılmışdır ki, onun yaxşılıqlarla bağlılığı var. O, yaxşılıqlarla rahatlıq tapır, pisliklərdən isə narahat olur". İnsanın bədəninə ona uyğun gəlməyən bir şey daxil edildikdə orqanizmin fəaliyyət sistemini pozduğu və müxtəlif orqanlarının işini qarışdırdığı kimi, insanın ruhu da nalayiq işlər nəticəsində sistem pozğunluğuna və narahatlıqlara məruz qalır. Vicdan əzabı adlandırılan şey də elə ruhun pisliklərlə uyuşmamasından yaranır.

Buyurur ki, *"nəzər sahibləri əksinə nəzər versələr belə, həqiqi nəzəri öz qəlbindən soruş".* Mövlana bu hədisi nəzmə çəkmişdir (məzmunu): *"Həzrət Peyğəmbər (s) buyurdu ki, "Öz daxilindən kənarda olan nəzər bildirsə də, sən qəlbindən soruş".*

Yaxud başqa bir şeirdə belə deyir (məzmunu): *"Həzrət Peyğəmbərin (s) "nəzər bildirən artıq danışsa da, sən hökmü qəlbindən soruş", – kəlamına qulaq as.*

Həzrət Peyğəmbər (s) bu məsələ üzərində dayanır ki, əgər insan həqiqəti axtarsa və həqiqətin üzə çıxması üçün özünü bitərəf tutsa, qəlbi heç vaxt ona xəyanət etməz və onu doğru yola istiqamətləndirər. Ümumiyyətlə, insan nə qədər ki sədaqətlə haqqı, həqiqəti axtarır və haqq yolda addımlayır, onun qarşısına çıxan hər şey həqiqətdir. Əlbəttə, bu, incə bir məsələdir ki, çox vaxt onu səhv salırlar. İnsanın azğınlığa düçar olmasının səbəbi onun əvvəldən xüsusi istiqamət götürməsi və əsl həqiqəti axtarmamasıdır. Həzrət Peyğəmbər (s) "yaxşılıq nədir?" – soruşan şəxsin cavabında buyurur ki, əgər sən, doğrudan da, yaxşılıq axtarırsansa, bil, qəlbinin rahatlıq tapdığı və vicdanının rahat olduğu şey yaxşılıqdır. Amma bir şeyə meylin olduğu, lakin qəlbin rahat və sakit olmadığı yerdə, bil ki, o, pislikdir.

Digər bir yerdə həzrət Peyğəmbərdən (s) imanın mənasını soruşurlar. Həzrət Peyğəmbər (s) buyurur: "Pis iş gö-

rən zaman narahat və peşman olan, yaxşı iş gördükdə sevinib şad olan şəxsin imandan payı var".

İmam Sadiqin (ə) belə buyurduğu nəql edilmişdir: "Mömin dünyaya bağlılıq giriftarlığından qurtulduqdan sonra[1] öz qəlbində Allahla dostluğun şirinliyini hiss edir. Bu vaxt yer üzü ona, sanki, kiçik gəlir və o, bütün varlığı ilə bu maddi aləmdən qurtulmaq və xaric olmaq istəyir". Allah övliyaları və ilahi şəxsiyyətlər öz həyat tərzləri ilə bu həqiqətin doğruluğunu isbat etmişlər. Həzrət Peyğəmbərin (s) həyat tarixində belə yazılır: Bir gün həzrət Peyğəmbər (s) sübh namazından sonra "Siffə əhli"nin yanına gedir. "Siffə əhli" dünya malından heç nəyin sahibi olmayan yoxsul insanlar idilər. Onlar günlərini Mədinədə Peyğəmbər (s) məscidinin kənarında keçirirdilər. Həzrət Peyğəmbərin (s) gözü onlardan adı Zeyd və ya Haris ibn Zeyd olan birinə sataşır. Onun çox zəif və dərdli halda olduğunu, gözlərinin batdığını müşahidə edir. Ondan "necəsən?" — deyə soruşur. Həmin şəxs deyir: "Səhəri yəqin etmiş halda açmışam". Həzrət Peyğəmbər (s) buyurur: "Çox böyük şey iddia edirsən, yəqininin əlaməti nədir?" Zeyd: "Yəqinimin əlaməti budur ki, gecələr yuxum çəkilmişdir, gündüzlər həmişə oruc oluram və gecə səhərə kimi dayanmadan ibadət edirəm", — deyir. Həzrət Peyğəmbər (s) buyurur: "Kifayət deyil, yenə de". O da digər əlamətləri sadalamağa başlayaraq deyir: "Ey Allahın Peyğəmbəri, mən indi elə bir haldayam ki, sanki, Cənnət və Cəhənnəm əhlini görürəm, səslərini eşidirəm. Əgər mənə icazə versən, səhabələrinin hamısının bir-bir batinini sənə deyərəm". Həzrət Peyğəmbər (s): "Sakit, sakit! Daha bundan artıq demə. De görüm arzun nədir?" — deyə buyurur. Zeyd deyir: "Allah yolunda cihad etməyi arzulayıram".

[1] Biz "Nəhcül-bəlağəyə bir baxış" kitabında İslamın dünyaya bağlılıqla dünyaya meyil arasında fərq qoyduğunu izah edib qeyd etmişik.

Quran qəlbi cilalamağın insanı belə bir məqama çatdırdığını buyurur. Həzrət Əmirəl-mömininin (ə) dili ilə desək, əgər onun gözünün qarşısından pərdələr kənara çəkilsə, yəqininə bir şey artmaz. Quranın öz təlimlərindən nəzərdə tutduğu şey həm elm və ağıl, həm də qəlb silahından bəhrələnən və bunların hər ikisini ən yaxşı üsul ilə, ən yüksək səviyyədə haqq yolunda işlədən insanlar yetişdirməkdir. Bunun ən bariz, ən canlı nümunələri bizim məsum imamlarımız (ə) və onların həqiqi şagirdləri olmuşlar.

# Quranla Tanışlıq

## II KİTAB

# Həmd Surəsi

*“Rəhman və Rəhim Allahın adı ilə. Həmd olsun Allaha – aləmlərin Rəbbinə. Rəhman və Rəhim olana. Haqq-Hesab gününün sahibinə! Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik! Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!”*

*(Həmd surəsi, 1-7)*

# Həmd surəsinin təfsiri

Quranın kitab şəklində yazılmağa başladığı vaxtdan Bəraət (ət-Tövbə) surəsi istisna olmaqla, bütün surələrin əvvəlində "Bismillahir-Rəhmanir-Rəhim" olmuşdur. Yəni Bəraət (ət-Tövbə) surəsindən başqa bütün surələr "Bismillah"la başlayır. Lakin uzun zamandan bəri şiələrlə sünnilər arasında bu ayənin bütün surələrdə surənin ayələrindən biri olub-olmaması barədə böyük fikir ayrılığı mövcud olub. Əhli-sünnə onu heç bir surənin tərkib hissəsi hesab etmir və hər bir surənin "Bismillah"la başlanmasına hər bir işə "Bismillah"la başlamaq kimi baxır; Əslində "Bismillah" həmin işin tərkib hissəsi deyil. Onlar bəzən surələri də "Bismillah"sız oxumağa başlayırlar. Namazda Həmd surəsini, yaxud Həmddən sonra oxumaq istədikləri hər hansı bir surəni "Bismillah"sız oxuyurlar.

Şiələr isə Əhli-beyt imamlarına (ə) tabe olaraq qəti surətdə bu məsələyə qarşı çıxırlar. Hətta məsum imamlardan (ə) belə bir hədis də var ki, Allah Quranın ən böyük və əzəmətli ayələrindən olan ayəni Qurandan çıxaranları öldürsün. Əgər "Bismillah"ı surələrin əvvəlindən götürsək, Quranda ən-Nəml surəsində olan "Bismillah"dan başqa "Bismillah" qalmır. Onu da Quran Səba hökmdarının di-

lindən söyləyir. O, Süleymanın məktubunu oxuyarkən belə deyir: *"O məktub Süleymandandır və o "Bismillahir-Rəhmanir-Rəhim"lədir (Bismillahla başlanır)".*[1]

Hər halda şiələr qətiyyətlə "Bismillahı" Quranın tərkib hissəsi hesab edir, Qurandan ayrı – hər bir işin əvvəlində "Bismillah" deyildiyi kimi, Quran oxuyan zaman da bu ayəni kənardan ona artırılmış kimi hesab etmirlər.[2]

---

[1] ən-Nəml, 30

[2] Şiələr yuxarıdakı mövzuda yekdil fikirdədirlər. Amma əhli-sünnə arasında bu barədə fikir ayrılığı var. Onların bəzisi şiələrin nəzərini qəbul edir, bəzisi tamamilə inkar edir, bəziləri isə surələr arasında fərq olduğuna inanırlar.

İbn abbas, İbn Mübarək, Asim, Kəsai, İbn Ömər, İbn Zübeyr, İbn Hüreyrə, Əta, Tavus, həmçinin İmam Fəxr Razi "əl-Kəbir" təfsirində, Süyuti "əl-İtqan"da bu barədə olan hədislərin mütəvatir olduğunu qeyd edərək, "Bismillah"ın surələrin bir hissəsi olması nəzəriyyəsinə tərəfdar çıxmışlar.

Bəziləri, məsələn, Malik, Əbu Əmr, Yəqub və digərləri isə "Bismillah"ın heç bir surənin tərkib hissəsi olmadığını və sadəcə surələrin əvvəlində təbərrük – xeyir-bərəkət üçün nazil olduğunu, həmçinin surələrin bir-birindən ayrılması üçün olduğunu bildirmişlər.

Şafiilərin bəziləri və Həmzə surələr arasında fərq olduğuna inanır və "Bismillah"ın təkcə Həmd surəsində surənin tərkib hissəsi olduğunu, digər surələrdə isə surənin tərkibində olmadığını deyirlər.

Əhməd ibn Hənbəl barədə bəziləri (Təfsiru İbn Kəsir, c. 1, s. 16) onun birinci nəzərə inandığını, bəziləri (Təfsiru Alusi, c. 1, s. 39) isə surələr arasında fərqin olması nəzərinə inandığını söyləmişlər.

Bu ayənin namazda oxunması barədə isə əhli-sünnə fəqihlərinin nəzərləri belədir:

1. Hənəfilər: camaat namazında imam, tək qılınarkən isə şəxsin özü "Bismillah" ayəsini yavaşdan deməlidir.
2. Malikilər: vacib namazlarda "Bismillah"ı demək məkruhdur.
3. Şafiilər: "Bismillah" "əl-Fatihə" surəsinin bir hissəsidir və onun deyilməsi vacibdir.
4. Hənbəlilər: "Bismillah" demək sünnədəndir, amma "əl-Fatihə"nin ayələrindən deyil. (Bu nəzərlər "Dörd məzhəbin fiqhi" kitabından ixtisarla qeyd edilmişdir.)

Lakin şiələr yekdilliklə Əhli-beyt imamlarından (ə) nəql edilmiş hədislərə, eləcə də müsəlmanların davranışına, yəni "Bismillah"ı Quranda yazmalarına istinad edərək onun surələrin bir hissəsi olduğuna, eləcə də namazda oxunmasının vacibliyinə inanırlar. Bu barədə olan hədislərə "Füruul-kafi", səh. 86; "İstibsar", c. 1, səh. 311; "Təhzib", səh. 152; "Vəsail", c. 1, səh. 352-də diqqət yetirə bilərsiniz.

## İşlərə Allahın adı ilə başlamaq

Bildiyiniz kimi, sözügedən ayə ümumilikdə önqoşma və tamamlıqdan ibarətdir və cümlə tam deyil. Həmin ön qoşma və tamamlığın əlaqələndiyi və aid olduğu xəbər qeyd edilməmişdir.[1] Təfsirçilər həmin xəbərin nədən ibarət olması barədə müxtəlif nəzərlər irəli sürmüşlər. Bu barədə "kömək istəyirəm", "başlayıram", "əlamət qoyuram" kimi ehtimallar irəli sürülmüşdür. Bu ehtimallardan sonuncusu daha güclü ehtimal kimi görünür.

Adqoyma məsələsində hədəf və maraqlar müxtəlif olur. Bəzən insan müəyyən bir şəxsin adı sayəsində nəzərdə tutduğu maddi məqsədə çatmaq üçün hansısa bir müəssisəyə o şəxsin adını verir. Yaxud da ənənəyə görə yeni doğulmuş körpəyə vəfat etmiş sevimli bir şəxsin adını verir və həmin vəfat etmiş şəxsin bu adqoyma ilə yenidən həyat sürməsini, bu adın yaşaması ilə onun da yaşamasını istəyirlər.

Bəs insana işlərə Allahın adı ilə başlamaq göstərişi verilməsinin səbəbi nədir? Səbəb insanın işlərinin müqəddəsləşməsi, ibadət xarakteri daşıması və Onun adı ilə bərəkətlənməsidir.

İnsan öz fitrəti ilə Allahı hiss edir və Onu müqəddəs bir varlıq, bütün xeyirlərin mənbəyi bilir. İnsanın öz işlərini Allahın adı ilə adlandırmasının mənası həmin əməlin Onun müqəddəsliyi, ucalığı və kərəmi sayəsində müqəddəsləşməsidir.

Birinin işə Allahın adı ilə başlamasının mənası həmin şəxsin Onu müqəddəs, bütün nöqsanlardan pak və uzaq, bütün kamilliklərin mənbəyi olan bir varlıq bilərək, əməlini

---

[1] *"Bismillahir-Rəhmanir-Rəhim",* – cümləsindəki *bi* (ilə) önqoşması və önqoşmadan sonra işlənən tamamlıq nəzərdə tutulur. Müəllif ayədə (*"Rəhman və Rəhim Allahın adı ilə"*.) qeyd edilməmiş, lakin nəzərdə tutulan xəbərdən söz açır. – Red.

Ona mənsub edib bərəkətləndirmək istəməsidir. Buna görə də işləri heç kəsin, hətta həzrət Peyğəmbərin (s) adı ilə də başlamaq olmaz. Əl-Əla surəsinin başlanğıcında Allahın adının pak və müqəddəs tutulması da bu mənanı ifadə edir.

Quranda Allahın paklıqla, müqəddəsliklə yad edilməsi mənasını ifadə edən "Allahı müqəddəs bilmək" və ya "Allah üçün müqəddəs bilmək", yaxud "Allah pak və müqəddəsdir" kimi ifadələr çoxdur. Amma Allahın adının pak və müqəddəs tutulması barədəki ayə yalnız əl-Əla surəsinin əvvəlindədir və həmin ayədə buyurulur: *"Ən uca olan Rəbbinin adını pak (müqəddəs) tutub şəninə təriflər de!"*

Burada ən yaxşı nəzərin əl-Mizan təfsirinin müəllifinin nəzəri olduğu düşünülür. O deyir: "Allahın adının pak və müqəddəs tutulmasının mənası budur ki, müqəddəsləşdirmə və ehtiram məqamında məxluqun adı Allahın adı ilə bir sırada qoyulmamalı, yaxud Allahın adı çəkilməli olan yerdə başqa varlığın adı çəkilməməlidir. Yəni nə Allahın adı ilə yanaşı başqasının adı, nə də Allahın adının yerinə, başqasının adı çəkilməməlidir və bunların hər ikisi şirkdir".[1]

Son zamanlar şirklə mübarizədən dəm vuran dəstələr arasında özü şirkin nümunəsi olan bir əməl yayılmışdır. İşləri Allahın adı ilə adlandırmaq və başlamaq əvəzinə, "xalqın adı ilə!" ifadəsi işlədirlər. Əgər həzrət Peyğəmbərin (s) adının Allahın adı ilə birgə çəkilməsi şirkdirsə, xalqın adı ilə başlamaq da Allah üçün canişin təyin etməkdir. Allahın adının həmişə pak və müqəddəs tutulması və insanların işlərinin başqası deyil, məhz Allahın adı ilə adlandırılması Quranın göstərişidir. Bu yolla insanın əməli müqəddəsləşir və Onun sayəsində bərəkətli olur.

[1] *Şirk* – Hər hansı bir varlığı Allahla bərabər tutmaq, Allaha şərik qoşmaq – Red.

## *Allah*

"Allah" sözü Allah-taalanın adlarından biridir. Şəxsin və ya əşyaların adlandırılması bəzən əlamət, bəzən isə vəsf xarakterlidir. Birinci növ adqoymada adların özlərinin mənaları olsa da, məqsəd onların mənaları olmur və ad yalnız onu başqalarından seçmək, ayırd etmək üçün qoyulur, buna görə də yalnız əlamət hökmündə olur. Bu kimi hallarda bəzən adın mənası həmin ad sahibinin xüsusiyyətlərindən xəbər verməməkdən əlavə, bəzən bunun əksi də olur. Məsələn, bəzən qara zəncilərin adını Kafur qoyurlar.[1]

İkinci adqoymada isə ad, ad sahibinin hansısa xüsusiyyətindən xəbər verir.

Allah-taalanın sırf əlamət olan adı yoxdur və Onun bütün adları müqəddəs zatının həqiqətlərindən birinin göstəricisidir.

Qurani-kərimdə Allahın təqribən yüz adı qeyd edilmişdir ki, əslində onlar yüz sifət və xüsusiyyətdir. Siz onların bəzisini bu surədə müşahidə edirsiniz: Allah, Rəhman, Rəhim, Maliki yaumiddin. Lakin bu adların heç biri "Allah" adı qədər geniş əhatəyə malik deyil. Çünki bunların hər biri Allahın kamillik xüsusiyyətlərindən birini göstərir. "Allah" adı isə bütün kamillik sifətlərini özündə cəm edən zatın göstəricisidir.

"Allah" sözü, əslində "əl-ilah" olmuş və sözün çox işlədilməsi nəticəsində onda olan "həmzə"(burada: "i" saiti – Red.) atılmışdır.

"Allah" sözünün kökü barədə bir neçə nəzər mövcuddur. Bəziləri onun "ələhə" sözündən düzəldiyini, bəziləri isə "vələhə" sözündən düzəlmə söz olduğunu deyirlər. "Fial" modelində olan "ilah" sözü isə passiv növün feli sifəti (üzə-

[1] Kafur sözünün lüğəvi mənası "ağ"dır. – Tərc.

rində iş icra edilən obyekt) mənasındadır, necə ki, "kitab" sözü "məktub" (yazılmış) mənasını ifadə edir.

Əgər bu söz "ələhə", yəni "əbədə" (ibadət etmək) sözündən düzəlmə olsa, "Allah"ın mənası bütün cəhətlərdən kamil olan ibadətə layiq zat olur. Çünki başqası tərəfindən yaradılan və ya hansısa naqisliyi olan varlıq ibadətə layiq deyil. Buna görə də "əl-ilah"ın mənası ibadət edilməsi gərəkli olan zat deməkdir və təbii olaraq, bütün kamillik sifətlərini özündə cəm etmiş və hər bir nöqsandan pak və uzaq ola zat mənaları da həmin sözdə gizlənmiş olur.

Amma bu söz "vələhə" sözündən düzəlmiş olsa, "vələhə"nin mənası "heyran olmaq"dır. "Valeh"in mənası isə heyran və ya aşiq, vurğun olandır. Allah-taalaya ona görə Allah deyilir ki, ağıllar Onun müqəddəs zatı önündə heyrandır, yaxud Ona üz tutmuşdur, Ona aşiqdir, Ona sığınırlar.

Sibəveyh ərəb qrammatikasının sərf və nəhv (morfologiya və sintaksis) alimlərindən olmuş və hicri təqvimi ilə ikinci əsrin sonu, üçüncü əsrin əvvəllərində yaşamışdır. Sibəveyh öz sahəsində çox dahi bir şəxsiyyət olmuş və onun "əl-Kitab" adı ilə məşhur olan əsəri ərəb qrammatikası sahəsində məntiqdə Aristotel "Məntiq"i, astronomiyada Ptolomeyin (Batlamyus) "Almagest" əsəri kimi hesab edilir. Ərəb ədəbiyyatında Sibəveyhin sözü dəlil sayılır. Sibəveyh "Allah" sözünün kökünün mənasının əzəmət müqabilində heyranlıq və ya valeh olmaq və eşq mənasında olan "vələhə" sözü olması nəzərinin tərəfdarlarındandır.

Mövlana Cəlaləddin Rumi Məsnəvidə onun nəzərini nəql edərək belə deyir (məzmunu): *"Sibəveyh dedi ki, "Allah" sözünün mənası insanların ehtiyaclarında pənah apardığıdır. Dedi: "Biz ehtiyaclarımızda Sənə pənah gətiririk və onu axtarıb Sənin hüzurunda tapırıq".*

Mövlana insanın bir dərdə düşüb əlacsız qaldığı və özündən ixtiyarsız bir nöqtəyə üz tutub ona sığındığı halı

xatırladır və O, Allahdır (məzmunu): *"Yüz minlərlə ağıl sahibinin hamısı dərd içində olduqda onlar mütləq qüdrət sahibinin hüzurunda fəğan edirlər. Hətta bütün balıqlar dalğalar içində və bütün quşlar yüksəkliklərdə. Hətta bütün dalğalar rəqs edərək eşq-məhəbbətini aşkar edir".*[1]

Ehtiyac zamanı Ona üz tutan təkcə insanlar deyil. Dənizdə olan balıqlar dalğaların arasında, quşlar səmanın yüksəkliklərində, hətta həmin cansız dalğaların özü də Allahın hüzurunda inləyirlər.

"Ələhə" və "vələhə" sözlərinin eyni sözün iki deyiliş forması olması ehtimalı da var. Yəni əvvəl "vələhə" olmuş, sonra isə "ələhə" kimi işlənmişdir. Bu sözü "ələhə" kimi tələffüz etdikdə də onun "ibadət" mənası yaranmışdır. Beləliklə, "Allah" sözünün mənası belə olur: Bütün varlıqların özlərindən xəbərsiz valeh olduqları zat, ibadətə layiq yeganə həqiqət.

"Allah" sözünün tərcüməsi: Fars dilində,[2] demək olar ki, Allah sözünün sinonimi olacaq və onun yerinə qoyula biləcək bir söz yoxdur və heç bir söz onun tam mənasını ifadə etmir. Çünki əgər "Allah" sözünün yerinə "Xuda" sözünü işlətsək, yetərli olmayacaq. Çünki Xuda sözü "xod ay" ifadəsinin tələffüzü asanlaşdırılmış formasıdır. Bu, filosofların işlətdikləri "vacibəl-vücud" (mütləq varlıq) ifadəsinin mənasını əks etdirir və Allah sözündən çox Quranda gəlmiş "Ğəniyy" (zatən qəni və ehtiyacsız olan) sözünə daha yaxındır. Əgər Allah sözünün yerinə "Xudavənd" sözü işlədilsə, yenə də yetərli olmayacaq. Çünki Xudavənd sözünün mənası "sahib" deməkdir. Doğrudur, Allah həm də Xudavənddir, amma Allah sözü Xudavəndin sinonimi deyil. "Xudavənd" (sahib) olmaq Allahın işlərindən biridir.

---

[1] Məsnəvi, Kəlalə Xavər çapı, s. 34, beyt 37

[2] Müəllif çıxışını fars dilində etdiyi üçün müqayisələr fars dilində aparılır. – Red.

## *Ər-Rəhmanir-Rəhim*

Bu iki ifadənin də yerinə fars dilində onların tam dəqiq tərcüməsi olan söz tapmaq mümkün deyil. Onun, adətən, tərcümə edilən "Bağışlayan və Mehriban" variantı kamil tərcümə deyil. Çünki bağışlayan "Cavad" sözünün tərcüməsidir, mehriban isə "Rauf" sözünün və bunların hər ikisi Allahın Quranda gəlmiş sifətlərindəndir.

"Cavad" (bağışlayan) sözünün mənası bir şeyə malik olub onu əvəzsiz başqalarına bağışlayandır. Amma Rəhman və Rəhim sözlərinin hər ikisi "rəhmət" sözündən düzəlmişdir. "Rəhmət" sözündə digər bir məna da gizlənir:

Hər hansı bir varlığın bir şeyə ehtiyacı olduqda o, dillə, yaxud müvafiq görkəmi, halı ilə əl uzadıb bir şey istəyir. Belə olan halda o, mərhəmət edilməyə, bir şey verilməyə layiqdir. Bu kimi məqamlar rəhmətdir. Amma insanın ehtiyacı olana mərhəməti o vaxt həyata keçir ki, insan onun halının təsiri altına düşərək qəlbi riqqətə gəlir. Lakin Allah-taala bu kimi işlərdən pak və uzaqdır.

Buna görə də biz Rəhman və Rəhim dedikdə zehnimizdə iki məna yaranır. Onlardan biri məxluqların böyük ehtiyacıdır. Sanki, bütün varlıqlar Onun ehtiyacsız dərgahına əl uzadıb yalvarırlar. Digəri isə Onun Öz sonsuz rəhmətini onlara tərəf göndərməsi və onların ehtiyaclarını təmin etməsidir.

Buna görə də müasir mütərcimlərin bəziləri heç bir sözün bu sözlərin mənalarını yetərincə ifadə etmədiyini görüb, "Bismillahir-Rəhmanir-Rəhim" ayəsini "Rəhman və Rəhim Allahın adı ilə" formasında tərcümə etmişlər.

Rəhman ilə Rəhimin fərqi nədir? İlk öncə qeyd etmək lazımdır ki, ərəb dilində "fə`lan" modelində olan sözlər çoxluğu bildirirlər. Məsələn, "ətşan" sözü "ətəş"in (susuzluğun) çoxluğu mənasındadır. "Fəil" modelində olan və

terminologiyada "sifəti-müşəbbəhə" adlanan sözlər isə bir növ sabitlik və davamlılığı çatdırırlar.[1]

"Fə`lan" modelində olan Rəhman sözü çoxluğu, genişliyi ifadə edir və Haqqın rəhmətinin hər yerə yayıldığı və hər bir şeyi əhatə etdiyini göstərir.

Ümumiyyətlə, hər bir şeyin mövcud olması Haqqın rəhməti ilə bağlı və mütənasibdir. Çünki mövcud və var olmaq eyni ilə rəhmətdir. Əl-Əraf surəsində buyurulur: *"Mərhəmətim hər bir şeyi əhatə etmişdir".*[2] Həmçinin Kumeyil duasında belə oxuyuruq: "Səni and verirəm hər şeyi əhatə etmiş mərhəmətinə..."

Allahın bu növ rəhməti istisnasızdır. Məsələn, insanlara şamil olub, amma insanlardan qeyrilərinə şamil olmaması, yaxud insanlardan yalnız möminlərə şamil olması şəklində deyil. Allahın rəhmanlığı varlıq aləminin hamısını əhatə edir, yaxud hər bir şey Onun rəhmanlığının özüdür, yəni varlıq aləmində nə varsa, Allahın rəhmətidir.

"Bismillahir-Rəhmanir-Rəhim" cümləsindən öyrənilə biləcək dərs budur: Allahdan aləmə yetişən şey iki cür – xeyir və şər şəklində deyil. Əksinə, Ondan yalnız gözəllik və rəhmət gəlir və bu rəhmət bütün cansız əşyalara, bitkilərə, heyvanlara, insanlara və onların istisnasız bütün növlərinə şamildir. Varlığın başlanğıcı, açılışı Allahın rəhməti ilədir.

---

[1] Qeyd edilən "fə`lan" və "fəil" modelindəki sözlər dilimizdə olan bəzi feli sifətlərə uyğun gəlir. Belə ki, ərəb dilində "fə`lan" modelində olan və "ismi-mübaliğə" adlanan – çoxluq və genişlik bildirən – sözlərin Azərbaycan dilindəki ekvivalenti, feil köklərindən xasiyyət, vərdiş bildirən sifətlər düzəldən *-ağan, -əyən* şəkilçisidir; məsələn: *ağlağan* (uşaq), *küsəyən* (adam) və s. Eləcə də "fəil" modelində olan və "sifəti-müşəbbəhə" adlanan – sabitlik və davamlılıq bildirən – sözlərin Azərbaycan dilindəki ekvivalenti isə feillərdən daimi keyfiyyət bildirən sifətlər düzəldən *-ar, -ər* və *-maz, -məz* şəkilçiləridir; məsələn: *axar* (su), *gülər* (üz), *unudulmaz* (qəhrəman), *yenilməz* (ordu) və s. – Red.

[2] əl-Əraf, 156

"Fəil" modelində olan "Rəhim" sözü isə Allahın daimi və ardı-arası kəsilməyən rəhmətini ifadə edir. "Rəhman" sözü Allahın rəhmətinin genişliyinə dəlalət edir və bütün varlıqlara şamildir. Amma bu aləmdə bir sıra varlıqlar vücuda gəldikdən sonra yox olur, fənaya uğrayırlar. "Rəhim" isə əbədiliyi olan bir rəhmətdir və təkcə iman və saleh əməl vasitəsi ilə özünü Allahın xüsusi rəhmətinin bol olduğu yola istiqamətləndirmiş bəndələrə şamil olur.

Deməli, Allahın bir ümumi, bir də xüsusi rəhməti var. O Özünün ümumi rəhməti ilə bütün varlıqları yaratmışdır ki, onlardan biri də insandır.

İnsan, üzərinə vəzifə düşən yeganə varlıqdır və o özünə görə məsuliyyət daşıyır. Əgər o, öhdəsinə qoyulmuş vəzifələri yerinə yetirsə, Allahın xüsusi rəhməti ona da şamil olacaq. "Rəhman" hər yeri əhatə etmiş və şamil olmaq baxımından möminlə kafir, hətta insanla cansız əşyalar, bitkilər, heyvanlar arasında fərq qoymayan hesabsız rəhmətə işarədir, "Rəhim" isə itaətkar və ilahi fərmanlar qarşısında tabeçilik nümayiş etdirən insanlara məxsus xüsusi rəhmətdir.[1]

### *Əlhəmdu lillah*

Burada da qeyd etmək lazımdır ki, fars dilində "həmd" sözünün tərcüməsi olacaq bir söz yoxdur. Əlbəttə, ərəb dilində "həmd"in mənasına yaxın olan iki söz var ki, onların fars dilində ekvivalenti mövcuddur və adətən, "həmd" sözünün tərcüməsində onlardan istifadə edilir. Onlardan biri fars dilində ekvivalenti "sitayiş" (öymək, tərif etmək)

[1] "Rəhman" ilə "Rəhim"in fərqinə hədislərdə belə işarə edilmişdir. İmam Sadiq (ə) öz mübarək kəlamlarının birində buyurur: "Allah hər bir şeyin tanrısıdır, bütün yaratdıqlarına münasibətdə Rəhman, yalnız möminlərə münasibətdə isə Rəhimdir". (Kafi; Tövhid, Səduq; Təfsiru Əyyaşi) Bu hədisdə "Rəhman" sözü Allahın bütün varlıqlara rəhmətinin, "Rəhim" isə yalnız möminlərə məxsus rəhmətin göstəricisi kimi təqdim edilmişdir.

sözü olan “mədh” sözüdür, digəri isə “sepas” (təşəkkür bildirmə) kimi tərcümə edilən “şükür” sözüdür. Lakin bunların heç biri ayrı-ayrılıqda “həmd”in mənasını ifadə etmir.

“Mədh” sözü “həmd” sözünə yaxındır, hətta bəzilərinin böyük ehtimalına əsasən, bunlar eyni kökdən götürülərək fərqli tələffüz edilən sözlərdir. Ərəb dilində buna bənzər nümunələr çoxdur. Misal üçün, “xuls” və “luxs”, həmçinin “əys” və “yə`s” sözlərini göstərmək olar. Əslində, bunların hər ikisinin hərfləri eynidir, amma hərflərin yerləri dəyişilmişdir.

“Mədh” sözünün mənası sitayişdir. Sitayiş insana məxsus hisslərdəndir. Yəni insanda belə bir dərketmə və hissetmə var ki, o, kamillik və əzəmət, gözəllik və üstünlüklə qarşılaşdıqda, onda belə bir hiss yaranır və həmin şeyi tərif etmək istəyir. Heyvanda belə bir hiss yoxdur. Heyvan nə həmin kamillik və əzəməti dərk edir, nə də onu tərif etmək qüdrətinə malikdir.

Doğrudur, bu tərifetmə insanda bəzən alçaq bir formada təzahür edir ki, buna “yaltaqlıq” deyilir. Yaltaqlıq rəzil və alçaq sifətlərdən hesab edilir. Yaltaqlıq insanın həqiqəti olmayan şeyi tərifləməsidir. İnsanın Allahın həqiqi kamillik, əzəmət və gözəllikləri tərif etmək üçün verdiyi qüdrəti tamah məqsədi ilə, əsla tərifə layiq olmayan bir məxluqun haqqında sərf etməsi, həqiqətən də, çox çirkin bir əməldir. Bu qüdrət bir növ alçaqlıq olan tamahın xidmətində istifadə etmək üçün deyil, insanın o ali hissini, yəni hər hansı bir kamilliyə ehtiram və təzim hissini təmin etməsi üçündür. Həqiqi təriflərdə heç bir tamah güdülmür və bu, tam təbii və fitri bir işdir. İnsan gözəl bir işlə qarşılaşdıqda, məsələn, Baysunqurun neçə illər öncə yazdığı Quran vərəqini gördükdə, onun gözəlliyinə valeh olur və özündən asılı olmayaraq, onu mədh edir, tərifləyir. Əgər burda kimsə bizdən: “Niyə tərifləyirsən, məgər kimsə sənə bu tərif qarşılı-

ğında bir şey verəcək?" – deyə soruşsa, nə cavab verərik? Cavabımız bu olacaq: "Bəyəm kimsə nəsə verməlidir? Mən insanam və insan bir əzəmət, böyüklük, gözəllik və kamilliklə qarşılaşdıqda istər-istəməz onun qarşısında baş əyir və öz təzimini tərif vasitəsi ilə büruzə verir". "Mədh" sözünün mənası budur. Amma "həmd"in mənası təkcə bu deyil.

İnsanda başqa bir pak duyğu da var. O da insanın üstünlüklərindən hesab edilir. Həmin duyğuya "təşəkkür bildirmə" duyğusu deyilir. Bu "şükür" sözünün tərcüməsidir. Birinin insana bir xeyri dəyəndə insanın insanlığı onun həmin şəxsə minnətdarlıq bildirməsini tələb edir. Təsəvvür edin, bir nəfər öz maşını ilə bir yerdən keçərkən yol ayrıcında qarşısına digər bir avtomobil çıxır və yol həmin şəxsin olmasına baxmayaraq, o, dayanaraq bizə yol verir. İnsanın pak fitrətinin tələbi olan ədəb bizdən "təşəkkür edirəm" – deyərək, yaxud başımızla və ya əlimizlə işarə edərək ona minnətdarlıq bildirməyimizi tələb edir. Bu sifət də heyvanda, demək olar ki, yoxdur və insana məxsus xüsusiyyətlərdəndir. Allah-taalanın Qurani-kərimdə soruşduğu *"Məgər yaxşılığın əvəzi yaxşılıqdan qeyri bir şeydir?"*[1] sualı insanın sağlam fitrətinə ünvanlanmış və cavabı insanın pak vicdanı tərəfindən verilməli olan bir sualdır.

"Özünü tanıyan Allahını da tanıyar" kəlamı çox böyük və doğru bir sözdür. İnsanın özünü kamil surətdə tanıması Allahı tanımaqla bitən bir yoldur. İnsanı tanımağın yollarından biri insana xas olan hisslərin tanınmasıdır. Həmin hisslərdən biri də komandanı vicdan olan təşəkkür və minnətdarlıq hissidir. O, ictimai təlim-tərbiyəyə aid olmayıb, yerli adət-ənənələrdən hesab edilmir və hansısa bir bölgəyə məxsus deyil. Adət-ənənələr zaman və məkanın dəyişməsi ilə dəyişir, hətta bəzən tam zidd olur. Məsələn, papa-

[1] ər-Rəhman, 60

ğı başdan götürmək də, qoymaq da hörmət əlamətidir. Lakin bunların hər biri müəyyən bir cəmiyyətdə adətdir. Heç bir cəmiyyətdə yaxşılığa pisliklə cavab verilmir və bunun yerli adət-ənənə olması kimi izah edilmir.

Həmd nə tam mədhdir, nə də tam minnətdarlıq. Elə isə bəs nədir? Həmd bunların hər ikisinin birləşməsidir. Yəni həm əzəmət, böyüklük, gözəllik, kamillik və dəyərə malik olduğu üçün tərifə, həm də etdiyi yaxşılıqlara, bəxşişlərə görə minnətdarlığa layiq olan məqamda "həmd" sözü işlədilir.

## Həmd Allaha məxsusdur

Həmdin mənasında digər bir məfhumun, yəni ibadət məfhumunun da olması mümkündür. Deməli, həmdin mənasına eyni zamanda üç məna - sitayiş, minnətdarlıq və ibadət daxildir. Başqa sözlə desək, həmd minnətdarcasına və ibadətkarcasına bir sitayişdir. Bəlkə də, bu ayənin həmdin Allaha məxsus olması və Ondan başqa həmd edilənin olmaması mənasını ifadə etməsi həmdin mənasında ibadət mənasının da olduğuna görədir.

Təfsirçilərin yekdil nəzərinə əsasən, ayənin mənası bütün "həmd"lərin Allaha məxsus olmasıdır. Əgər "həmd" sözündə ibadətkarcasına batini təvazökarlıq mənası olmasaydı və onun mənası təkcə təşəkkür etmək olsaydı, onda nə üçün insan Allahın onun üçün yaratdığı insani vasitələr qarşısında həmd etməməlidir? Allahın insana onların vasitəsi ilə xeyir yetirdiyi məxluqlara da təşəkkür etmək və minnətdar olmaq lazımdır. Hətta: "Yaranmışa təşəkkür etməyən Yaradana şükür etməz", – deyilib. Ata-anaya, müəllimə və hər zaman insana xeyir və yaxşılıqları keçmiş bütün şəxslərə təşəkkür etmək lazımdır. Heç vaxt: "Mən Allaha şükür edirəm, bəndələrlə işim yoxdur", – bəhanəsi ilə onları yaddan çıxarmaq və etdikləri yaxşılıqlara təşəkkür

etməyi tərk etmək olmaz. Lakin bilmək lazımdır ki, şükür bir yerdə Allaha, bir yerdə isə bəndəyə edilmir. Bəndəyə təşəkkür etdikdə bunu bilmək lazımdır ki, bəndə müstəqil deyil və insana edilən yaxşılığa görə şükrə ondan əvvəl Allah layiqdir.

Deməli buradan – "həmdin Allaha məxsus olması"ndan belə məlum olur ki, onun mənası təkcə şükür deyil və onda şükürlə yanaşı, sitayiş və ibadət mənaları da gizlənir. Allahın ibadətə layiq yeganə zat olması, Rəhman və Rəhim olması səbəbindən Ona sitayiş edir, Ona şükür və ibadət edirik.

Xülasə, həmd pak, insani bir hissdir və gözəlliyi, əzəməti mədh etmək, əzəmət qarşısında təzim etmək insan ruhunun dərinliklərindən qaynaqlanır. Buna görə də Həmd surəsi Allahı tanımağı tələb edir. Yəni insan Allah barədə tam məlumata malik olmayınca, Həmd surəsini səhih və düzgün – dildə əzbərləmək formasında deyil, həqiqi mənada oxuya bilməz.

Məsələn, təsəvvür edin ki, siz çox böyük və ali mənəviyyata malik bir insanla qarşılaşmısınız, onun üstünlüklərə və mənəvi keyfiyyətlərə malik olmasının şahidi olursunuz. Ona ehtiyacınız olduqda heç nə ummadan təmənnasız sizin ehtiyacınızı aradan qaldırdığını görürsünüz. Onun sizə xeyri dəyir və siz onun ruhunun əzəməti önündə mənən təzim edirsiniz. Birdən bir məclisdə həmin şəxsin adı çəkilən kimi, siz gül qarşısında dayanmış bülbül kimi aşiqanə şəkildə onu tərifləməyə başlayır, tam səmimiyyətlə ürəkdən onu mədh edirsiniz. Bu mədh, tərifetmə sizin ruhunuzun dərinliklərindən gəlir, hətta onu tərifləməkdən zövq alır və rahatlaşırsınız.

İnsanın namazdakı halı buna bənzəyir. Dəfələrlə qeyd etmişik və əqidəmiz də budur ki, ibadət Allahı tanımağın zəruri tələbidir və Allahı tanımaq kamilləşməyincə ibadət yüksələ bilməz.

Burada diqqət edilməsi lazım olan məqamlardan biri budur ki, "Əlhəmdu lillah"dan sonra digər dörd sifət gəlir: "Rəbbil-aləmin, ər-Rəhman, ər-Rəhim və Maliki-yaumid-din". Doğrudur, bunların hər biri Allahı tanımaq üçün bir qapıdır və biz bu barədə danışacağıq.

Amma həmin sifətlər gəlməmişdən qabaq həmdi təkcə Allaha – ibadət və sitayişə layiq olan zata – məxsus etmək məqamın yüksəkliyini göstərir. Yəni O elə bir zatdır ki, Onun mənim barəmdəki işlərini və yaxşılıqlarını nəzərə almasam belə, öz elm və yaradılışımın, eləcə də geniş varlıq aləminin başlanğıc və sonuna nəzər salmasam belə, O, həmdə layiqdir və sitayiş edilməlidir.

Əlbəttə, hamı bu məqama çatmaq iddiasında ola bilməz. Belə bir iddianı həzrət Əli ibn Əbu Talib (ə) etmişdir: "İlahi! Sənə nə Cənnət tamahı ilə, nə də Cəhənnəm qorxusundan ibadət edirəm. Səni ibadətə layiq gördüyüm üçün Sənə ibadət etdim".[1]

Yəni əgər Cənnət və Cəhənnəmi yaratmasaydın da, ibadətə layiq olduğun üçün mən Sənə ibadət edəcəkdim. Sənə nə məni yaradıb mənə yaxşılıq etdiyinə görə, nə də axirətdə ibadət edənlərə Cənnət verəcəksən deyə ibadət etmirəm. Səbəb Sənin varlığın və ibadətə layiq olmağındır.[2]

Sədi deyir (məzmunu): *"Əgər gözünü dostunun sənə edəcəyi yaxşılığa dikmisənsə, deməli, dostunun deyil, öz hayındasan. Övliyaların Allahdan, Allahdan qeyri bir şey ummaları yüksəlişə aparan yola ziddir".*[3]

---

[1] Biharul-ənvar, c. 1, bab 101, səh. 14

[2] Nəhcül-bəlağədə abidlərin ibadət barəsindəki təsəvvürləri üç qrupa bölünür. Buyurur: "Bəziləri Allaha (onlara etdiyi ehsan və) yaxşılıqlarına görə ibadət edir. Bu, tacirlərin ibadətidir. Bəziləri Allaha qorxudan ibadət edir. Bu, qulların ibadətidir. Bəziləri isə Allaha şükür səbəbindən ibadət edirlər. Bu isə azad insanların ibadətidir".

[3] Bustan, Sədi

### *Rəbbil-aləmin*

“Rəbb” sözü barədə də qeyd etmək lazımdır ki, fars dilində onun ekvivalenti olacaq bir söz yoxdur. Bəzən onu “tərbiyə edən” kimi tərcümə edirlər. Amma diqqət etmək lazımdır ki, “rəbb” sözünün kökü “rəbəyə” deyil, “rəbəbə”dir. “Tərbiyəçi” sözü “mürəbbi” sözünün ekvivalentidir, “mürəbbi” sözü isə “rəbəyə” kökündən götürülmüşdür. Bəzən “rəbb” sözü “ixtiyar sahibi” kimi tərcümə edilir. Əbdülmüttəlibin də belə bir sözü var: “Mən dəvələrin (rəbbi) ixtiyar sahibiyəm, evin (Kəbənin) də öz Rəbbi (ixtiyar sahibi) var”.

Hər halda bu sözlərin heç biri təklikdə “rəbb” sözünün mənasını ifadə etmir. Doğrudur, bu iki xüsusiyyətin hər ikisi ayrı-ayrılıqda Allahın sifətlərindəndir. Amma “rəbb” sözündə həm ixtiyar sahibi olmaq mənası yatır, həm də təkmilləşdirən, yetişdirən. Allah aləmin həm ixtiyar sahibi, həm də bütün aləmi kamilliyə yetirəndir.

Əlbəttə, Allah-taala bir çox aləmlər də yaratmışdır ki, həmin aləmlərin varlıqları müəyyən səbəblərdən sahib ola bilmələri mümkün olan kamilliklərə elə əvvəldən malikdirlər.

Başqa sözlə desək, onlarda heç bir istedad və qabiliyyət yoxdur və hamısı gerçəkləşmişdir. Yəni onlar əvvəldən yaradılarkən bütün mümkün kamillikləri ilə birgə yaradılmışlar. Başqa ifadə ilə desək, onların əvvəli və sonu birdir. Onlar Allahın məxluqu və yaradılış məhsulu olmaq baxımından Onun rəbbliyinin nəticəsidirlər. Allah onları yaradan, vücuda gətirən olduğu baxımdan onların həm də Rəbbidir.

Lakin bizim yaşadığımız aləm, yəni dünya – maddi aləm tədrici aləmdir. Onun qanunu varlıqların naqislikdən başlayıb təkamülə doğru hərəkət etmələri şəklindədir.

Onların əvvəl və sonu bir deyil, ikidir. Onlar bir baxımdan Allahın məxluqudurlar, digər baxımdan Allah onların Rəbbidir.

Təbiət aləmi ümumilikdə digər aləmlərdən fərqli bir aləmdir və müxtəlif növlərə malikdir. Hər bir növ də özünəməxsus sistemlə yaşayır. Əslində, hər bir növün öz aləmi var. Məsələn, cansız əşyalar aləmi, bitkilər aləmi, heyvanlar aləmi, insanlar aləmi, göylər aləmi. Bunların hamısı naqislikdən kamilliyə doğru hərəkətdədirlər. Heç biri yaradılışın başlanğıcında kamil yaradılmamışdır. Bütün bu aləmlərin varlıqlarını son kamilliyə yetirən Allahdır, aləmlərin Rəbbidir.

Qurandan belə məlum olur ki, ümumilikdə bu dünya tərbiyə etmək, yetişdirmək aləmidir. Yaxşılar və pislər kimi dəstələrə bölünən insanın özü də bütünlüklə yetişdirilməkdədir. Maraqlısı budur ki, dünya, sanki, münbit əkin sahəsidir və ona hər nə toxum səpilirsə, yetişir. Bu dünyada təkcə yaxşılar kamilləşmir. Pislər, yəni pis toxum səpənlər də bu dünya sistemində öz mərhələlərini qət edirlər. Allahtaala əl-İsra surəsində buyurur:

– *"Hər kəs fani dünyanı istəsə, dilədiyimiz şəxsə istədiyimiz neməti orada tezliklə verərik. Sonra isə (axirətdə) ona Cəhənnəmi məskən edərik. O, (Cəhənnəmə) qınanmış, (Allahın mərhəmətindən) qovulmuş bir vəziyyətdə daxil olar! Mömin olub axirəti istəyən və onun uğrunda (canbaşla) çalışanların zəhməti (Allah dərgahında) qəbul olunar. Onların və bunların hər birinə Rəbbinin nemətindən kömək yetirərik. Rəbbinin neməti (istər dünyada, istərsə də axirətdə heç kəsə) qadağan deyildir".*[1]

Bu ayələrin məzmununun xülasəsi budur: kim dünyanı istəsə və dünya toxumu əksə, Biz də ona kömək edər və səpdiyi məhsulun samərə verməsinə yardım göstərərik.

[1] əl-İsra, 18-20

Amma istədiyimiz miqdarda və Özümüzün istədiyimiz kəslər üçün! Yəni burada qəti qanun yoxdur ki, kim dünyanı istəsə, onu mütləq öz istəyinə çatdıracağıq.

Dünyatələblik toxumunun səmərəsinin yüz faiz qəti olmamasının səbəbi dünyanın çoxsaylı ziyanlar və maneələrlə dolu olmasıdır. Yoxsa ki, buna səbəb dünyanın bu toxumların yetişməsi üçün yaradılmaması deyil.

Sonra buyurur: Amma hədəfi yalnız dünya olan və insana layiq yoldan çıxmış şəxsin sonda gedib Cəhənnəmə çıxması qətidir.

Lakin birinin hədəfi dünya olmasa və o, axirət toxumu səpsə, onun yolunda çalışsa, bu əməl heç vaxt puça çıxmayacaq və öz nəticəsini verəcəkdir. "*Onların və bunların hər birinə Rəbbinin nemətindən kömək yetirərik*".

Xülasə, bu dünyanın sistemi elə qurulmuşdur ki, kim nə toxum əksə, onun yetişməsi üçün münasib şərait var və həmin toxum yetişəcəkdir. Sadəcə bəzi toxumların yetişməsi yüz faizlikdir. Bu, "siratəl-müstəqim" – doğru yol toxumudur. Amma bəzi toxumlar da var ki, onların yetişməsinə imkan olsa da, məhsul verməsi ümumi və qəti deyil. Buna görə də nalayiq işlərlə məşğul olan və plan hazırlayıb məqsədlərinə çatan şəxslər öz əməllərini: "Əgər bizim işimiz səhv olsaydı, məqsədimizə çatmazdıq" – deyib yoza bilməzlər. Hər hansı bir fikrin əməldə öz nəticəsini verməsi, onun haqq olması demək deyil. Dünyanın quruluşu belədir. "*Onların və bunların hər birinə Rəbbinin nemətindən kömək yetirərik*". Kim nə əksə yetişər, bəzən isə istədiyi nəticəni əldə edər.

### *Ər-Rəhmanir-Rəhim*

Bundan öncə bu sözlər barədə bir qədər danışdıq. Dediklərimizə bunu da əlavə edirik ki, Allahı bu iki sifətlə vəsf etmək olduqca kamil bir agahlıq tələb edir. Çünki

"Rəhman"ın mənası rəhməti bol, firavan olandır, amma bizim "firavan" sözündən başa düşdüyümüz miqdarda yox. Yəni bütün varlıq aləmi Onun tərəfindəndir və Ondan gələn hər şey həm rəhmətdir, həm də gözəl. "Rəhim" isə rəhməti daim insanlara yetişəndir.

Bu iki sifətin birincisi ümumilikdə varlıq aləminə, ikincisi isə xüsusi olaraq insanlar aləminə aiddir. Allahı birinci sifətlə vəsf etmək üçün bəndənin o qədər dərin idrakı olmalıdır ki, o, dünyanı başdan-başa rəhmət içində görməli, dualizm fikrini özündən uzaqlaşdırmalı və dünyanı xeyir və şərə bölməməlidir. Bütün varlıq aləmini Ondan yarandığı üçün xeyir və sırf rəhmət hesab etməlidir. Bu, "ilahi ədalət" mövzusunda irəli sürülən məsələdir.

Bəndə bu məsələni həmişə özü üçün təkrar etməlidir. Nəql edilmiş dualarda da bu məsələ tövsiyə edilmişdir. Namaza başlamazdan qabaq deyilməsi müstəhəb olan (bəyənilən) təkbirlərin beşincisindən sonrakı duada belə deyilir:

*"Ləbbeykə və sə'deyk, vəl-xayru fi yədeyk, vəş-şərruleysə ileyk..."*

Namaz qılan bəndə özünü Allahın çağırdığı Allah övliyalarının yerinə qoyaraq belə deyir: "Gəldim, gəldim, Sənin razı olduğun şeyə – daha dolğun ifadə ilə desək, baş üstə – gəldim! Xeyir yalnız Sənin əlindədir. Şərin kökü Sənə qayıtmır".

Allahı Rəhman sifəti ilə tanımağın mənası dünyanı Allahın kamil hikmətinin və mükəmməl nizamının təzahürü bilməkdir. İnsan Allahı bu sifətlə mədh etdikdə varlıq aləminə xeyirli, rəhmət dolu və nurani bir quruluş kimi baxmalı, şərin, çətinliyin, zülmətin nisbi və qeyri-həqiqi olmasına etiqad bəsləməlidir. Təbii ki, hər xam düşüncə sahibi dünya barədə belə bir baxışa malik olmasını iddia edə bilməz. Həmçinin insan özündə nə zorla, nə də ibadət gücü-

nə belə bir baxış yarada bilməz. Quran bizdən Allahı bu sifətlərlə mədh etməyimizi ona görə istəyir ki, Ona və dünyaya belə baxmağımızı istəyir. Bu növ baxış da böyük məsələləri düzgün əqli yollarla və dəlillərlə dərk etməkdən asılıdır. Bunlar dolayısı ilə ilahiyyat məsələlərində təfəkkürə dəvət və bu kimi agahlıqların hasil olmasının mümkünlüyünü təsdiqləməkdir.

İkinci sifət olan Rəhim sifətinə gəldikdə isə qeyd etmək lazımdır ki, "Allah"ı bu sifətlə tanımaq insanın aləmdə olan varlıqlar arasında öz yerini kamil tanımasını tələb edir.

İnsanın varlıqlar arasındakı imtiyazı onun bu dünyanın yetkinliyə çatmış övladı olmasıdır. İnsan bu ailənin ata-ananın icbari qəyyumluğu altında olan yetkinliyə çatmamış övladı deyil. O, ağıl və düşüncə baxımından elə bir həddə çatmışdır ki, ona yolu özünün seçməsi göstəriş verilmişdir. Halbuki digər varlıqlar aləmdə olan digər amillərin məcburi nəzarəti altındadırlar. Təkcə insan əqli inkişafına görə azadlıq və ixtiyara malikdir və iki yoldan birini seçə bilər:

*"Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor".*[1]

Həm doğru, həm də yanlış yol insanın qarşısındadır. Əgər insan haqq olan "siratəl-müstəqim"lə (doğru yolla) getsə, Allahın xüsusi rəhməti ona şamil olur. Dünya elə qurulmuşdur ki, kim Allahın yolu ilə getsə, Allah-taala ona kömək edər, onu istiqamətləndirərək doğru səmtə hidayət edər – *"Bizim uğrumuzda cihad edənləri öz yollarımıza qovuşduracağıq".*[2] – qəlbini nurani edib ürəyini qüvvətləndirər, onun yolu üçün lazım olan vasitələri hazırlayar, *"ona gözləmədiyi yerdən ruzi verər".*[3] Nəhayət, elə bir mərhələ-

---

[1] əl-İnsan, 3
[2] əl-Ənkəbut, 69
[3] ət-Talaq, 3

yə çatar ki, Allahla ticarət mərhələsinə yetişdiyini hiss edər. Çünki görər ki, hər nə qədər səmimiyyətlə davranırsa, Allahın lütfü ona daha çox şamil olur. Həmin vaxt bəndə Allahın razılığı və Ona təslim məqamına çatmışdır.

## *Maliki yaumiddin*[1]

Yəqin ki, şəriət hökmlərinin izahı kitablarında oxumusunuz ki, bu ayəni namazda iki cür oxumaq olar, həm "Maliki yaumiddin", həm də "Məliki yaumiddin" kimi. İndi baxaq görək, bu iki fərqli oxunuş ayənin iki fərqli məna verməsinə səbəb olur, ya yox?

Adi istifadələrdə "məlik" və "malik" sözlərinin ayrı-ayrı mənaları var. Onlardan birincisi siyasi, ikincisi isə iqtisadi bir əlaqədir. İnsanın bir şeylə əlaqəsi ondan bəhrələnmək formasında olduqda "malik" sözü işlədilir. "Məlik" sözü isə başqasından üstün bir qüdrətə malik olduğu və özü üçün idarəçilik və siyasət haqqının olmasına inandığı yerdə deyilir.

Lakin hər iki halda heç bir gerçəklik mövcud deyil və bu əlaqələrin hər ikisi şərtidir. Yəni "Filankəs filan evin malikidir (sahibidir)" cümləsinin mənası budur ki, hal hazırda belə olduğu qərara alınıb. "Filankəs filan yerin məlikidir (hökmdarıdır)" cümləsi də şərtilikdən başqa bir şey deyil. Buna görə də hər iki məsələdə əgər şərt dəyişsə, həmin şey daha mövcud olmur. Yəni ola bilər, bir an sonra həmin evin sahibi, yaxud deyilən yerin hökmdarı başqası olsun və əlaqə yeni insanlarla qurulsun.

Bu kimi yerlərdə, yəni malik və məlik olmağın şərti şəkildə formalaşdığı hallarda bu iki məna bir-birindən tam fərqli olur. Yəni nə məlik malikin işini görə bilər, nə də malik məlikin işini. Onlardan biri mülkiyyətdir, o biri hakimiyyət.

[1] *"Haqq-Hesab gününün sahibi"*

Amma bəzən bu əlaqə şərti deyil, həqiqi olur. Məsələn, əgər kimsə desə ki, “mən fiziki qüvvəmin sahibiyəm”, bunun mənası “ondan istifadə etməyə haqqım var və ixtiyar sahibiyəm” – deməkdir. Yəni mənim varlığımda bir qüvvə var və mən istədiyim vaxt ondan istifadə edə bilərəm, məsələn, onun köməyi ilə danışaram və istədiyim vaxt istifadə etmərəm. Gördüyünüz kimi, burada məlik ilə malikin nümunəsi birləşir. Yəni biz həm bədən üzvlərimizin malikiyik (sahibi), həm də “məlik”iyik və onlara hakimik. Çünki bu, şərti və sırf məcazi deyil, yaradılış və xilqətlə bağlı bir məsələdir.

Bütün aləmlərin yaradanı, iradəsi bütün aləmə hakim olan Allah barədə məliklik və malikliyin vəhdəti çox yaxşı aydındır və burada maliklə məlikin arasında həqiqi əlaqə mövcuddur. Buna görə də Quranda Qiyamətdə hakimiyyət barəsində belə buyurulur:

– *“(Allah buyuracaq:) “Bu gün mülkiyyət və hakimiyyət kimə məxsusdur?” (Allah Özü cavab verəcəkdir:) “Tək və qüdrətli Allaha”.*[1]

Bundan da aşkar digər bir ayədə buyurur: *“De: "Ey mülkün sahibi olan Allah!”*[2] Bu ayədə hökmranlıq və idarəçilikdə ixtiyar sahibi olmaq malik olunası bir şey kimi fərz edilmişdir. *“Bu gün mülkiyyət və hakimiyyət kimə məxsusdur?”* ayəsinin məzmunu da elə budur və ayənin ərəbcə orijinalındakı “lam” hərfi[3] malik olmaq mənasını ifadə edir. Ayədə “malik kimdir?” deyə soruşulur və “Allahdır” deyə cavab verilir. Buradan da belə məlum olur ki, sahibliklə hökmranlıq bir-birindən elə də ayrı deyildirlər və deyilən qədər də ayrı-ayrı sahələri əhatə etmirlər.

---

[1] əl-Mumin, 16
[2] Ali-İmran, 26
[3] Ərəbcədə – *“Limənil-mulku əl-yaum”* ayəsində işlənən *“li”* önqoşması nəzərdə tutulur. – Red.

Məgər Allah ancaq Qiyamətin hökmdarı və sahibidir, dünyanın hökmdarı və sahibi deyil?

Xeyr! Allah həm dünyanın, həm də axirətin həqiqi sahibi və hökmdarıdır. Sadəcə fərq burasındadır ki, insan dünyada həqiqəti olduğu kimi görə bilmədiyi üçün şərti və məcazi sahib və hökmdarlar yaradır, özünü və ya başqasını əşyaların sahibi və ya hakimi hesab edir və "bu evin sahibi mənəm" – deyir. Amma dünyada olan həqiqətlər ona məlum olduqda və dünyaya həqiqət gözü ilə nəzər saldıqda görəcək ki, bütün mülklər və hakimiyyətlər yalançı imiş və əsl sahib və hökmdar Odur: *"Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!"*[1]

Aşağıdakı hədis də həmin mətləbi bəyan edir:

Cabir İmam Baqirin (ə) belə buyurduğunu nəql edir: "Ey Cabir, həmin gün (Qiyamətdə) də, bu gün də işlər Allahın əlindədir. Qiyamət olduqda bütün hakimlər yox olacaqlar və Allahdan başqa bir hakim qalmayacaq".[2]

## *İyyakə nə'budu və iyyakə nəstə'in*[3]

İnsan güman edir ki, tövhid İslamda olan məsələlərdən biridir və İslamda tövhidlə yanaşı, minlərlə digər məsələ var. Amma diqqət etdikdə görür ki, İslam başdan-başa tövhiddir. Yəni onun bütün məsələləri, istər əqidə əsaslarına aid məsələlər olsun, istərsə də əxlaqa və təlim-tərbiyəyə, yaxud da gündəlik əməllərə aid məsələlərin hamısı bütünlüklə tövhiddir.

Məntiq elmində "təhlil və tərkib" deyilən bir termin var. Təfəkkürdə istifadə edilən bu iki termin təbii elmlərdən götürülmüşdür. Məqsəd budur ki, maddi aləmdə hissələrə

[1] Qaf, 22

[2] əl-Mizan, c. 20, s. 229

[3] *"Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik!"*

ayırma və tərkib halına salma mövcud olduğu kimi, yəni bütün mürəkkəb maddələr sadə ünsürlərə bölündüyü və həmin ünsürlər birləşdirildikdə yenidən həmin mürəkkəb maddə yarandığı kimi, təfəkkürdə də belədir. Filosoflar insanın bütün fikir və düşüncələrinin ziddiyyətin olmaması kökünə qayıtdığını deyirlər. Yəni əgər təhlil edilərək hissələrə ayrılsa, onların bu kökə qayıdışının qətiliyi üzə çıxar.

İslamda da belə bir kök var və bu, tövhiddir. Yəni əgər İslamın bütün əsaslarını təhlil etsək, tövhidə qayıdacaqdır.

Əgər İslamın digər iki əsası olan nübüvvət (peyğəmbərlik) və məadı (ölümdən sonrakı həyatı), həmçinin imaməti təhlil etsək, onların tövhidin digər formaları olduğunu müşahidə edərik. Eləcə də əgər əxlaqi göstərişləri, yaxud İslamın ictimai hökmlərini araşdırsaq, onların da tövhid şəklində zahir olduqlarını görəcəyik.

Biz bu barədə deyilənlərlə kifayətlənir və ətraflı izahı digər yerə həvalə edirik. Bu məsələ əl-Mizan təfsirinin müxtəlif yerlərində açıqlanmışdır.

## Nəzəri və əməli tövhid

İslamda iki tövhid mövcuddur: Nəzəri tövhid və əməli tövhid. Nəzəri tövhid məlumat və düşüncə aləminə aiddir. Yəni Allahı bir bilmək. Əməli tövhidin mənası isə insanın əməldə özünü bir etməsi, bir istiqamətdə, tək olan zat istiqamətində bir etməsidir. Başqa sözlə desək, nəzəri tövhidin mənası Allahın birliyini bilmək, əməli tövhid isə insanın bir olmasıdır.

Bunları deməkdə məqsədim budur ki, Həmd surəsində surənin əvvəlindən bura kimi deyilənlər birinci növə, yəni nəzəri tövhidə aiddir. Bundan (*"İyyakə nə'budu"*[1]dan) sonra isə əməli tövhid bəyan edilir. İnsan burada bu kiçik su-

---

[1] *"Biz yalnız Sənə ibadət edirik!"*

rənin misilsiz əzəmətini dərk edir və bu müqəddəs kitabın möcüzə olmasının aşkar nümunəsini bu kiçik surədə görür.

Həqiqətən də, insan, savadsız, elm və mədəniyyətdən xəbərsiz və uzaq bir cəmiyyətdə, dərs oxumamış bir şəxsin dilindən dərinliyi ən böyük filosofları düşüncələrə qərq edən və şirinliyindən oxumaqla doymaq olmayan bu cür kəlamların xaric olduğunu gördükdə, heyrətini gizlədə bilmir!

Belə ki, Həmd surəsinin əvvəlindən "Maliki yaumiddin"ə kimi olan söz və cümlələrdə Allahı tanımaq barəsində bir sıra nəzəri məsələlər irəli sürülmüşdür. O, "Allah"dır, "Rəhman"dır, "Rəhim"dir, "Rəbbil-aləmin"dir, "Maliki yaumiddin"dir. O, birmənalı şəkildə "həmd" edilən zatdır və bütün həmd və şükürlər Ona məxsusdur.

Həqiqətən də, bütün ilahiyyat bu bir neçə sözdə ifadə edilmiş, ən mühüm ilahi məsələlər bu bir neçə sözlə açıqlanmışdır.

İslam alimləri və filosofları doğru olaraq belə bir qənaətə gəlmişlər ki, Quranın bu məsələləri irəli sürməsində məqsəd bu həqiqətlərin dərinliklərinə baş vurmaq və onları diqqətlə araşdırmaqdır. Quran bizim bu sözləri dil əzbəri etməyimizi istəmir, onların həqiqətlərini dərk etməyimizi istəyir.

Namazda Allahı bu sifətlərlə xatırlayan şəxs, əslində, bu ad və sifətlərlə Allahla tanışlığı təmin etmək – Onun "Allah" olmasını, yəni Onun aləmdə olan bütün varlıqların fitri olaraq üz tutduqları ibadətə layiq kamil və layiqli zat olmasını dərk etmək məqamındadır. Başqa sözlə desək, bəndə Onun mütləq kamil varlıq olmasını, naqislik, fanilik və ehtiyacın Ondan uzaq olmasını və hər bir şeyin Ondan gəlib Ona tərəf qayıdacağını dərk, etiraf və qəbul edir.

Onun Rəhman olmasını – izah etdiyimiz kimi – dərk etmək üçün insan, doğrudan da, çox dəqiq və incə təfək-

kürə malik olmalıdır. Yəni dərk etməlidir ki, varlıq aləmi bütünlüklə Haqqın rəhmanlığının təzahürüdür, Onun etdiyi ancaq xeyir və rəhmətdir və hər bir varlıq, varlıq olması, yəni gerçəklik olması baxımından xeyir və rəhmətdən başqa bir şey deyil, şər və pislik əşyaların yoxluğu, başqaları ilə müqayisə edilməsi baxımındandır, onların varlığında və özlərinə görə deyil.[1]

Həmçinin insan Onun Rəhim olmasını dərk etməlidir. Allahı bu sifətlə çağıran bəndə, əslində, bu iddiadadır ki, təkcə yaradılış aləmini və əşyaların yaradılışının Haqqın təzahürü olduğunu dərk etmir, həmçinin əşyaların Haqqa tərəf dönəcəyini, bunun da xeyir və rəhmət olduğunu, yəni varlıqların rəhmətdən gəlib rəhmətə tərəf dönəcəyini də anlayır.

Bunun mənası rəhmətin qəzəbi qabaqlamasıdır. Başqa sözlə desək, əgər düzgün dərk edilsə, hətta cəza və əzabın özü də cəza libasında olan rəhmətdir.

Başqa cür ifadə etsək, Allahın həm cəlal, həm də camal sifətləri var. Camal sifətlərinə misal olaraq, elm, qüdrət, həyat, səxavət və rəhməti, cəlal sifətlərinə isə "Quddus" (pak və nöqsandan uzaq), "Cabbar" (hər şey üzərində qəti iradəyə malik olan), "Muntəqim" (intiqam alan) və sairə sifətləri göstərmək olar.

Allah-taala Öz zatında ikiliyə malik deyil. Məsələn, Onun zatının yarısının rəhmət, xeyir, əta, bəxşiş və rəbblik olub, digər hissəsinin isə Quddus, Cabbar və Muntəqim olması kimi deyil. Yaxud xeyir, əta, bəxşiş və rəhmət olan məqamda Cabbar və Müntəqim olmaması kimi də deyil. Sadəcə Allahın ad və sifətləri arasında əvvəl və sonralıq var.

Filosof və mütəfəkkirlər bu barədə olduqca maraqlı və dərin araşdırmalar aparmışlar və bunlar bəşər təfəkkürü-

---

[1] Bu barədə daha ətraflı məlumat üçün Mürtəza Mühətəhhərinin "İlahi ədalət" kitabına müraciət edin.

nün ən dəyərli məhsullarındandır. Bu həqiqətlərin dərinliklərinə yalnız yorulmadan araşdırma aparmaq qüdrətinə malik geniş idrak və dərin düşüncə sahibləri çatmışlar.

Bəli, Allahın ad və sifətləri arasında bir növ əvvəllik və sonralıq hakimdir. Yəni ad və sifətlərin bəzisi digər bəzisindən yaranmadır. Ümumilikdə camal sifətləri cəlal sifətlərindən əvvəldir və cəlal sifətləri camal sifətlərindən yaranmadırlar. "Cabbar"lığı və "muntəq" olması digər şeylərdən qabaq olan kəs dünyanın həqiqi sahibi olan və Quranın tanıtdırdığı Allah deyil, yəhudilərin uydurma tanrısı olan "yəhuva"dır.

Buradan da Quranın "Bismillah"ında nə üçün, məsələn, Cabbar və Muntəqim sifətləri deyil, Rəhman və Rəhim sifətlərinin işləndiyini başa düşmək olur. Çünki Quran baxımından varlığın təsviri Rəhman və Rəhim olan Allahın təsviridir. Hətta Allahın Cabbar və Muntəqim olması da Onun Rəhman və Rəhim olmasının bir formasıdır.

Əlbəttə, məlumdur ki, rəhimlik mərhəməti, yəni varlıqların Allahın dərgahına qayıtdıqda şamil olacaq rəhmət, ilk növbədə iman əhlinə şamil olacaq. Yəni onlara yetişəcək şey həm zahir, həm də batini baxımından rəhmətdir, cəza formasında olan rəhmət deyil, rəhmət şəklində olan rəhmətdir, nisbi deyil, mütləq rəhmətdir.

Rəhmanla rəhimin fərqi barəsindəki "Rəhman dünyaya, Rəhim isə axirətə aiddir", yaxud "Rəhman kafir və möminliyindən asılı olmayaraq hamıya, Rəhim isə ancaq möminlərə şamildir" kimi deyimlərdən də məqsəd öncə izah etdiyimiz şeylərdir.

Dünya ilə axirət iki ayrı aləm olmaları baxımından bir-birindən birinin rəhmətin Rəhman formasına, digərinin isə Rəhim formasına malik olması, yaxud, məsələn, kafir və möminlərin müştərək rəhmətlərinin bir kökdən, iman əhlinə məxsus rəhmətin isə digər bir növdən olması ilə fərqlənmir.

Varlıq aləmində bu kimi bölgülər yoxdur. Varlığın rəhmət baxımından bölgüsü dünyanın "gəlişi" və "dönüşü" baxımındandır. Dünya "Ondandır" və "Ona tərəfdir". Allah Rəhmandır, yəni dünyanın gəlişi və "Ondan olması" rəhmətin təzahürüdür. Həmçinin Allahın Rəhim olmasının mənası dünyanın dönüşü və "Ona tərəf olması"nın da rəhmətin təzahürü olmasıdır. Hətta Allahın Cabbar və Muntəqim olmasının təzahürü olan Cəhənnəm və ilahi əzab da Onun rəhimliyindən yaranır. Burada bundan artıq izah vermək mümkün deyil.

O, *"Maliki yaumiddin"*dir. Burada digər bir idrak və tanışlıqdan söhbət gedir.

Bəndə yaradılışın sonunu dərk etdiyini iddia edir. Yəni o bilir ki, cəza günü var və həmin gün heç bir səbəb və vasitə əsas olmayacaq, əsl malik (sahib) və məlikin (hökmdarın) Allah olduğu məlum olacaqdır.

Bunların hamısı indiyə kimi deyilən təfsirlərlə birlikdə nəzəri tövhid sahəsinə aiddir. Yəni nəzəri tanışlıq qismindən olan tövhid çərçivəsindədir və bu tanışlıqlar çox vacib və zəruridir. Heç vaxt bu mərhələnin zehni bir mərhələ olduğunu və zəruri olmadığını demək olmaz. Xeyr, İslamda tanışlıq və idrakın özü əsasdır və bu mərhələ olmayınca, insan əməldə irəliləyə bilməz.

Lakin, görəsən, bu mərhələ kifayətdirmi? Yəni əgər insan təkcə tanısa və dərk etsə, müvəhhid (təkallahlı) hesab edilirmi?

Xeyr! Bu tanışlıq və dərk etmə müqəddimədir. Yəni (əməli tövhid üçün) ilk öncə tanımaq və başa düşmək lazımdır.

Biz *"İyyakə nə'budu"* deyərkən əməli tövhidə başlayırıq və "birliyi" izhar etmək istəyirik.

## İbadət sözünün kökü

Ərəb dilində bir şeyin heç bir üsyan və müqavimət göstərməyəcək həddə ram və müti olmasına "təəbbüd" deyilir.

Qədimdə yollar bugünkü kimi əvvəl müxtəlif yolsalma texnikası ilə salınıb sonra istifadə edilmirdi. Yollar müəyyən bir yerin üzərində hərəkət etmək və yol getməklə düzəlirdi. Buna görə də ilk günlərdə yollarda olan daş-kəsək və tikanlar insanın hərəkətinə mane olurdu. Amma yavaş-yavaş get-gəl nəticəsində həmin daş-kəsəklər parçalanır, yumşalırdı və hərəkət edənlərə müqavimət göstərmir, insan və heyvanların ayaqlarını incitmirdi, ram və aram idi. Halbuki çölün yol olmayan digər hissəsində daşlar ayağın altını incidir və müqavimət göstərirdi. Bu yola, yəni ram olmuş yola ərəblər "təriqun muəbbəd" (əbd – ram olmuş yol) deyirdilər.[1]

Əbd (qul) olan insanın mənası ram, müti və təslim olan və heç bir şəkildə üsyan etməyən şəxsdir. Bu cür olmaq, yəni ram və müti olmaq və kiçicik üsyan etməmək insanın yalnız Allaha münasibətdə malik olmalı olduğu bir haldır. Allahın "əbd"i (qulu) olmağın mənası Ona münasibətdə və Onun əmrlərinə münasibətdə belə bir hala malik olmaqdır. Bəndəlik və ibadətdə tövhidin mənası isə heç bir varlığın və heç bir əmrin qarşısında bu hala malik olmamaq, Allahdan başqası önündə üsyan və itaətsizlik halına malik olmaqdır. Deməli, insanda həmişə iki ziddiyyətli hal olmalıdır: Allaha mütləq təslimçilik və Allahdan başqasına qarşı mütləq üsyan. *"İyyakə nə'budu"*hun mənası budur, yəni yalnız Sənə ibadət edirik və Səndən başqasına ibadət etmirik.

---

[1] Müfrədat, Rağib

Bunu da bilmək lazımdır ki, ata, ana, imam, ilahi rəhbərlər və sairə kimi Allahın itaət etmək göstərişi verdiyi kəslərə itaət də, əslində, Allaha itaətdir. Çünki insan onlara Allahın buyuruğu əsasında itaət edir və bu çərçivəyə daxil olan hər bir əməl ibadətdir. Amma Allahla eyni səviyyədə, yəni Onun əmrləri səviyyəsində deyil. Onunla bərabər tutulan hər bir şey şirkdir.

## Şirklər və tövhidlər

Qurani-kərimdə şirkin müxtəlif nümunələri qeyd edilmişdir ki, biz onların bəzisinə işarə edəcəyik və bununla yanaşı, Quranda olan əməli tövhidin mənası da aydınlaşacaq.

*1. "Nəfsini özünə tanrı edəni gördünmü?"* [1]

Bu ayədə şəhvətpərəst insan müşrik hesab edilmişdir. Mövlana "Məsnəvi"də deyir (məzmunu): *"Bütlərin anası sizin nəfs bütünüzdür. Çünki o büt ilan, bu büt isə əjdahadır. Nəfs dəmir və daşdır, büt isə qığılcım. Bu qığılcım su ilə sönür. Lakin məgər daş-dəmir su ilə sakitləşər?! Məgər insan bu ikisi olan yerdə əmin-amanlıq içində ola bilər?!"*

Buna görə də *"İyyakə nə'budu"* (Biz yalnız Sənə ibadət edirik) deyərkən Allahdan başqasının məbud olmasını rədd edir, öz şəhvət, meyil və istəklərimizə deyil, Allahın əmrinə müti olduğumuzu iddia edirik.

*2. "Onlar Allahı qoyub alimlərini və rahiblərini özlərinə tanrılar qəbul etdilər".* [2]

Bu ayə yəhudi və xaçpərəstləri məzəmmət edərək onların Allahın əmrindən dəlilləri olmadığı halda, yəhudi

[1] əl-Furqan, 43
[2] ət-Tövbə, 31

alimlərini və rahibləri özlərinə tanrı bilib onlara ibadət etdiklərini buyurur.

Bildiyimiz kimi, yəhudi və xaçpərəstlər öz alimlərinə bütpərəstlərin bütə ibadət etdikləri kimi ibadət etmirdilər. Yəni onlara, məsələn, səcdə etmirdilər. Onların ibadəti alimlərin önündə mütləq mütilik idi. Yəni Allah tərəfindən icazə verilmədiyi halda onlara müti və təslim idilər. Daha doğrusu, onlar alimlərin nəfsi istək və meyillərinə tabe idilər. Alimlər öz nəfsi istək və meyillərinə əsasən, nə deyirdilərsə, bunlar da qəbul edirdilər. Allah-taala burada buyurur ki, itaət Allaha məxsus haqlardandır və Onun buyurduqlarına itaət etmək olar. Allah göstəriş vermədiyi halda, nə üçün yəhudi alimlərinə və rahiblərə ibadət edirsiniz?

Deməli, bizim *"İyyakə nə'budu"* deməyimizin mənası həm də budur ki, biz ruhani, müqəddəs və ya hər hansı bir kəsə ibadət etmir, kor-koranə tabe olmuruq. Biz Sənin buyurduqlarına itaət edir, Sənin buyurmadıqlarına isə itaət etmirik.

Həzrət Peyğəmbərə (s) itaət ediriksə, bunun səbəbi Sənin onun əmrlərinə tabe olmağı aşkarcasına vacib buyurmağındır.

"Əmr sahibləri" olaraq məsum imamlara (ə) itaət ediriksə, bunun səbəbi Sənin əmrindir. Əgər lazımi şərtlərə malik müctəhidlərə, yəni təqvalı, ədalətli və savadlı alimlərə tabe oluruqsa, bunun dəlili Sənin göstərişlərinə əməl etməyi vacib buyurduğun həzrət Peyğəmbər (s) və imamların (ə) bizə belə bir göstəriş vermələridir.

***3. "Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! (O kəlmə budur:) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!"*** [1]

---

[1] Ali-İmran, 64

Bu, həzrət Peyğəmbərin (s) hicrətin beş və ya altıncı ilində dünyanın bəzi ölkə başçılarına göndərdiyi ayədir.

Ayədəki *"Allahı qoyub bir-birimizi (özümüzə) Rəbb qəbul etməyək!"* cümləsinin mənası budur ki, bəzilərimiz bəzilərimizi "rəbb" və ixtiyar sahibi kimi qəbul etməsin, heç birimiz digərinə ibadət və itaət etməyək, yalnız Allahı məbud və itaətə layiq "Rəbb" hesab edək.

Quranın əməli tövhid nümunələrindən biri də budur. Buyurur ki, heç bir insan başqa bir insanı özünə rəbb götürməməlidir, həmçinin hansısa bir insan digərini öz mütləq mütisi etməməlidir. Buna görə də *"İyyakə nə'budu"*-nun mənası budur ki, İlahi, yalnız Səni Rəbb və itaət edilən seçirik. Bizim heç bir ictimai məbudumuz yoxdur və nə bir insanı, nə də hansısa bir insanın əmrini Sənin Özünün və ya Sənin əmrinin müqabilində itaətə layiq hesab etmirik.

***4. "Boynuma minnət qoyduğun bu nemət də (məni sərbəst buraxıb) İsrail oğullarını (özünə) qul etdiyinə görədir".*** [1]

Musa ibn İmran Fironun yanına gedib onu Allahın yoluna dəvət edərkən, Firon qəzəblə deyir: "Sən bizim evimizdə olmusan, bizim əlimizin altında böyümüsən. O mühüm və pis işi (qibtini öldürməsini nəzərdə tutur) də etdin". Musa ona belə cavab verir: "İsrail oğullarını kölə etməyinin müqabilində mənə bu minnəti qoyursan?!" Yəni deyirsən İsrail övladlarını özünə kölə etməyinin müqabilində mən heç nə deməyim?!

Gördüyünüz kimi, həzrət Musa Fironun istibdadçılığını "təb'id" (əbd – qul etmək) adlandırmışdır. İsrail övladları heç vaxt Firona səcdə etmirdilər. Firon onları xar və zəlil etmişdi, icbari itaətə, işə və istismara vadar edərək onların bütün azadlıq və ixtiyarlarını əllərindən almışdı. Onlar

[1] əş-Şuəra, 22

əməldə Fironun qarşısında ram və müti idilər. Deməli, *"İyyakə nə'budu"*nun mənası budur ki, İlahi, biz icbari zillətə və itaətə, istismara və azadlıq və ixtiyarımızın əlimizdən alınmasına boyun əymərik.

Bunlar Quranda olan nümunələrdir və əməli tövhidin mənasını aydınlaşdırmaqda bizə kömək edə bilər. Əməli tövhid İslam alimlərinin terminində "ibadətdə tövhid" adlandırılan məfhumdur. Onda nəzərdə tutulan tövhid xarici aləmdə reallaşan tövhiddir. Yəni reallıqda insan varlığının həqiqəti də yeganələşir.

Xülasə, İslamda insanın təkcə fikir və düşüncədə müvəhhid (təkallahlı) olması, Allahı zat və sifətləri baxımından tək bilməsi və hətta lazım gəldikdə altı ay Allah barədə nitq söyləyəcək qədər dərk etməsi yetərli deyil. Bu xüsusiyyətlərə malik şəxs tövhidin yarısına malikdir. Tövhidin digər yarısı isə onun əməldə təkallahlı olması, hətta yeganələşməsidir. O, Allahı bütün sifətləri ilə tanıdıqdan, itaət və təslimçilikdə də yeganə olduqdan sonra onun müvəhhid (təkallahlı) olduğunu demək olar.

Bundan əvvəl də qeyd etdiyimiz kimi, insan Həmd surəsinin əzəmətini burada dərk edir. Doğrudan da, ömründə heç vaxt dərs oxumamış, heç bir filosofla görüşməmiş və heç bir alimlə ünsiyyətdə olmamış bir şəxsin öz müqəddəs kitabının ilk surəsindəki sözlərin əqidə məktəbinin bütün mənasını kiçik bir hissədə yerləşəcək formada ifadə etməsi, nəzəri tövhidi çox yüksək səviyyədə bir neçə kiçik cümlədə bəyan etməsi və əməli tövhidi kiçik bir cümlədə – *"İyyakə nə'budu"*da göstərməsi olduqca təəccüblüdür.

## İbadətin inhisarı

Ərəb dili qaydaları baxımından *"İyyakə nə'budu"* cümləsində "iyyakə" (yalnız Sənə) sözü "nə'budu"nun (ibadət edirik) tamamlığıdır və adi halda o, feildən sonra gəlməli

və "nə'budukə" deyilməlidir. Əgər belə olsaydı, onun mənası "Sənə ibadət edirik" olardı. Amma alimlər, əslində, sonra gəlməli sözün əvvələ keçməsinin mənanın inhisarçılığını ifadə etdiyini deyirlər. Bu təkcə ərəb dilinə məxsus deyil, digər dillərdə də belədir. Buna görə də ayənin mənası belə olur: "Biz yalnız Sənə ibadət edirik". Yalnız Sənin qarşında mütiyik, Sənin fərmanın olmadan heç kəsin və heç bir fərmanın qarşısında müti deyilik. Deməli, əslində, *"İyyakə nə'budu"* cümləsi bir cümlə olmasına baxmayaraq, iki cümlənin mənasını ifadə edir. Həmin cümlələrdən biri müsbət, yəni Allah qarşısında təslimçiliyi ifadə edən cümlə, digəri isə mənfi (inkar) cümləsidir və Allahdan qeyrisi müqabilində təslimçiliyi rədd edir.

Verilən izahdan sonra bu cümlədə tövhid şüarından çıxan iman və küfr mənasının gizləndiyi məlum olur. Müsəlman "La ilahə illəllah" (Allahdan başqa ilah yoxdur), – dedikdə eyni anda bir iman və bir küfr (inkarçılıq) izhar edir – Allaha iman və Allahdan başqasına küfr.

Ayətül-kürsidə belə oxuyuruq: *"Dində məcburiyyət yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Taqutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur".*[1]

İslamda iman küfrsüz gerçəkləşmir. İmanın kamil olması üçün həmişə Allaha təslim olmaqla birgə, üsyan təzahürlərinin inkarı və onlara qarşı küfr olmalıdır.

## Cəm şəkilçisi

Əməli tövhid və insan "olmaq" mərhələsindəki maraqlı məqamlardan biri "nə'budu" (ibadət edirik) ifadəsində birinci şəxs şəkilçisinin cəm formada qeyd edilməsi və

[1] əl-Bəqərə, 256

"ə'budu" (ibadət edirəm) kimi işlədilməməsidir. Ayədə "yalnız Sənə ibadət edirəm" deyil, "yalnız Sənə ibadət edirik" buyurulur. İnsanın formalaşması məqamı olan bu məqamdakı mətləb budur ki, insan Allahdan xəbərsizlik və qəflətlə deyil, Onu tanımaq və Ona üz tutmaq sayəsində, həmçinin ancaq fikirləşməklə və nəzəriyyə ilə deyil, əməl və fəaliyyətlə formalaşdığı kimi, tövhid əhli qafiləsindən də ayrı və uzaq deyil, ictimai iş və tövhid toplumu ilə birlikdə, onlarla uyğun şəkildə insanlaşır, formalaşır. İnsan mütəfəkkir, ilahi, əməli olan və ictimai bir varlıqdır. Düşüncə və dərketmə qabiliyyəti olmayan insan həqiqi insan deyil. Allahdan üz döndərən və Ondan xəbərsiz şəxs insan deyil. Həmçinin Allahı tanıyıb düşüncəsi olan, amma əməli olmayan insan həqiqi insan deyil, naqis insandır. Eləcə də Allahı tanıyıb düşüncəsi və əməli olan, amma tövhid cəmiyyəti ilə əlaqəsini kəsmiş insan da naqis insandır. Odur ki, əslində, *"İyyakə nə'budu"*nun mənası belədir:

İlahi, biz tövhid cəmiyyətinin insanları birgə hərəkətlə, hamılıqla Sənə üz tutmuşuq və Sənin əmrlərinə təslimik.

## *İyyakə nəstə'in*

*"Yalnız Səndən kömək diləyirik!"* Səndən qeyrisindən kömək istəmirik, yardım diləmirik.

Bu cümlə yardım diləməkdə tövhid mənasını ifadə edir. Yardım diləməkdə tövhidin mənası yalnız Ondan kömək diləmək, təkcə Ondan yardım istəmək və yalnız Ona etimad etməkdir. Burada qarşıya bir sual çıxır və bu, iki cür soruşula bilər. Onlardan biri ümumilikdə yardım və kömək istəmək barəsindədir. Təlim-tərbiyə və əxlaq alimlərinin nəzərinə əsasən, insanda özünə etimad, inam olmalıdır. İnsanın başqasına etimad etməsi və başqasından yardım diləməsi onu asılı və zəif bir varlıq kimi formalaşdırır. Özü-

nəinam isə insanın malik olduğu qüvvələri oyadır və fəallaşdırır.

Bu nəzərə əsasən, insan başqasına deyil, özünə etimad etməlidir və həmin başqasının Allah, yaxud Allahdan qeyrisi olmasının da fərqi yoxdur. Buna görə də alimlər bu gün Allaha etimad olan və insanın özünə inamını itirən "təvəkkül" məsələsini rədd edir və əxlaqa zidd hesab edirlər.

Həmin sual başqa cür də irəli sürülə bilər. Məsələn, insan nə üçün Allahdan qeyrisindən kömək istəməməlidir? İnsanın Allahdan başqasına ibadət etməməsi məntiqidir, amma bəs onun Allahdan başqasından kömək istəməməsinin məntiqi əsası nədir? Allah-taala dünyanı səbəb və vasitələr aləmi olaraq yaratmış və insanları da başqa insanlara və əşyalara möhtac yaratmışdır. Biz həyatda öz ehtiyaclarımızı aradan qaldırmaq üçün digər insanlardan yardım almalı və digər əşyalardan istifadə etməliyik.

Bu sualın cavabında qeyd etmək istərdik ki, bu, başqa bir məsələdir. Başqalarından yardım diləmək və kömək istəməyin bütün formaları pis və qadağan deyil! Ümumilikdə Allah insanı başqalarına ehtiyaclı yaratmışdır. Belə ki, insan cəmiyyətləri biri digərinə ehtiyaclı şəkildədir və İslamın həmişə qarşılıqlı əməkdaşlıq və köməyi tövsiyə etməsi bu həqiqətin göstəricisidir.

Allah-taala Qurani-kərimdə buyurur:

– *"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun".*[1]

Ayənin orijinalındakı "təavun" (qarşılıqlı yardımlaşma) sözünün kökü "aun" (kömək etmə) sözüdür. Əgər başqasından kömək istəmək birmənalı şəkildə qadağan edilmiş olsaydı, Allah-taala qarşılıqlı köməyi tövsiyə etməzdi. Bu ayə göstərir ki, insanlar bir-birlərinə ehtiyaclıdırlar və buna görə də bir-birlərinə kömək etməlidirlər.

---

[1] əl-Maidə, 2

Bir nəfər İmam Əlinin (ə) hüzurunda belə bir dua edir: "İlahi, məni yaratdıqlarına möhtac etmə!"

İmam Əli (ə) buyurur: "Daha belə demə". Həmin şəxs deyir: "Bəs necə deyim?" İmam (ə) buyurur: "Belə de: "İlahi, məni yaratdıqlarının pisinə möhtac etmə!" Məqsəd birinci cümlənin qeyri-mümkün olmasıdır. Çünki insanın yaradılışı elədir ki, o, dünya həyatını davam etdirmək üçün həmişə başqalarına ehtiyaclıdır. Buna görə də *"İyyakə nəstə'in"* cümləsinin mənası insanın başqalarından yardım istəməməsi deyil. Elə isə bunun mənası nədir?

Bu ayənin bizə çatdırmaq istədiyi məna budur ki, insanın son etimadı, qəlbinin söykənəcəyi, yəni insanın əslində və gerçəklikdə arxalandığı yer Allah olmalıdır və dünyada yardım aldığı şeyləri vasitə hesab etməlidir. Bilməlidir ki, hətta insanın özü, vücudunda olan qüvvələr, qolunun gücü, beyninin gücü, bir sözlə, hər bir şeyi Allah yaradaraq onun ixtiyarına vermişdir və onların hamısının ipi Allahın əlindədir. Elə buna görə də çox vaxt insan dünyada vasitələrə etimad edir, amma sonra həmin vasitənin ona gözlədiyi köməyi etmədiyini görür. Həmçinin bəzən öz gücünə arxalanır, amma sonra görür ki, gözlənilən nəticə alınmır. İnsanın arxalana biləcəyi və işini onun əsasında tənzimləyə biləcəyi tərəddüdsüz etibarlı qüdrət Allahdır.

Yazırlar ki, həzrət Peyğəmbər (s) müharibələrdən birində qoşundan ayrılaraq kənarda təpənin üzərində istirahət edib yuxuya getdi. Təsadüfən düşmənin şücaətli adamlarından biri silahlı halda gəzərkən, həzrət Peyğəmbəri (s) gördü və tanıdı. Peyğəmbəri (s) belə tək görməsindən çox sevindi və elə bildi ki, onu öldürə biləcək.

Həzrət Peyğəmbər (s) yatdığı halda o, gəlib Peyğəmbərin (s) başı üzərində dayanaraq çığırdı:

– "Məhəmməd sənsən?" Həzrət Peyğəmbər (s) gözlərini açıb ona baxdı və "bəli mənəm", – deyə cavab verdi.

Həmin şəxs dedi: "İndi səni mənim əlimdən kim qurtara bilər?" Həzrət Peyğəmbər (s) fikirləşmədən: "Allah", – buyurdu.

Belə cavab gözləməyən həmin şəxs dedi: "İndi sənə göstərərəm". Bir addım arxaya çəkildi ki, zərbəsini möhkəm vura bilsin. Birdən ayağı daşa ilişdi və bərkdən yerə yıxıldı. Həzrət Peyğəmbər (s) tez qalxıb onun başının üstünü kəsdirdi və buyurdu: "Səni mənim əlimdən kim qurtara bilər?" Həmin şəxs həzrət Peyğəmbəri (s) sınamaq üçün dedi: "Sənin kərəmin". Həzrət Peyğəmbər (s) də həmin şəxsi bağışladı.

Məqsədim budur ki, bu cümlənin mənası insanın dünyada, əsla, heç bir vasitədən kömək istəməməsi deyil. Məqsəd kömək istəməklə yanaşı, əsl səbəbkarı da tanıması və bütün vasitə və səbəblərin ipinin Onun əlində olduğunu bilməsidir.

## ***İhdinəs-siratəl-mustəqim***[1]

"Siratəl-müstəqim"in mənasının tam aydın olması üçün bir neçə məsələni qeyd etmək lazımdır.

1. Bütün varlıqlar varlıq aləminin qanunlarına əsasən, yaradılışları əsasında qeyri-ixtiyari şəkildə Allaha tərəf hərəkətdədirlər: *"Bil ki, bütün işlər axırda Allaha qayıdacaqdır!"*[2] *"Həqiqətən, axır dönüş sənin Rəbbinədir!"*[3] İnsan da varlıqlardan biri olaraq həmin hökmə məhkumdur.

*"Ey insan! Sən Rəbbinə doğru çalışıb-çabalayırsan. Sən Ona qovuşacaqsan!"*[4]

---

[1] *"Bizi doğru yola yönəlt!"*
[2] əş-Şura, 53
[3] ən-Nəcm, 42
[4] əl-İnşiqaq, 6

2. Yollar içində doğru və əsas yol, səadət və ixtiyari seçim yolu, yəni insanın seçməli olduğu yol bir yoldur.

3. İnsanın seçdiyi şey yol olduğu üçün, təbii ki, insan müəyyən bir məqsədə doğru bir növ hərəkət və məsafə qət etməyi də seçmiş olur. Başqa sözlə desək, o, öz kamilliyinə doğru hərəkət etmək istəyir. Deməli, insan kamilləşən bir varlıqdır. *"İhdinəs-siratəl-mustəqim"*in mənası budur ki, İlahi, bizi doğru təkamül yoluna hidayət et!

4. Təkamül yolu ixtira edilən deyil, tapılandır. İslamın əksinə olaraq, ekzistensializm məktəbinin iddiasına əsasən, heç bir yol və məqsəd mövcud deyil və insan özü üçün məqsəd, dəyər və yol yaradır. Məqsəd, yol və kamilliyin yaradanı insandır. Yəni kamilliyin kamillik və dəyərin dəyər olmasını insan özü özü üçün yaradır. Quran baxımından isə məqsəd və yol, məqsədin kamillik olması və dəyərlərin dəyər olması varlıq aləminin yaradılışında müəyyənləşdirilmişdir, insan onları üzə çıxararaq məqsədi axtarmalı və yolu qət etməlidir.

5. Əyri və dolanbac yolların əksinə olaraq, doğru yol istiqaməti əvvəldən məlum olan yoldur. Doğru olmayan digər yollar isə hətta insanı sonda məqsədə çatdırmalarını fərz etsək belə, istiqamətini daim və dəfələrlə dəyişir. Odur ki, insanın kamilliyə doğru yolu, adətən, dialektiklərin dediyi kimi, ziddiyyətlər arasından keçmək, bir ziddən digərinə keçmək növündən deyil.

6. Təkamül yolunun sonradan yaradılan və ixtira edilən deyil, üzə çıxarılan olmasının mənası torpaq üzərindəki yollar kimi, zahirdə get-gəl nəticəsində yolun salınması və insanın həmin yolda addımlamalı olması deyil. Onun mənası budur ki, yol gedənin varlığının batinində Haqqın dərgahına yetişməkdən ibarət həqiqi kamilliyə doğru bir yol var. Yəni, məsələn, xurma tumunda ağac olmaq xüsusiy-

yəti olduğu kimi, insan varlığında da həqiqi kamilliyə çatmaq fitri xüsusiyyəti var.

7. İnsan fitri istedada malik olmasına baxmayaraq, bələdçi və yol göstərənə möhtacdır. Çünki insanın öz kamilliyi istiqamətində hərəkət etmək təbii istedadına malik digər varlıqlarla əsaslı bir fərqi var, o, budur ki, digər varlıqların yolları təbiətdə müəyyənləşmişdir və onların hər birinin yalnız bir yolu var. Amma insan belə deyil. Müasir fəlsəfi dillə desək, insandan başqa hər bir varlığın təbiəti var.

Ekzistensialistlər bu məsələnin üzərində çox təkid edirlər. Onlar deyirlər ki, insan mahiyyət və təbiəti olmayan bir varlıqdır. Əlbəttə, biz bu barədə öz yerində geniş söhbət açmış və məsələnin onların dediyi şəkildə doğru olmadığını sübuta yetirmişik.

İnsan bir-birinə zidd müxtəlif təbiətlərə malikdir və öz yolunu yüksək, yaxud alçaq təbiətlər arasından seçməlidir. Digər canlılar seçim haqqına malik deyillər. At, qoyun, pişik, it və sair canlılar instinktlə yaradılmışlar və onların yolunu həmin instinktlər müəyyənləşdirir. Buna görə də, görürük ki, tarix boyu onların hamısı öz növünə məxsus rəftar və davranışa malikdir və hamısı eyni cür hərəkət edirlər. Bal arısı, qarışqa və sair varlıqların hamısı yuva və ərzaq tədarükündə eyni cür hərəkət edir və onların işində dəyişiklik müşahidə edilmir.

Amma insanların qarşısında yüzlərlə yol müəyyən edilmiş və insan onların hər hansı birini seçmək imkanına malikdir.

Quranın əl-Leyl surəsində buyurulur: *“Sizin zəhmətiniz cürbəcürdür!”*[1]

Əlbəttə, bu, insanın zəifliyi deyil, kamilliyidir. İndi baxaq görək, bu, insanın tamamilə yolsuz olması mənasını verir, ya yox?

---

[1] əl-Leyl, 4

Materialistlərin, xüsusən, ekzistensialistlərin belə güman etmələrinə baxmayaraq, Quran bunu qəbul etmir. Quranın sözü budur ki, insandan Allaha doğru hərəkət xətti çəkilmişdir və həmin yol insanın müəyyən edilmiş kamillik yoludur. İnsanın qarşısında, məsələn, min yol açılmış və onların yalnız biri doğru, yəni Allaha tərəf gedən və sonda gedib Allaha çıxan əsas yoldur. Amma insan həmin yollardan istədiyini seçməkdə ixtiyar sahibidir. Əgər o, həmin əsas yolu seçsə, doğru yoldadır. Əks təqdirdə, yerdə qalan digər yolların hamısı səhvdir.

Məşhur hədisdə buyurulanların mənası da budur. Nəql edirlər ki, həzrət Peyğəmbər (s) bir gün bir yerdə əyləşmişdi və səhabələr də o həzrətin (s) ətrafında idilər. Həzrət Peyğəmbər (s) yerdə xətlər çəkməyə başladı. Həmin xətlərdən biri düz, qalanları isə əyri-üyrü idi. Sonra buyurdu: "Bu bir yol mənim yolumdur, qalanların heç biri mənim yolum deyil".

Quranın hər yerində zülmət sözünün cəm, nur sözünün isə tək formada işlənməsinin sirri də budur. "*Allah iman gətirənlərin dostudur, onları zülmətlərdən çıxarıb nura tərəf yönəldər.*"[1] Çünki azğınlıq yolları müxtəlifdir, amma haqq yol birdir.

Peyğəmbərlərin (ə) hidayət və bələdçiliyinə ehtiyacın olması da buradan görünür. Çünki insan bəşəriyyəti son kamilliyə doğru aparan yolu onların bələdçiliyi olmadan seçə, ayırd edə bilmir. Gərək, ilahi elçilər bu işdə ona yol göstərsinlər.

Burada əl-Mizan təfsirində bəyan edilən bir məqama da toxunmaq lazımdır. Əl-Mizan təfsirində deyilir: "Quranda "səbil" sözü də yol mənasında işlədilmişdir. Lakin onun mənası "sirat" sözündən fərqlidir. Buna görə də səbil sözü bəzən cəm şəkildə işlənmişdir. Sirat sözü isə hər yerdə tək

[1] əl-Bəqərə, 257

şəkildə işlənib. Səbil sözünün mənası əsas yola birləşən köməkçi yollardır. Sirat isə həmin əsas yoldur.

Ola bilər, bir yerə getmək üçün əsas yol birdən artıq olmasın. Amma ətrafdan gələn kiçik köməkçi yollar çox ola bilər ki, onların hamısı sonda gəlib həmin əsas yola birləşir.

Biz insanlar təkamül yolunda hərəkət edən karvanlar kimiyik. Amma son kamilliyə çatmaq üçün əsas yoldan keçməliyik. Lakin ola bilər ki, bizim hər birimiz özümüzü həmin əsas yola həmin köməkçi yollar vasitəsi ilə yetirək. Əgər tutduğu vəzifəsindən asılı olmayaraq, hər bir kəs özünün insani, əxlaqi, dini vəzifəsinə əməl etsə, yollar işin başlanğıcında bir-birindən fərqli olsalar da, əslində, onu əsas yola yetirən yolu seçmişdir. Yəni, məsələn, biri həkimdir, digəri fəhlə, o biri tacir və s. Bunların hamısı insanın qət edərək özünü "siratəl-müstəqim"ə yetirdiyi "səbil"lərdir.

## *Siratəlləzinə ənə'mtə ə'leyhim ğayril-məğdubi ə'leyhim vələddallin*[1]

İnsanlar bəndəlik məqamında əldə etdikləri şey və yol seçimində hansı yolu seçmələri baxımından üç dəstəyə bölünürlər:

Birinci dəstə bəndəlik yolunu qət edən və "ər-Rəhim" sözünün izahında dediyimiz kimi, Allahın xüsusi rəhmətinin şamil olduğu insanlardır ki, onlara davamlı olaraq nemət arxasınca nemət gəlir və sanki, qeyb aləmindən bir əlin yapışaraq onları çəkməsini hiss edirlər. Bu dəstə Allah dərgahına yaxın olanlardır ki, bura ilk növbədə peyğəmbərlər və övliyalar, sonra kamil insanlar daxildirlər. İnsan həmişə onları özü üçün örnək etməli və onların arxasınca

---

[1] *"Bizi doğru yola yönəlt! Nemət verdiyin kəslərin yoluna! Qəzəbə düçar olmuşların və (haqdan) azmışların (yoluna) yox!"*

getməlidir. Birinci cümlədə insan Allahdan onların yolunu istəyir.

İkinci dəstə birinci dəstənin əksidir. Onlar Allahın yerinə, Allahdan qeyrisinə ibadət etmiş və Allaha qarşı çıxmış, üsyan etmiş kəslərdir. Bunların da əməllərinin nəticəsi özünü onların varlığında göstərmiş və sanki, bir əl onları doğru yoldan uzaqlaşdırmışdır. Nəticədə, onlar birinci dəstə kimi, Allaha tərəf yüksəlmək və ardıcıl nemətlər əldə etmək əvəzinə, Allahın qəzəbinə düçar olmuşlar və kamillik yolu əllərindən tamamilə çıxmış, qorxulu bədbəxtlik dərəsinə yuvarlanmışlar. *"Qəzəbimə düçar olan isə mütləq uçuruma düşüb bədbəxt olar".*[1] Bunlar, əslində, insanlıq yolunu getmək əvəzinə, heyvani yollara getmiş kəslərdir. Bunların insanlığı öz mahiyyətini itirmiş və irəli getmək əvəzinə, geri dönürlər. Quran bunların barəsində "əl-məğdubi ə'leyhim" (qəzəbə düçar olmuşlar) ifadəsi işlətmişdir.

Bu arada üçüncü bir dəstə də var və onlar *"tərəddüd edib nə bunlara, nə də onlara tərəf dönərlər".*[2] Bunların müəyyən yolu yoxdur, çaş-baş və sərgərdandırlar. Hər an bir yol ilə gedirlər və bir yerə də gedib çıxmırlar. Quran bunlara "dallin" (azmışlar) deyir.

Bizim *"İhdinəs-siratəl-mustəqim. Siratəlləzinə ən`əmtə əleyhim ğayril-məğdubi əleyhim vəlad-dallin"* deməyimizin mənası bu olur:

İlahi, bizə doğru yolunu göstər, Öz övliya, doğruçu və pak bəndələrinin yolunu! Həmişə davamlı nemətlərə şamil olanların yolunu! İnsanlıq mahiyyətləri itirilənlərin və insanlıqdan uzaqlaşıb Sənin qəzəbinə düçar olanların yox! Nə də avara-sərgərdan qalıb hər an bir cildə girən və hər an bir dəstəyə qoşulanların yolunu!

---

[1] Taha, 81
[2] ən-Nisa, 143

Kitab “Parlaq İmzalar” Nəşriyyatında hazırlanmışdır